RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 289 (9744) 29 dekabr 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Dövlət başçıları faciə ilə əlaqədar başlanılmış istintaq prosesinin tam şəffaf şəkildə aparılacağını bildiriblər

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında Vladimir Putin dekabrın 25-də Bakı-Qroznı marşrutu üzrə uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiyanın hava məkanında fiziki-texniki xarakterli kənar müdaxiləyə məruz qalması və nəticədə baş vermiş faciəvi hadisə ilə bağlı üzrxahlığını ifadə edib, bu qəzada həlak olanların ailələrinə və yaxınlarına dərin və ən səmimi başsağlığını bir daha çatdırıb, xəsarət alanların tezliklə şəfa tapmasını dilədiyini deyib.

Prezident İlham Əliyev "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiyanın hava məkanında olan zaman kənar fiziki-texniki müdaxiləyə məruz qaldığını və idarəetməsini tam itirdiyini, Qazaxıstanın Aktau şəhərinə doğru yönləndirildiyini, yalnız pilotların şücaəti və peşəkarlığı sayəsində qəza enişi edə bildiyini qeyd edib. Dövlətimizin başçısı təyyarənin gövdəsində çoxsaylı dəliklərin olmasının, hələ havada olarkən sərnişinlərin və heyət üzvlərinin təyyarənin göyərtəsini dəlib içəri daxil olan yad hissəciklərlə yaralanmalarının, bu xüsusda, sağ qalan təyyarə bələdçilərinin və sərnişinlərin ifadələrinin kənar fiziki-texniki müdaxilə faktını təsbit etdiyini vurğulayıb.

Söhbət zamanı dövlət başçıları bu faciənin bütün təfərrüatlarının ciddi və hərtərəfli araşdırılması, günahkarların məsuliyyətə cəlb olunmasını müzakirə ediblər.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan tərəfinin təklifi ilə bu qəzanın səbəblərinin hərtərəfli araşdırılması üçün beynəlxalq ekspertlərdən ibarət heyət təşkil edilib və bu heyət artıq fəaliyyətə başlayıb.

Dövlət başçıları, həmçinin faciə ilə əlaqədar başlanılmış istintaq prosesinin tam şəffaf şəkildə aparılacağını və mütəmadi qaydada ictimaiyyətə məlumat veriləcəyini vurğulayıblar.

*Prezidentin Mətbuat xidməti*



# Prezident İlham ƏLİYEV 2025-ci ili “Konstitusiya və Suverenlik İli” elan etdi

## Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2024-cü il*

## Azərbaycan Prezidenti "Konstitusiya və Suverenlik İli" ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il - "Konstitusiya və Suverenlik İli" ilə bağlı paylaşım edib.




## Volodimir Zelenski İlham Əliyevə zəng edib

**Ukrayna Prezidenti Volodimir Zelenski dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Volodimir Zelenski dekabrın 25-də Bakı-Qroznı istiqamətində uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çox sayda insanın həlak olması ilə bağlı Prezident İlham Əliyevə və Azərbaycan xalqına başsağlığını çatdırıb, xəsarət alanların tezliklə şəfa tapmasını diləyib.

Dövlətimizin başçısı göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirib.

*Prezidentin Mətbuat xidməti*

## Həqiqət etiraf olundu

### Rusiya Prezidenti Vladimir Putin təyyarəmizin qəzaya düşməsi ilə bağlı üzrxahlıq etdi

Qeyd edək ki, qəzadan sonra gəlinən ilkin qənaət ondan ibarət idi ki, hadisə təyyarə Rusiya ərazisində olarkən kənar müdaxilə nəticəsində baş verib. Bu qənaətə gəlməyə təyyarənin qalıqlarının vəziyyəti və şahid ifadələri əsas verirdi. Belə ki, qəzadan sonra zərərçəkən sərnişinlər və bələdçilər təyyarə Qroznı şəhərinin üzərində olarkən partlayış səsi eşitdiklərini bildiriblər. Təyyarənin qalıqlarının üzərində isə kənar müdaxilənin nəticəsi olan deşik izlərini görmək mümkündür.

Artıq həqiqət tam aydındır. Dekabrın 28-də Azərbaycan Prezidenti İlham Əliyevə zəng edən Rusiya Prezidenti Vladimir Putin dekabrın 25-də Bakı-Qroznı marşrutu üzrə uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiyanın hava məkanında fiziki-texniki xarakterli kənar müdaxiləyə məruz qalması və nəticədə baş vermiş faciəvi hadisə ilə bağlı üzrxahlığını ifadə edib, bu qəzada həlak olanların ailələrinə və yaxınlarına dərin və ən səmimi başsağlığını bir daha çatdırıb, xəsarət alanların tezliklə şəfa tapmasını dilədiyini deyib.

→ 7

## Rifah, güc və dirçəliş

### gələn ilin dövlət büdcəsinin əsas istiqamətləridir

Prezidentimiz dəfələrlə bəyan edib ki, dövlətimizin siyasətinin mərkəzində vətəndaşın maraqları dayanır. Bu, dövlət büdcəsində də öz əksini tapır, həm də ölkə vətəndaşlarının sosial müdafiəsinə və sosial təminatına ayrılan vəsait getdikcə artır. Məsələn, 2025-ci ildə sosialyönümlü xərclər 2024-cü ilə nisbətən 8,8 faiz artacaq və 16,9 milyard manata çatacaq. Bu, dövlət büdcəsi xərclərinin 40 faizindən çoxu deməkdir.

Təqdirəlayiq haldır ki, şəhid ailələrinin, qazilərin və müharibə veteranlarının sosial müdafiəsi davamlı xarakter daşıyır. Onlar daim dövlətin diqqət mərkəzindədirlər. Gələn ilin büdcə zərfinə daxil olan sosial paketin təhlili də bunu bir daha aydın göstərir.

Bir neçə gün əvvəl Prezident İlham Əliyevin "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncam imzalaması vətəndaşın rifahına daha bir dəstəkdir. Sərəncama əsasən, minimum aylıq əməkhaqqının məbləği 2025-ci il yanvarın 1-dən 400 manat müəyyən edilib. Nazirlər Kabinetinə əmək pensiyasının minimum məbləğinin 2025-ci il fevralın 1-dən 320 manata çatdırılmasına dair təkliflərini bir ay müddətində Prezidentə təqdim etmək tapşırılıb.

→ 8

## Prezident İlham Əliyev Bakıda kommunal xidmət göstərəcək müxtəlif xüsusi təyinatlı nəqliyyat vasitələri ilə tanış olub






**Dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda kommunal xidmət göstərəcək müxtəlif xüsusi təyinatlı nəqliyyat vasitələri ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına nəqliyyat vasitələrinin texniki göstəriciləri və imkanları barədə məlumat verib.

Bildirilib ki, burada "IVECO" və "Dongfeng" şirkətlərinin istehsalı olan müxtəlif kommunal işlər üçün nəzərdə tutulan nəqliyyat vasitələri və texnikalar var. Nəqliyyat vasitələrinin əksəriyyəti tam elektrikli olmaqla, ekoloji cəhətdən ətraf mühitə ziyan vurmadan çalışır.

Qeyd edək ki, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycanın hər bir bölgəsində, o cümlədən Bakıda ardıcıl olaraq yenidənqurma və abadlaşdırma işləri aparılır, digər şəhərlərimizdə olduğu kimi, paytaxtda da ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır. Bütün bunlar həm şəhər sakinləri, həm də paytaxtımızın qonaqları tərəfindən böyük məmnunluqla qarşılanır. Təsadüfi deyil ki, Bakıya gələn turistlər paytaxtımızın dünyanın ən təmiz və gözəl şəhərlərindən biri olduğunu qeyd edirlər.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

İtaliya Respublikası adından və şəxsən öz adımdan Sizə Milad günü baş vermiş çox ağır təyyarə qəzasında həlak olanlarla bağlı başsağlığımı bildirirəm.

Cənab Prezident, Sizinlə birlikdə dost Azərbaycan xalqına dərin hüznlə başsağlığı verərək, həlak olanların ailələrinin kədərini bölüşürəm.

*Hörmətlə,*

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Dekabrın 25-də Bakı-Qroznı reysi ilə hərəkət edən Azərbaycana məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxlu sayda insanın həlak olması ilə əlaqədar Rumıniya vətəndaşları və hökuməti adından Sizə və həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm. Xəsarət alanların tezliklə sağalmalarını diləyir, həmçinin xalqınızla həmrəy olduğumuzu bildirirəm.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Klaus Verner İOHANNİS,***
***Rumıniyanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

"Azərbaycan Hava Yolları"na məxsus təyyarənin faciəvi şəkildə qəzaya uğraması nəticəsində çoxsaylı insanın həlak olması və xəsarət alması barədə xəbər məni dərindən kədərləndirdi.

Bu kədərli anlarda Portuqaliya xalqı adından və şəxsən öz adımdan həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmalarını diləyir, həmrəyliyimizi bildirirəm.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Marselo Rebelo de SOUZA,***
***Portuqaliya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Qazaxıstanın Aktau şəhəri yaxınlığında "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin faciəvi şəkildə qəzaya uğraması nəticəsində çoxlu sayda insanın həyatını itirməsi barədə xəbər məni dərindən kədərləndirdi.

Monteneqro vətəndaşları adından və şəxsən öz adımdan həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmalarını diləyirəm.

Bu kədərli anlarda düşüncələrimiz Sizin, dost Azərbaycan xalqının və faciəvi hadisənin təsirinə məruz qalan insanların yanındadır. Sizinlə həmrəyik.

*Hörmətlə,*

***Yakov MİLATOVİÇ,***
***Monteneqronun Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

"Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus təyyarənin dekabrın 25-də qəzaya uğraması nəticəsinə çoxlu sayda insanın həlak olması xəbəri məni dərindən kədərləndirdi.

Cənab Prezident, Vyetnam dövləti və xalqı adından və şəxsən öz adımdan Sizə və Azərbaycan xalqına, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, kədərinizi bölüşürəm.

***Lıonq KIONQ,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Faciəvi təyyarə qəzası nəticəsində insan tələfatı barədə xəbəri dərin hüzn və kədərlə qarşıladıq.

Efiopiya Federativ Demokratik Respublikasının hökuməti adından və şəxsən öz adımdan zati-alinizə, Azərbaycan xalqına və hökumətinə, o cümlədən həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bu faciəvi qəzada yaralananların tezliklə və tam sağalmasını diləyirəm.

Efiopiya bu çətin zamanda Azərbaycan xalqı və hökuməti ilə həmrəy olduğunu bildirir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Taye Atske SELLASİE,***
***Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

"Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında faciəvi surətdə qəzaya uğraması xəbərini dərin kədərlə qarşıladım. İnsanların bu qəzada həyatını itirməsi ürəkağrıdıcı hadisədir.

Xorvatiya hökuməti adından və şəxsən öz adımdan Sizə, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, həmçinin xəsarət alanların tezliklə sağalmalarını arzu edirəm.

Cənab Prezident, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

***Andrey PLENKOVİÇ,***
***Xorvatiya Respublikasının Baş naziri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

AZAL-a məxsus sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində Azərbaycan və Rusiya, həmçinin bəzi digər ölkələrin vətəndaşlarının həlak olmaları ilə əlaqədar dərin hüznlə başsağlığı verirəm. Yaralananların tezliklə sağalmalarını arzu edirəm.

Həlak olanların yaxınlarının dərdinə şərik olduğumu bildirirəm.

***Dmitri MEDVEDEV,***
***Rusiya Federasiyası Təhlükəsizlik Şurası sədrinin müavini***

❖ ❖ ❖

Zati-aliləri!

Dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında "Azərbaycan Hava Yolları" QSC-yə məxsus təyyarənin faciəvi şəkildə qəzaya uğraması nəticəsində insanların həyatını itirmələri ilə əlaqədar Beynəlxalq Parlamentarilər Konqresi adından Sizə, Azərbaycan hökumətinə və xalqına dərin hüznlə başsağlığı verirəm.

Qəlbimiz bu ürəkağrıdan faciədə həlak olanların ailələrinin və yaxınlarının yanındadır. Yaralananların tezliklə və tam sağalmalarını arzulayırıq.

Əminəm ki, Azərbaycan xalqının birliyi bu çətin dövrü dəf etməyə imkan verəcəkdir. Bu ağır vaxtda biz də Sizinlə həmrəyliyimizi ifadə edirik.

*Hörmətlə,*

***Sitara AYAZ,***
***Beynəlxalq Parlamentarilər Konqresinin baş katibi***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident!

İcazə verin, "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus təyyarənin dekabrın 25-də qəzaya uğraması ilə əlaqədar Sizə və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığımı ifadə edim.

Baş verən faciə məni dərindən sarsıtdı. Rusiya xalqı Sizinlə birlikdə kədərlənir.

*Səmimiyyətlə Sizin,*

***Mixail ŞVIDKOY,***
***Rusiya Federasiyası Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi***

## Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"da dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"ın 3.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"3.3. Valyuta vəsaitinin yerləşdirilməsi (investisiya istiqamətləri)

3.3.1. Bu Qaydaların 2.1-ci və 3.4-cü bəndləri ilə ziddiyyət təşkil etməmək şərtilə Neft Fondunun investisiya siyasəti ilə müvafiq altportfellərə bölünən investisiya portfelinə aşağıdakı aktivlər daxil ola bilər:

3.3.1.1. investisiya dərəcəli kredit reytinqinə (Standard ənd Purz və ya Fiç və ya Mudiz) malik pul bazarları alətləri və mərkəzi (milli) banklarda əmanətlər;

3.3.1.2. investisiya dərəcəli kredit reytinqinə (Standard ənd Purz və ya Fiç və ya Mudiz) malik borc öhdəlikləri;

3.3.1.3. səhmlər;

3.3.1.4. daşınmaz əmlak, o cümlədən infrastruktur;

3.3.1.5. alternativ investisiya fondlarında iştirak payları;

3.3.1.6. London Qiymətli Metallar Bazarı İştirakçılarının Assosiasiyası tərəfindən tətbiq edilən tələblərə uyğun olan qızıl külçələr (qızıl);

3.3.1.7. investisiya portfelinin məcmu dəyərinin 5%-dən artıq olmaması şərtilə (o cümlədən 1%-ə qədəri reytinqi "B-" (Standard ənd Purz, Fiç) və ya "B3" (Mudiz) kredit reytinqindən aşağı olmayan, qalan hissəsi isə reytinqi "BB-" (Standard ənd Purz, Fiç) və ya "Ba3" (Mudiz) kredit reytinqindən aşağı olmayan) qeyri-investisiya reytinqinə malik borc öhdəlikləri və ya pul bazarları alətləri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2024-cü il*

## Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2025-ci il büdcəsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2025-ci il büdcəsini formalaşdırmaq və Fondun valyuta vəsaitinin səmərəli idarə olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2025-ci il büdcəsinin gəlirləri

14 452 465,2 min manat, xərcləri isə 14 640 224,9 min manat məbləğində təsdiq edilsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2025-ci il büdcəsinin gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlir mənbələri | Gəlirlərin məbləği (min manat) |
|---|---|---|
| 2.1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlir (karbohidrogenlərin nəqli üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 9 797 268,0 |
| 2.2. | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar müqavilə sahəsindən istifadə üçün sərmayəçilərin akrhesabı ödənişləri | 3 600,6 |
| 2.3. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlir | 25 391,9 |
| 2.4. | Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlir | 3 462 265,7 |
| 2.5. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslar | 767 720,0 |
| 2.6. | Neft-qaz layihələrinin həyata keçirilməsi ilə bağlı dividend ödənişləri | 396 219,0 |
| | **Cəmi** | **14 452 465,2** |

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2025-ci il büdcəsinin xərcləri aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərc istiqamətləri | Xərclərin məbləği (min manat) |
|---|---|---|
| 3.1. | Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinə transfertin yuxarı həddi | 14 481 000,0 |
| 3.2. | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 24 713,4 |
| 3.3. | Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 90 786,0 |
| 3.4. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 43 725,5 |
| | **Cəmi** | **14 640 224,9** |

4. "2025-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitindən istifadənin əsas istiqamətləri (proqramı) və investisiya siyasəti" təsdiq edilsin (əlavə olunur).

5. "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2025-ci ildə idarə edilməsi ilə bağlı xərclər smetası" təsdiq edilsin *(əlavə olunur)*.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2024-cü il*

**Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir**

## 2025-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitindən istifadənin əsas istiqamətləri (proqramı) və investisiya siyasəti

**1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (bundan sonra - Fond) vəsaitinin xərc istiqamətləri:**

1.1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinə transfertin yuxarı həddi;

1.2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi;

1.3. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı"nın maliyyələşdirilməsi.

**2. Fondun 2025-ci il üçün investisiya siyasəti**

2.1. Fondun investisiya siyasətinin məqsədi:

2.1.1. 2025-ci ildə Fond əsas kapitalın itirilməsi riskinin aşağı olması şərtilə maksimum gəlirliliyin əldə edilməsinə imkan verən investisiya siyasəti həyata keçirəcəkdir.

2.2. Fondun investisiya portfeli:

2.2.1. investisiya portfelinin proqnozlaşdırılan həcmi:

2.2.1.1. 2025-ci il üzrə Fondun investisiya portfelinin proqnozlaşdırılan məcmu dəyəri (ortaçəkili həcmi) 58,1 milyard ABŞ dollarına bərabər götürülür;

2.2.2. investisiya portfelinin valyuta tərkibi və bölgüsü:

2.2.2.1. Fondun investisiya portfelinin baza valyutası ABŞ dolları müəyyən edilir. İnvestisiya portfelinin məcmu dəyərinin minimum 85 faizi, nəzərdə tutulmuş illik bölgüsü Fondun Müşahidə Şurasına təqdim edilməklə ABŞ dolları, avro və İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə yerləşdirilir;

2.2.3. investisiya portfelinin altportfelləri:

2.2.3.1. Fondun investisiya portfeli aşağıdakı altportfellərdən ibarətdir:

2.2.3.1.1. borc öhdəlikləri altportfeli - aşağı uzaqlaşma intervalı maksimum 10 faiz olmaqla, investisiya portfelinin məcmu dəyərinin 40 faizi;

2.2.3.1.2. səhm (pay) altportfeli - yuxarı uzaqlaşma intervalı maksimum 3 faiz olmaqla investisiya portfelinin məcmu dəyərinin 25 faizə qədəri;

2.2.3.1.3. daşınmaz əmlak altportfeli - yuxarı uzaqlaşma intervalı maksimum 3 faiz olmaqla, investisiya portfelinin məcmu dəyərinin 10 faizə qədəri;

2.2.3.1.4. qızıl altportfeli - yuxarı uzaqlaşma intervalı maksimum 4 faiz olmaqla, investisiya portfelinin məcmu dəyərinin 25 faizə qədəri;

2.2.3.2. investisiya portfelinin altportfellərinin tərkibi:

2.2.3.2.1. Fondun borc öhdəlikləri altportfeli pul bazarları alətlərindən, mərkəzi (milli) banklardakı əmanətlərdən və borc öhdəliklərindən ibarətdir;

2.2.3.2.2. səhm (pay) altportfeli yalnız beynəlxalq nüfuzlu səhm bazarı indekslərinə daxil olan səhmlərdən, habelə maksimum həcmi investisiya portfelinin məcmu dəyərinin 7 faizindən artıq olmamaqla səhmlərə və kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya edən pay fondlarında, o cümlədən müştərək investisiyalarda iştirak paylarından ibarətdir;

2.2.3.2.3. daşınmaz əmlak altportfeli yalnız daşınmaz əmlaka, infrastruktura, daşınmaz əmlak və infrastruktur üzrə kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya edən pay fondlarında, müştərək investisiyalarda iştirak paylarından, o cümlədən daşınmaz əmlaka birbaşa investisiyalardan ibarətdir;

2.2.3.2.4. qızıl altportfeli yalnız London Qiymətli Metallar Bazarı İştirakçılarının Assosiasiyası tərəfindən tətbiq edilən tələblərə uyğun olan qızıl külçələrdən ibarətdir;

2.2.4. investisiya portfelinin hədəf gəlirliliyi:

2.2.4.1. Fondun borc öhdəlikləri altportfelinin idarə edilməsinin hədəf gəlirliliyi (bençmark) kimi müvafiq valyuta üzrə "ICE BofAFixedIncomeIndices" əsas götürülür;

2.2.4.2. səhm (pay) altportfelinin hədəf gəlirliliyi (bençmark) kimi "MSCI Stock Market Indexes" əsas götürülür;

2.2.4.3. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"ın (bundan sonra - Qaydalar) 4.2-ci bəndinə əsasən, qızıl altportfelinə hədəf gəlirliliyi (bençmark) tətbiq edilmir.

2.3. İnvestisiya portfelinin risklərinin idarə edilməsi üzrə tələblər:

2.3.1. faiz dərəcəsi riski:

2.3.1.1. Fondun borc öhdəlikləri altportfelinin faktiki ortaçəkili investisiya müddətini (durasiya) dünya bazarındakı cari vəziyyətdən asılı olaraq Fond müəyyən edir və bu müddət müvafiq bençmarkın ortaçəkili investisiya müddətindən maksimum altı ay olmaqla kənarlaşa bilər;

2.3.2. kredit riski:

2.3.2.1. depozitar banklar və bençmarka daxil olan dövlətlərin borc öhdəlikləri istisna olmaqla, bir maliyyə qurumunun və ya bir investisiya aktivinin investisiya portfelindəki maksimal xüsusi çəkisi investisiya portfelinin məcmu dəyərinin 10 faizi həddində müəyyən edilir;

2.3.2.2. Fondun valyuta vəsaitinin yerləşdirildiyi investisiya aktivlərinin kredit reytinqi:

2.3.2.2.1. Qaydaların 3.3.1.7-ci abzasında nəzərdə tutulmuş qeyri-investisiya reytinqinə malik borc öhdəlikləri və ya pul bazarları alətləri üzrə 5 faizlik xüsusi çəkinin yuxarı həddinə dair tələblər Azərbaycan Respublikası Prezidentinin aktları ilə nəzərdə tutulan tədbirlərin icrası məqsədilə həyata keçirilən investisiya qoyuluşları nəticəsində Fondun investisiya portfelinə daxil olan aktivlərə tətbiq edilmir;

2.3.3. likvidlik üzrə tələblər:

2.3.3.1. Fondun vəsaitinin likvidlik dərəcəsi Fondun büdcə xərcləri üzrə planlaşdırılan pul köçürmələrinin və digər köçürmələrin tam və vaxtında yerinə yetirilməsini təmin etmək üçün yetərli səviyyədə olmalıdır. Bu səviyyəni təmin etmək məqsədilə Fondun vəsaitinin 100 milyon ABŞ dollarından az olmayan hissəsi yüksək likvidliyə malik qısamüddətli pul bazarları alətlərində saxlanılmalıdır. Bu vəsaitin göstərilən məbləğdən az olması halı 7 (yeddi) iş günündən çox davam etməməlidir;

2.3.4. xarici menecerlər üzrə tələblər:

2.3.4.1. cəlb edilən xarici menecerin özünün və ya onun əsas təsisçisinin kredit reytinqi beynəlxalq kredit agentliklərinin (Standard &Poor's, Fitch və ya Moody's) investisiya dərəcəli kredit reytinqindən aşağı olmamalı və ya onun aktivlərin idarə edilməsində ən azı 5 il müsbət təcrübəsi, yaxud dəyəri 1 (bir) milyard ABŞ dolları məbləğindən az olmayan aktivlərin idarə edilməsində səriştəsi olmalıdır;

2.3.4.2. xarici menecerlərə idarəetməyə verilən vəsaitin ümumi həcmi investisiya portfelinin məcmu dəyərinin 60 faizindən, bir xarici menecerə idarəetməyə verilən vəsaitin maksimum həcmi investisiya portfelinin məcmu dəyərinin 5 faizindən artıq olmamalıdır;

2.3.4.3. Fondun vəsaitinin idarə olunmasına cəlb edilən xarici menecerlərin səlahiyyətləri və idarəetməyə verilmə müddəti Fondla həmin menecerlər arasında bağlanılan sazişdə göstərilməlidir.

**Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir**

## Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2025-ci ildə idarə edilməsi ilə bağlı xərclər smetası

| Sıra №-si | Xərclər | Kod | Məbləğ (manat) |
|---|---|---|---|
| 1. | Əməyin ödənişi | 210000 | 17 138 000,0 |
| 2. | Malların (işlərin və xidmətin) satın alınması | 220000 | 22 358 813,0 |
| 2.1. | malların satın alınması | 221000 | 309 225,0 |
| 2.2. | iş və xidmətlərin alınması | 222000 | 21 165 588,0 |
| 2.3. | beynəlxalq təşkilatlara üzvlüklə bağlı ödənişlər | 223000 | 814 000,0 |
| 2.4. | təmsilçilik və təşviqat xərcləri | 224000 | 70 000,0 |
| 3. | Sosial ödənişlər | 270000 | 100 000,0 |
| 4. | Qeyri-maliyyə aktivləri | 310000 | 4 128 663,0 |
| | **Cəmi** | | **43 725 476,0** |

# Azərbaycan Respublikasında özəl ümumölkə televiziya və radio yayımçılarına birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında özəl ümumölkə televiziya və radio yayımçılarının inkişafına, onların cəmiyyətin operativ və dolğun məlumatlandırılması və maarifləndirilməsi sahəsində fəaliyyətinin gücləndirilməsinə, yayım keyfiyyətinin yüksəldilməsinə dəstək göstərilməsi zəruriliyini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında fəaliyyət göstərən özəl ümumölkə televiziya və radio yayımçılarının telekommunikasiya peyki və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi məqsədilə Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Audiovizual Şurasına 2,5 milyon (iki milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2024-cü il*

# Ceyhun Bayramov təyyarə qəzasının araşdırılması istiqamətində Azərbaycan tərəfinin gözləntilərini Lavrova bildirib

**Azərbaycan Respublikasının və Rusiya Federasiyasının prezidentlərinin telefon danışığının davamı olaraq, xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı aparılıb.**



AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. Telefon danışığı zamanı Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov 25 dekabr tarixində Bakı-Qroznı marşrutu üzrə uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin faciəvi şəkildə qəzaya uğraması ilə bağlı həlak olanların ailələrinə və yaxınlarına, Azərbaycan xalqına başsağlığı diləklərini çatdırıb. Nazir Ceyhun Bayramov öz növbəsində bütün həlak olanlara Allahdan rəhmət, yaralılara şəfa diləyib. O, təyyarəyə ilkin baxışın, təyyarə gövdəsində çoxsaylı deliklərin olmasının, bələdçilərin və sərnişinlərin ifadələrinin təyyarənin fiziki-texniki xarakterli müdaxilə nəticəsində qəzaya uğradığı faktını təsbit etdiyini vurğulayıb.

Nazir ən qısa müddət ərzində beynəlxalq ekspertlərdən ibarət heyətin də iştirakı ilə qəzanın səbəblərinin araşdırılması istiqamətində aparılan işin yekunlaşdırılması, qəzanın səbəblərinin ciddi və hərtərəfli şəkildə müəyyənləşdirilərək elan olunması istiqamətində Azərbaycan tərəfinin gözləntilərini qarşı tərəfin diqqətinə çatdırıb.

Bununla yanaşı, başlanılmış istintaq prosesinin tam şəffaf şəkildə aparılmasının və mütəmadi qaydada ictimaiyyətə məlumat verilməsinin əhəmiyyəti qeyd olunub.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 546

## QƏRAR

Bakı şəhəri, 28 dekabr 2024-cü il

### "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli 10 nömrəli Qərarının ləğv edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 mart tarixli 45 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 234 (Cild I) ilə təsdiq edilmiş "Meşələrin iqtisadi qiymətləndirilməsinin Metodikası"nın 3.3-cü bəndinin ikinci abzasında "çoxillik əkmələr və dincə qoyulmuş torpaqların" sözləri "və çoxillik əkmələrin altında olan torpaqların" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 56 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 244 (Cild I) ilə təsdiq edilmiş "Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydaları"nın 15-ci hissəsinin cədvəlinin 1-ci sütunundan "(uqodiyaların)" sözü çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 79 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 360 (Cild I); 2024, № 2, maddələr 208, 229) ilə təsdiq edilmiş "Radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış torpaqların təsərrüfat dövriyyəsindən çıxarılması, konservasiya edilməsi, mühafizəsi, sağlamlaşdırılması və istifadəsi Qaydaları"nın 1-ci hissəsinin birinci cümləsinə "ehtiyat torpaq fonduna" sözlərindən əvvəl "müvafiq" sözü əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 4 sentyabr tarixli 158 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 684 (Cild I); 2024, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Şəhərsalma sənədlərinin tərkibi, tərtibatı, razılaşdırılması, dövlət ekspertizası aparılması və təsdiq olunması Qaydaları"na 11 nömrəli əlavə - "Rayon planlaşdırma sxemi və layihəsinin əsas texniki-iqtisadi göstəriciləri"nin 1-ci cədvəlinin "Göstəricilər" bölməsinin beşinci sətrində "çoxillik əkmələr, dincə qoyulmuş" sözləri "çoxillik əkmələrin altında olan torpaqlar" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 oktyabr tarixli 171 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 904 (Cild I) ilə təsdiq edilmiş "Mərzçəkmə qaydaları və mərz nişanlarının formalarının nümunələri"nin 9.4.6-cı və 9.4.7-ci yarımbəndləri aşağıdakı redaksiyada verilsin:

"9.4.6. torpaq sahəsinin kateqoriyası;

9.4.7. torpaq sahəsinin məqsədli təyinatı;".

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 noyabr tarixli 512 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2459 (Cild I); 2024, № 3, maddə 299) ilə təsdiq edilmiş "Torpaq sahəsindən istifadənin iqtisadi əsaslandırılmasının (icarəyə götürülməsi nəzərdə tutulan dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahəsi barədə) Forması"nın 2.2-ci bəndindən "(uqodiya)" sözü çıxarılsın.

7. "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 124 (Cild I); 2024, № 4, maddə 440) ləğv edilsin.

8. Bu Qərar 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# BMT ilə yeni Çərçivə Sənədinin hazırlanmasına dair müzakirə aparılıb



**İqtisadiyyat naziri Mikayıl Cabbarov BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkəmizin BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə çoxvektorlu əməkdaşlığı vurğulanıb. Qeyd olunub ki, 2021-2025-ci illər üçün BMT və Azərbaycan arasında dayanıqlı inkişaf üzrə əməkdaşlığa dair Çərçivə Sənədinin icrası tərəfdaşlığın inkişafında mühüm faktora çevrilib. COP29-un Azərbaycanda təşkili və uğurla yekunlaşması isə qlobal problemlərin həllində məsuliyyətli tərəfdaş olan ölkəmizin BMT ilə münasibətlərinin genişləndirilməsi üçün əlavə stimul yaradıb.

Tərəflər Dayanıqlı İnkişaf Məqsədlərinin icrası və 2026-2030-cu illər üzrə əməkdaşlığa dair yeni Çərçivə Sənədinin hazırlanması üçün strateji istiqamətlərin müəyyənləşdirilməsinə dair müzakirə aparıblar.

# Üçüncü "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş olub









**Kənd təsərrüfatı naziri Məcnun Məmmədov üçüncü "Yüksəliş" müsabiqəsinin qalibləri Vüqar Mamedov və Faiq Hüseynov ilə görüşüb.**

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, Məcnun Məmmədov qalibləri 1 illik fərdi inkişaf planının uğurla həyata keçməsi münasibətilə təbrik edib.

Qaliblər isə mentorluq proqramı çərçivəsində şəxsi təcrübəsindən faydalanmaq şansı əldə etdiklərinə görə nazirə minnətdarlıqlarını bildiriblər.

# Ali Məclisin 2024-cü il payız sessiyasının sonuncu iclası keçirilib

**Dekabrın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin payız sessiyasının sonuncu iclası keçirilib.**





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, əvvəlcə dekabrın 25-də Bakı-Qroznu istiqamətində uçan "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İclasda Ali Məclis Aparatının rəhbəri Ülvi Hüseynli çıxış edərək, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin illik fəaliyyəti ilə bağlı məlumat verib.

Ali Məclis sədrinin müavini Arzu Abdullayev, deputatlardan Emin Şıxəliyev, Zeynəb Quliyeva, Təhminə Babayeva və Əziz Qasımov çıxış ediblər.

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov iclas iştirakçılarını və muxtar respublikanın bütün sakinlərini qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib. Sonra Bəxtiyar Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il payız sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Ali Məclisin 2024-cü il payız sessiyası başa çatıb.

# Məhkəmə-Hüquq Şurasının növbəti iclası

**Dekabrın 28-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.**



İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov son vaxtlar məhkəmə sahəsində görülmüş işlər barədə məlumat verərək bildirib ki, ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması istiqamətində islahatlar davam etdirilir. Məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilir, bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənir.

Şuradan AZƏRTAC-a verilən məlumata görə, iclasda "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununun ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılmasına mühüm töhfə verəcəyi diqqətə çatdırılıb. Həmçinin intizam icraatı üzrə işlərə, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və kadr məsələlərinə baxılaraq müvafiq qərarlar qəbul edilib.

Eyni zamanda, iclasda Məhkəmə-Hüquq Şurası Aparatının, Hakimlərin Qiymətləndirilməsi Komitəsinin və Məhkəmə-Hüquq Şurasının Apellyasiya Şurasının əsasnamələri, hakimlərin vəsiqələri ilə bağlı qanun layihələri müzakirə olunub, birinci instansiya məhkəmələrinin aparatlarının strukturu təsdiq edilib.

Daha sonra təqaüdə yola salınan hakimlər uzun illər məhkəmə sistemində öz fəaliyyəti ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına əhəmiyyətli töhfə verdiyinə görə fəxri fərmanla təltif ediliblər.

Sonra Şuranın üzvü, Ali Məhkəmənin Mülki kollegiyasının sədri Sənan Hacıyev tərəfindən hakimlərin qiymətləndirilməsi qaydaları və metodogiyaları barədə məlumat təqdim olunub.

# Azərbaycan ilə Serbiya arasında 2025-ci il üçün hərbi əməkdaşlıq planı imzalanıb

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi rəisinin rəhbərlik etdiyi nümayəndə heyəti hərbi əməkdaşlıq danışıqlarının aparılması məqsədilə Serbiya Respublikasına səfər edib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, səfər çərçivəsində nümayəndə heyəti Serbiya Respublikası müdafiə nazirinin köməkçisi Predrag Bandiç tərəfindən qəbul edilib, daha sonra hər iki ölkənin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin nümayəndələri arasında ikitərəfli görüş keçirilib.

Görüş zamanı tərəflər arasındakı hərbi əməkdaşlığın cari vəziyyəti təhlil edilib və inkişaf perspektivləri müzakirə olunub, eləcə də qarşılıqlı maraq doğuran mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb. Bu xüsusda 2024-cü il üçün hərbi əməkdaşlıq planında nəzərdə tutulmuş fəaliyyətlərin implementasiyasından məmnunluq ifadə edilib.

Səfər proqramına əsasən, nümayəndə heyəti Serbiya Respublikasının Sülhməramlı Əməliyyatlar Mərkəzinin fəaliyyət istiqamətləri ilə tanış olub.

Rəsmi fəaliyyətlərin sonunda "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Serbiya Respublikasının Müdafiə Nazirliyi arasında 2025-ci il üçün hərbi əməkdaşlıq Planı" imzalanıb.

# "DOST Müfəttiş" layihəsi beynəlxalq müsabiqədə üçüncü dəfə mükafata layiq görülüb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti və nazirliyin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın "DOST Müfəttiş" layihəsi beynəlxalq müsabiqədə uğur qazanıb.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ABŞ-ın aparıcı qiymətləndirmə proqramlarından olan nüfuzlu "Globee Business Awards" beynəlxalq müsabiqəsində layihənin işəgötürənlər üçün təmin etdiyi qiymətləndirmə dəstəyini münsiflər heyəti yüksək qiymətləndirib.

"DOST Müfəttiş" biznesin inkişafına innovativ töhfə verən layihə kimi qəbul edilərək müsabiqənin mükafatına layiq görülüb. Bununla da, "DOST Müfəttiş" layihəsi sayca üçüncü beynəlxalq mükafata layiq görülüb.

Müsabiqəyə ABŞ, Avstraliya, Vyetnam, Bolqarıstan, Hindistan, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, İsrail, İsveç, Rusiya, Böyük Britaniya və digər ölkələrdən 100-dən çox layihə təqdim edilib.

# Dənizkənarı Milli Parkda "Zamanın səsini dinlə" fotosərgisinin açılışı olub

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva sərginin açılışında iştirak ediblər

**Dənizkənarı Milli Parkda "Zamanın səsini dinlə" fotosərgisinin açılışı olub.**

Sərginin məqsədi müdriklik, təcrübə ilə dolu həyat dövrünü nümayiş etdirməkdir. Burada təqdim olunan fotolarda ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin sakinlərinin simaları əks olunub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun, Mədəniyyət Nazirliyinin və Dənizkənarı Bulvar İdarəsinin təşkilatçılığı ilə keçirilən fotosərginin açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Fotosərgi ilə tanış olan Leyla Əliyeva və Arzu Əliyeva ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin sakinləri ilə həmsöhbət olub, onların qayğıları ilə maraqlanıb və xatirə şəkilləri çəkdiriblər.

Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin 78 yaşlı sakini Validə Həsənova AZƏRTAC-ın müxbiri ilə söhbətində bildirib ki, öz şəklini göröndə çox fərqli hisslər keçirib. "Heydər Əliyev Fondu bizə şərait yaratdı ki, özümüzü kənardan görək. Müəssisənin həyətində milli geyimdə çəkdirdiyim şəkil çox xoşuma gəldi. Bizə diqqət və qayğı göstərdikləri üçün Heydər Əliyev Fonduna minnətdaram. Sağ olsunlar ki, bizi yaddan çıxarmırlar".

Müəssisənin digər sakini - 77 yaşlı Hüseyn Ələkbərov onlara ahıllar evində yaradılan şəraitdən məmnunluğunu ifadə edib. H.Ələkbərov ahılların hər zaman Heydər Əliyev Fondunun qayğısını hiss etdiklərini, fotosərginin də həmin diqqətin başqa bir növü kimi onlarda xoş təəssürat yaratdığını qeyd edib.

"Zamanın səsini dinlə" fotosərgisi şəhər sakinlərinin də marağına səbəb olub.

Kameranın obyektivi bizə yalnız simaları təqdim etmir, həm də gözlərdə, üz cizgilərində və baxışlarda həkk olunmuş hissləri, emosiyaları çatdırır. Hər bir fotoşəkil müasir dünyanın səs-küylü təlaşı arasında itən zamanın sədasını eşitmək imkanı yaradır.

Sərgi mövzu qəhrəmanlarının istiqanlılığından və iradələrinin möhkəmliyindən ilhamlanıb. Bu insanların xatirələri keçmişə aparan bir körpüdür. Çünki onların əksəriyyəti ölkəmizin çətin və keşməkeşli dövrlərində yaşamış, indiki dünyamızı formalaşdıran mühüm hadisələrin şahidləri və iştirakçıları olublar.

"Zamanın səsini dinlə" sərgisi ahıl insanlara hörmətin, diqqətin və qayğının nə qədər vacib olduğunu düşünməyə çağırır. Çünki bu qayğı onların ömrünü uzadır, həyatlarını daha da işıqlı və gözəl edir.















# Leyla Əliyevanın iştirakı ilə Mədəni və Yaradıcı Sənayelərin İnkişafı Mərkəzinin açılışı olub











**Mədəniyyət Nazirliyi tərəfindən təsis edilmiş Mədəni və Yaradıcı Sənayelərin İnkişafı Mərkəzinin (Yaradıcı Mərkəz) dekabrın 28-də açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Mədəniyyət naziri Adil Kərimli Leyla Əliyevaya mərkəzdə yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, Yaradıcı Mərkəzin əsas məqsədi gənc istedadları dəstəkləmək, onların ixtisaslarını artırmaq və yaradıcılıq potensialının reallaşdırılmasına şərait yaratmaqdır. Eləcə də mədəni və yaradıcı sənayelər sahəsində layihələr həyata keçirmək, bu sahədə yeni sahibkarlıq subyektlərinin, startapların formalaşmasına və inkişafına dəstək verməkdir. Həmçinin yerli yaradıcı məhsul və xidmətlərin yaradılması və ixracının artırılmasına kömək göstərmək, müvafiq istiqamətlər üzrə regionlardan istedadlı gəncləri cəlb etməkdir.

Diqqətə çatdırılıb ki, hazırda Yaradıcı Mərkəz bir sıra uğurlu layihələr, o cümlədən 3 inkubasiya proqramı həyata keçirir: Musiqi, "Gametech", "Cultech". Bu proqramlar çərçivəsində artıq 20 yeni startap yaradılıb və ümumilikdə 50-dən çox rezident Mərkəzin xidmətlərindən istifadə edir.

Adil Kərimli qeyd edib ki, nazirliyin təşkilatçılığı ilə 2023-cü ildən etibarən "Yaradıcı müzakirələr" ("Creative Talks") layihəsi həyata keçirilir. "Yaradıcı müzakirələr" layihəsi paytaxtda və regionlarda mədəniyyət və yaradıcılıq sahələrində bacarıqların inkişafını təşviq edən maarifləndirici təşəbbüsdür və yaradıcı subyektlərin formalaşmasının dəstəklənməsinə yönəlib.

Mərkəzdə animasiya, musiqi və kino sənayesi, dizayn, yaradıcılıq sahələrində "Ai4Art" layihəsi çərçivəsində süni intellektin istifadəsi üzrə ustad dərsləri və təlimlər keçirilir. Bu təhsil proqramlarında 200-dən çox gənc iştirak edir. Mərkəzin tərkibinə, həmçinin "Yaradıcı Market" bazar platforması, "Yaradıcı Edu.az" tədris mərkəzi də daxildir.

Burada müxtəlif yaradıcı sahələrdə yüksəkkeyfiyyətli işlərin ərsəyə gəlməsi üçün müasir texnologiyalarla təchiz olunmuş foto və video, səsyazma, animasiya, rəqs və digər studiyalar var.

Yaradıcı Mərkəzin tərəfdaşları arasında həm yerli qurumlar, təşkilatlar, həm də xarici beynəlxalq təşkilatlar yer alır.

Qeyd edək ki, Mədəni və Yaradıcı Sənayelərin İnkişafı Mərkəzi (Yaradıcı Mərkəz) 2022-ci il 22 iyulda Azərbaycan Prezidentinin sərəncamı ilə təsdiqlənib. Mərkəz "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na dair Tədbirlər Planının icrası məqsədilə 2024-cü ildə Mədəniyyət Nazirliyi tərəfindən təsis edilib.

# Prezident İlham Əliyev qlobal enerji təhlükəsizliyinin təminatçısıdır

Bu bir həqiqətdir ki, Prezident İlham Əliyev Azərbaycanı dünya arenasında iqtisadi inkişaf əsasında böyük uğurlara çatdıran dinamik və fəal liderdir. Son 20 ildə Azərbaycan iqtisadiyyatı inkişaf edərək beynəlxalq bazarlarda müstəqil və təsirli mövqeyə yüksəlib. Həmin yüksəlişi özünün siyasi və iqtisadi siyasətində ehtiva edən dövlət başçısı ölkəmizi qlobal enerji təhlükəsizliyində nəinki etibarlı tərəfdaşa çevirmiş, həm də qlobal miqyasda qəbul etdirmişdir.

Prezident İlham Əliyev ölkəmizin, eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində atdığı çoxkombinasiyalı siyasi gedişləri ilə heyranlıq doğurur. Bu, onun iti ağlının və zəkasının, həmçinin diplomatik məharətinin nəticəsidir. Məlumdur ki, hazırda enerji təhlükəsizliyi dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici elementi statusunda çıxış edir. Bu baxımdan bir sıra nüfuzlu ekspertlərin "müasir dünyanın siyasi mənzərəsi daha hərbi bloklara mənsub olmaqları ilə yox, enerji ehtiyatlarına malik olub-olmamaq bölgüsü ilə müəyyən ediləcək" fikri təsadüfi sayılmamalıdır. Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft diplomatiyasını uğurla davam etdirən Prezident İlham Əliyev müxtəlif obyektiv və subyektiv çətinliklərin öhdəsindən gələrək, 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan, sonrakı ildə isə Bakı-Tbilisi-Ərzurum kimi nəhəng neft və qaz marşrutlarının reallaşmasına nail oldu. Sonralar dövlət başçısı çıxışlarının birində bu barədə belə dedi: "Neft kəmərlərinin, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi də tarixi hadisə idi. Təkcə ona görə yox ki, ilk dəfə olaraq Xəzər dənizinin nefti Aralıq dənizinin bazarlarına çıxarılırdı. Həm də ona görə ki, bu kəmər yeni bir yol, yeni bir dəhliz açdı".

Prezident yeni yol, yeni dəhliz dedikdə "Cənub qaz dəhlizi"ni nəzərdə tuturdu. Onun yaradılması istiqamətində ilk addım olaraq 2011-ci ildə Avropa Komissiyası ilə Azərbaycan arasında Strateji əməkdaşlıq və enerji sahəsində Anlaşma Memorandumu, növbəti ildə isə TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) çəkilişinə dair Azərbaycan və Türkiyə arasında tarixi saziş imzalandı. Bu prosesdə ən əsas halqalardan biri sərmayə qoyuluşu ilə bağlı idi. 2013-cü ildə həmin məsələ də öz müsbət həllini tapdı. "Şahdəniz-2" layihəsinə investisiya qoyuluşuna dair qərar qəbul edildi. 2014-cü ildə "Cənub qaz dəhlizi"nin Bakıda, 2015-ci ildə isə Qarsda TANAP-ın təməlqoyma mərasimi həyata keçirildi. 2016-cı ildə analoji addım TAP (Trans-Adriatik Qaz Boru Kəməri) layihəsi ilə bağlı atıldı. Nəhayət, 2018-ci il mayın 29-da "Cənub qaz dəhlizi"nin, iyunun 12-də isə TANAP-ın rəsmi açılış mərasimləri oldu. 2019-cu il noyabrın 30-da isə TANAP-ın Avropa ilə birləşən hissəsinin açılışı oldu. "Cənub qaz dəhlizi"nin son hissəsi olan TAP kəməri üzrə işlər 2020-ci il noyabrın 15-də tamamlandı. Beləliklə, Azərbaycan qazının birbaşa olaraq Avropa bazarına çıxışı tam təmin olundu. Azərbaycan bu layihəni - 7 ölkəni birləşdirən, 3500 kilometr məsafəsi olan və dənizin altından, dağların başından keçən qaz kəmərinin çəkilişini uğurla həyata keçirdi. Bu, tarixi layihədir və ölkəmizin uğurlu, dayanıqlı inkişafı üçün əsas resurs bazasıdır.

Xüsusi vurğulamaq yerinə düşər ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlarından bəhs edərkən hər zaman bildirilir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri olmasaydı, Bakı-Tbilisi-Ərzurum qaz kəmərindən, bunlar da olmasaydı, "Cənub qaz dəhlizi"ndən danışmaq mümkün olmazdı. Bu gün "Cənub qaz dəhlizi" Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu daha da artırıb. Milyardlarla dollar həcmində sərmayə qoyulmuş bu dəhliz vasitəsilə Xəzərin qaz ehtiyatları Avropa İttifaqının mərkəzi ölkələrinə çatdırılır. Getdikcə daha çox Avropa dövləti Azərbaycan qazının tədarükünə maraq göstərir. Vaxtilə Prezident İlham Əliyev "Cənub qaz dəhlizi" layihəsinin uğurunu təmin edən səbəblərdən bəhs edərkən xüsusi olaraq aşağıdakı amilləri ön plana çəkmişdi: "Birincisi, bu layihə enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və azad rəqabəti özündə ehtiva edir. İkincisi, bu layihədə istehsalçı, istehlakçı və tranzit dövlətlər arasında balans yaratmağa nail olmuşuq. Yəni burada uduzan tərəf yoxdur. Üçüncüsü, siyasət və enerji bir-birindən ayrı olmalıdır. Enerji siyasi alət kimi istifadə edilməməlidir. Hesab edirəm ki, "Cənub qaz dəhlizi" sazişində göstərdiyimiz nümunə nümayiş etdirir ki, enerji ilə siyasət ayrılanda uğur əldə edilə bilər".

Gündəmə gətirilən və uğurlu sonluqla başa çatan enerji layihələri ölkəmizin iqtisadi imkanlarını genişləndirməklə həm maliyyə imkanlarını artırır, həm də siyasi mövqeyi möhkəmləndirir. Dövlət başçısının da qeyd etdiyi kimi, "Cənub qaz dəhlizi" həm Azərbaycan, həm də Avropa üçün strateji əhəmiyyətə malik olan bir layihədir. O, bir çox tədbirdə Avropanın Azərbaycan qazına ehtiyacı olduğunu, məsələn, 2022-ci ildə IX Bakı Forumunda da demişdir: "Avropada vəziyyət kəskin şəkildə dəyişib və Azərbaycanın karbohidrogen ehtiyatlarına tələbat artır. Biz bir çox ölkənin artan tələbatını təmin etmək üçün əlimizdən gələni edirik. Son bir neçə ay ərzində bir çox Avropa ölkəsindən qaz təchizatı ilə bağlı bizə müraciətlər daxil olub. Əlbəttə, bu, asan məsələ deyil. Çünki əvvəlcə həmin qaz hasil edilməlidir və biz qaz hasilatını artırmağı planlaşdırmırdıq. Hazırda bu məsələ ilə bağlı biz Avropa Komissiyası ilə çalışırıq. Biz Avropa Komissiyası ilə enerji dialoquna start vermişik. Buraya yalnız qaz deyil, neft, elektrik enerjisi və hidrogen daxildir. Bərpaolunan enerji ilə bağlı Azərbaycanda böyük potensial var".

Hazırda Azərbaycan o ölkələrdəndir ki, öz hesabına yaşayır. Ölkəmizin kifayət qədər böyük valyuta ehtiyatları var, iqtisadiyyatı dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığın azaldılması istiqamətində çox önəmli addımlar atılıb. Əminliklə deyə bilərik ki, ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə də hər hansı başqa bir maneə və ya problem yoxdur. Bura Azərbaycandır, təbii ehtiyatlarla zəngin olan bir diyardır. Ölkəmiz lap qədim zamanlardan təbii sərvətləri ilə dünyanın diqqətini cəlb edib. Tükənməyən ehtiyatlar olan günəş, geometral, külək, nüvə enerjiləri, qabarma-çəkilmə, dəniz cərəyanları indi "yaşıl enerji"yə çevrilib. Azərbaycanda energetika sahəsində bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi Prezident İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürülüb və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının 30 faizə çatdırılması hədəf kimi müəyyənləşdirilib. Xatırladaq ki, ölkəmizin bərpaolunan enerji potensialı - quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. İşğaldan azad edilən bütün ərazilər "yaşıl enerji" zonasına çevrilməkdədir. Yaxın gələcəkdə bərpaolunan enerjinin istehsalı artacaq və onda Azərbaycan bu sərvətini də dünyadan əsirgəməyəcək, Avropaya ixrac edəcək.

Azərbaycanın dünyanın enerji təhlükəsizliyinin təminatında rolu yüksək dəyərləndirilir. Əminliklə qeyd edə bilərik ki, postmünaqişə dövrünün reallıqları fonunda regionda və dünyada söz sahibliyini möhkəmləndirən, regional əməkdaşlığın aparıcı simasına, böyük şəxsiyyətinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrilən Prezident İlham Əliyev bundan sonra da yeni-yeni enerji layihələrinin təşəbbüskarı kimi çıxış edəcək və uğurlu sonluqla başa çatmasına nail olacaq. Təbii ki, bu da ölkəmizin beynəlxalq əməkdaşlığa verdiyi önəmdən, təcrübə mübadiləsinə marağından, ən əsası malik olduğu təbii resurslardan səmərəli istifadə etmək istəyindən irəli gəlir.

Və bütün bu deyilənlərin müəllifi, qlobal enerji təhlükəsizliyinin təminatçısı "hər bir Azərbaycan vətəndaşının Prezidenti" olan İlham Əliyevdir. Onun zəkası, praqmatik düşüncəsi, qətiyyətli siyasəti imkan verir ki, atdığı hər addımın məsuliyyətini rahatlıqla daşısın, xalqının sevgisini qazansın.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# Sənayeləşmə uğurla davam edir

## Bu, Prezident İlham Əliyevin iqtisadi islahatlarının ayrılmaz bir hissəsidir

Məlum olduğu kimi, Azərbaycan dünyanın ən qədim neft ölkəsidir. İstər sovetlər birliyi dönəmində, istərsə də müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycan iqtisadiyyatında neft sənayesinin xüsusi rolu olub. Bu gün də ölkəmizin əsas gəlir mənbəyi neft-qaz sektorunun hesabına formalaşır. Prezident İlham Əliyev dövlət başçısı seçildikdən sonra ölkənin hərtərəfli inkişaf strategiyasını həyata keçirmək barədə qərar qəbul etdi. Bunun üçün ölkədə geniş sosial-iqtisadi islahatların həyata keçirilməsinə başladı və bu proses indi də davam edir.

İcra olunan islahatların hədəfi ölkədə dayanıqlı qeyri-neft-qaz sənayesini yaratmaq idi. Ötən dövrdə ölkəmizdə minlərlə kiçik, orta və iri sənaye müəssisəsi yaradıldı. Belə müəssisələr təkcə ölkənin paytaxtında deyil, regionlarda da fəaliyyət göstərir. Bu da regionların inkişafına, orada yaşayan əhalinin sosial rifahının yaxşılaşmasına imkan yaradıb. Xüsusilə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları bu işdə önəmli rol oynadı. Dövlət başçısının əsas məqsədi Azərbaycanı sənaye ölkəsinə çevirməklə onun hərtərəfli inkişafını təmin etməkdir. Bununla bağlı Prezident İlham Əliyev elmi təhlillərə əsaslanan müxtəlif konsepsiya və proqramların qəbuluna üstünlük verdi.

Prezidentin 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası ölkəmizin hərtərəfli inkişafında mühüm rol oynadı. Bununla yanaşı, dövlət başçısının 30 oktyabr 2018-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" da mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət strategiyasıdır.

Ölkənin hərtərəfli inkişafı və sənayeləşdirilməsi Prezident İlham Əliyevin iqtisadi siyasətinin əsas istiqamətlərini təşkil etmişdir. Bu müddətdə ölkə iqtisadiyyatı 3, dövlət büdcəsinin həcmi 20, strateji valyuta ehtiyatlarının həcmi 30 dəfədən çox artmışdır. Ötən 21 ildə həmçinin sahibkarlıq subyektlərinin sayı 3 dəfədən çox artmış, özəl bölmənin ümumi daxili məhsulda (ÜDM) payı 83, məşğulluqda payı isə 78 faizdən artıq olmuşdur. Təkcə cari ilin 8 ayında ölkədə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal edilmiş, iqtisadiyyatın qeyri-neft-qaz sektorunda əlavə dəyər 7 faiz artmış, əhalinin hər nəfərinə düşən ÜDM təxminən 8 min manata bərabər olmuşdur. Bu dövrdə sənaye müəssisələri və həmin sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən ölkədə 42,4 milyard manatlıq sənaye məhsulları istehsal edilmiş, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə məhsul istehsalı qeyri-neft-qaz sektorunda 7,8 faiz artmışdır.

Azərbaycanda dayanıqlı inkişafı və əhalinin sosial rifahının təminatında sənayenin xüsusi payı var. Elə həyata keçirilən iqtisadi islahatların əsas hədəflərindən biri də Azərbaycanı inkişaf etmiş sənaye ölkəsinə çevirməkdir. Bununla bağlı konkret addımlar atılır, əməli tədbirlər görülür. Qısa dövr ərzində ölkəmizdə 6 sənaye parkı və 4 sənaye məhəlləsinin yaradılması, onların fəaliyyətinin təşkili, idarə olunması bunun təsdiqidir. İndiyədək sənaye zonalarına yerli və xarici investorlar tərəfindən 6 milyard manatdan çox sərmayə yatırılıb, bu zonalarda 100-dən çox müəssisə rezident kimi qeydiyyatdan keçib, 60-dan artıq istehsal sahəsi yaradılıb. Sənaye parkları və məhəllələrində investorlar üçün yaradılan münbit şərait yerli sahibkarlarla yanaşı, xarici sahibkarları da özünə cəlb edir. Təsadüfi deyil ki, sənaye zonalarında fəaliyyət göstərən müəssisələrdən 5-dən çoxu xarici investorlara məxsusdur. Növbəti illərdə sənaye zonalarındakı mövcud layihələrə sahibkarlar tərəfindən daha çox investisiya yatırılması proqnozlaşdırılır. Bunun sayəsində isə həmin zonalarda istehsal edilən sənaye məhsullarının çəkisi və çeşidi artacaq. Onu da xatırladaq ki, rezidentlər qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, o cümlədən istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar. Bununla yanaşı, rezidentlər dövlət vəsaiti hesabına hazır infrastruktur sistemi ilə təmin edilirlər.

Bütün bunlar ilk növbədə ölkədə qeyri-neft-qaz sənayesinin inkişafına xidmət edir. Üstəlik, sənaye zonalarında sahibkarlar tərəfindən ən son texnologiyalardan istifadə olunması keyfiyyət və maya dəyəri baxımından istehsal edilən məhsulların xarici bazarlara ixracına imkan yaradır. Son dövrlər ölkədən dünya bazarına qeyri-neft-qaz məhsullarının ixracının artması da bununla bağlıdır.

Məlumdur ki, hər bir sahənin inkişafı investisiya qoyuluşu tələb edir. Ona görə də dövlət qeyri-neft-qaz sənayesində çalışan sahibkarlara dəstək verir, o cümlədən onlara güzəştli kreditlərin əldə edilməsində yardımçı olur. Bundan əlavə, sənaye parkları və sənaye məhəllələrində fəaliyyət göstərən yerli və xarici sahibkarlar qeyd olunduğu kimi, bir çox vergi və rüsumlardan azad edilməklə yanaşı, əlavə güzəştlərdən də istifadə edirlər. Dövlətin bu səviyyədə dəstəyi sahibkarların sözügedən sektorda fəaliyyətlərini genişləndirmələri üçün stimul verir.

Yeri gəlmişkən qeyd edək ki, Prezidentin 6 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılmış Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi də yeni reallıqlar şəraitində ölkəmizin mövqeyini gücləndirmək, qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiyanı həyata keçirmək məqsədinə xidmət edir. Mərkəz Azərbaycanın Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığını və bu sahədə əlaqələndirməni, həmçinin rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir.

Xatırladaq ki, hələ 2020-ci il yanvarın 21-də Davosda keçirilən Dünya İqtisadi Forumunda Prezident İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalanmışdır. Bunun əsasında MDB məkanında ilk dəfə Azərbaycanda sözügedən mərkəz yaradılıb ki, bu da ölkəmizi rəqəmsal və texnoloji regiona çevirmək məqsədindən irəli gəlir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Baş Prokurorluqda Kollegiya iclası keçirilib





**Dekabrın 28-də baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə cari il ərzində görülmüş işlər, qarşıda duran vəzifələr və işin təşkilinə dair məsələlərə həsr olunmuş Kollegiya iclası keçirilib.**

Kollegiya iclası 25.12.2024-cü il tarixdə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus təyyarənin qəzaya uğraması nəticəsində həyatını itirmiş şəxslərin xatirəsi birdəqiqəlik sükutla yad edilməklə başlanaraq, qəzada həyatını itirənlərə Allahdan rəhmət, yaxınlarına səbir dilənib, xəsarət alan şəxslərə isə tezliklə şəfa tapmaları arzu edilib.

Baş prokuror Kamran Əliyev çıxışında bildirib ki, başa vurmaqda olduğumuz 2024-cü il Azərbaycan xalqı və dövlətimiz üçün mühüm hadisələrlə zəngin, yadda qalan bir il olmuşdur. Bu hadisələrin əksəriyyəti ölkəmiz üçün uğurlu hesab edilə biləcək olsa da, yaşanan təyyarə qəzası ilə bağlı baş vermiş faciə qəlbimizdə dərin izlər buraxmışdır.

Qeyd edilib ki, təyyarə qəzasının baş verməsindən dərhal sonra Prezident İlham Əliyevin göstərişi əsasında hadisə yerinə Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarının yüksəkvəzifəli şəxsləri və qəza nəticəsində xəsarət almış vətəndaşlarımıza təxirəsalınmaz və ixtisaslaşmış tibbi, habelə psixoloji yardımın göstərilməsinin təmini məqsədilə zəruri tibbi avadanlıqlarla təchiz olunmuş həkim heyəti ezam olunmuş, hadisənin araşdırılması ilə bağlı Dövlət Komissiyası yaradılmış, bundan əlavə ölkə rəhbəri tərəfindən xəsarət almış vətəndaşlarımızın ölkəmizə təxliyə edilməsi, onların ölkəmizdə müalicəsinin davam etdirilməsi məqsədilə zəruri şəraitin yaradılması, həlak olmuş şəxslərin nəşlərinin gətirilməsi, zərərçəkmiş şəxslərə və onların ailə üzvlərinə xüsusi diqqət və qayğı göstərilməsi barədə müvafiq tapşırıqlar verilmişdir.

Eyni zamanda məlumat verilib ki, hadisə baş verdikdən sonra Baş Prokurorluq tərəfindən dərhal cinayət işi başlanılmış və hazırda İstintaq idarəsi tərəfindən genişmiqyaslı istintaq tədbirləri həyata keçirilir. Bundan əlavə aidiyyəti dövlət qurumları, habelə Qazaxıstan Respublikası, Rusiya Federasiyası, Braziliya Federativ Respublikasının prokurorluq orqanları ilə qarşılıqlı əməkdaşlıq şəraitində hadisənin baş verməsinin əsl səbəblərinin müəyyən edilməsi istiqamətində araşdırmalar aparılır və qısa müddət ərzində bu istiqamətdə konkret nəticələrin əldə edilməsi təmin olunacaqdır.

Daha sonra vurğulanıb ki, 2024-cü ildə müstəqillik tariximizdə ilk dəfə olaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində cari il fevralın 7-də növbədənkənar prezident, cari il sentyabrın 1-də isə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçirilmişdir.

Uğurla keçirilmiş növbədənkənar prezident seçkilərində İlham Əliyevin mütləq səs çoxluğu ilə (92,12 faiz) Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalqımız tərəfindən onun şəxsiyyətinə bəslənilən rəğbətin, etimadın bariz nümunəsi olmuşdur.

Ulu Öndər Heydər Əliyev əqidəsinə və prinsiplərinə daim sadiq qalmış dövlət başçısının rəhbərliyi altında ölkəmizdə bütün sahələr üzrə əldə edilmiş inkişaf, torpaqlarımızın işğaldan azad edilməsi, qısa müddət ərzində həmin ərazilərin əksər hissəsində infrastrukturun bərpası və sakinlərimizin öz doğma el-obalarına köçürülməsi, beynəlxalq aləmdə Azərbaycanın həlledici mövqeyə malik bir dövlət kimi qərarlaşması və əldə edilmiş digər uğurlar xalqımızın sərbəst iradə ifadəsinin düzgün istiqamətdə olduğunu bir daha təsdiq edir.

Diqqətə çatdırılıb ki, cari ildə də Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri davam etdirilib, Ağdam, Cəbrayıl, Zəngilan və Şuşa rayonlarında ölkə rəhbəri tərəfindən kəndlərin və qəsəbələrin təməli qoyulub, çoxsaylı ictimai iaşə, yaşayış, kommunikasiya obyektlərinin, o cümlədən Qarabağ Universitetinin açılışı olmuşdur.

Sevindirici haldır ki, bütün bu işlər dövlətimizin öz maddi imkanları hesabına həyata keçirilmişdir.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində Laçın, Füzuli, Şuşa, Cəbrayıl və Zəngilan rayonlarına sakinlərin bir qisminin köçürülməsi və onların yaşayış evləri, mənzillərlə təmin edilməsi uğurla həyata keçirilmişdir.

Daha sonra vurğulanıb ki, 2024-cü il ərzində ölkəmiz həmçinin bir sıra mötəbər beynəlxalq tədbirlərə evsahibliyi etmişdir.

Belə ki, cari ilin noyabr ayında Bakı şəhərində Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yüksək təşkilatçılıqla keçirilməsi təmin olunmuş, illərdən bəri qəbulu uzanan bir sıra mühüm qərarların, o cümlədən iqtisadiyyatı zəif dövlətlərə iqlim dəyişikliyi ilə bağlı mübarizəyə dəstək verilməsi üçün 2030-cu ilədək 300 milyard dollar vəsaitin ayrılması ilə bağlı qərarın yekdilliklə qəbul edilməsi isə keçirilən tədbirə tarixi əhəmiyyət bəxş etmişdir.

Həmin tədbir çərçivəsində noyabr ayının 15-də Azərbaycan Respublikasının Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyinin həmsədrliyi ilə COP29 sədrliyinin təşəbbüslərindən (Presidency initiative) biri olan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda yüksəksəviyyəli iclas keçirilmişdir.

Bundan əlavə, Azərbaycan Respublikası Prokurorluğu tərəfindən cari il 27 sentyabr-02 oktyabr tarixlərdə 170-dən çox dövlətin üzv olduğu Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 58-ci iclasının, 29-cu İllik Konfransının və Ümumi Yığıncağının ümumilikdə 500-dən artıq şəxsin iştirakı ilə Bakı şəhərində yüksək peşəkarlıqla təşkili və keçirilməsi təmin edilmişdir.

Çıxışda həmçinin ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsində Azərbaycan prokurorluğu tərəfindən digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə zəruri tədbirlərin görüldüyü bildirilib.

Xüsusilə əvvəlki illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş qəsdən adam öldürmə cinayətlərinin daxili işlər, dövlət təhlükəsizliyi və ədliyyə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılmasının təmin edildiyi nəzərə çatdırılıb.

Bundan əlavə, Kamran Əliyev qeyd edib ki, Azərbaycan Respublikası və xalqına qarşı törədilən təcavüz aktı, işğal, soyqırımı, sülh və insanlıq əleyhinə digər cinayətlər, müharibə cinayətləri, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunun İstintaq idarəsində ümumilikdə 2548 epizod üzrə ittham olunan Qukasyan Arkadi Arşaviri, Harutyunyan Arayik Vladimiri, Sahakyan Bako Sahaki və qeyriləri olmaqla 15 nəfər barəsində istintaq olunmuş cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq aidiyyəti üzrə baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilmişdir və həmin iş üzrə dövlət ittihamının müdafiəsi ilə bağlı tədbirlərin icrası qanunla müəyyən edilmiş qaydada icra olunacaqdır.

Eyni zamanda baş prokuror tərəfindən Kollegiya iclasında 2025-ci ildə Azərbaycan Respublikası Prokurorluğu orqanlarının qarşısında duran digər mühüm məsələlər, o cümlədən 2025-ci ilin 19-23 may tarixlərində Bakı şəhərində keçirilməsi nəzərdə tutulan Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq İdarəsinin Korrupsiyaya qarşı mübarizə üzrə Qlobal Əməliyyat Şəbəkəsinin (GLoBE) rəhbər komitəsinin iclasının və altıncı plenar sessiyasına hazırlıq işlərinin görülməsi və həmin beynəlxalq tədbirin yüksək səviyyədə keçirilməsinin təşkili barədə müvafiq tapşırıqlar verilib.

İclasda həmçinin Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"na əlavə və dəyişikliklərin edilməsinin müzakirəsi və təsdiqi məsələsi ilə bağlı Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunmuş vəzifələrə təyinatlara razılıq verilməsi ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov, 2024-cü ildə keçirilmiş beynəlxalq tədbirlərlə bağlı görülmüş işlər və növbəti ildə keçiriləcək beynəlxalq tədbirlərlə əlaqədar qarşıda duran vəzifələr barədə Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanov məruzələrlə çıxış ediblər.

Aparılmış müzakirələr ətrafında Kollegiya üzvləri çıxış edərək təkliflərini bildiriblər. Sonda Kollegiyanın qərarı ilə bir sıra məsələ üzrə qərarlar qəbul olunub.

İclasa yekun vuran baş prokuror Kamran Əliyev Azərbaycan Respublikası Prokurorluğu orqanlarının bundan sonrakı fəaliyyəti zamanı da dövlət və xalqımızın mənafeyi naminə qanunla üzərinə qoyulmuş vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

# İl ərzində normallaşma gündəliyi Azərbaycanın milli maraqlarına uyğun şəkildə irəlilədilib

2024-cü il ərzində Ermənistan ilə Azərbaycan arasında bir-birinin suverenliyi, ərazi bütövlüyü və dövlət sərhədlərinin qarşılıqlı tanınması, hörmət edilməsi əsasında münasibətlərin normallaşdırılması ilə bağlı Azərbaycan tərəfindən irəli sürülmüş gündəlik davamlı olaraq irəlilədilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin (XİN) 2024-cü ilin yekunlarına dair mətbuat buraxılışında qeyd edilib.

Bildirilib ki, ölkəmizə qarşı Ermənistan və onun havadarları tərəfindən aparılan qarayaxma kampaniyasının qarşısının alınması, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı təhdidlərin neytrallaşdırılması istiqamətində addımların beynəlxalq ictimaiyyətə izah edilməsi və bu addımları sual altına almaq və məhdudlaşdırmaq cəhdlərinin qarşısının alınmasına yönəlmiş ardıcıl, sistemli və qətiyyətli xarici siyasət fəaliyyəti həyata keçirilib. İl ərzində Azərbaycan tərəfindən irəli sürülmüş normallaşma gündəliyi birbaşa ikitərəfli danışıqlar yolu ilə ardıcıl, məqsədyönlü şəkildə Azərbaycan Respublikasının milli maraqlarına uyğun şəkildə irəlilədilib.

Qeyd edilib ki, tərəflər arasında aparılan ikitərəfli danışıqlar nəticəsində sazişin mətni üzrə əhəmiyyətli irəliləyiş əldə edilib. Nəticə etibarilə, sazişin mətnində açıq qalan məsələlər ciddi şəkildə azalıb. İl ərzində sərhədlərin delimitasiyası və demarkasiyası sahəsində müsbət nəticələr əldə edilib. İki ölkənin Baş nazirlərinin müavinlərinin rəhbərlik etdiyi Azərbaycan və Ermənistanın sərhədlərin delimitasiyası ilə məşğul olan komissiyaların əldə etdiyi razılığa əsasən, Azərbaycanın Ermənistanın işğalı altında olan Bağanıs-Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin Azərbaycanın suveren nəzarətinə qaytarılması təmin edilməklə, dövlət sərhədinin 13 kilometrə qədər hissəsinin delimitasiya və demarkasiyası aparılıb. Sözügedən razılıq Ermənistan tərəfindən işğal altında olan ərazilərin ikitərəfli danışıqlar yolu ilə qaytarılması və iki dövlət arasında rəsmi dövlət sərhədinin bir qisminin delimitasiya və demarkasiyasını təsbit edən ilk nəticə kimi əlamətdar olub.

Bundan əlavə, sərhədin delimitasiyası xüsusunda daha bir ciddi irəliləyiş hər iki tərəfdən müvafiq komissiyaların əsasnamələrinin razılaşdırılması olub ki, bu da komissiyaların növbəti mərhələdə birgə işini tənzimləyərək, prosesin irəli aparılması baxımından mühüm əhəmiyyət kəsb edir. İkitərəfli danışıqlar yolu ilə normallaşma istiqamətində əldə edilmiş irəliləyişə baxmayaraq, Ermənistanın Konstitusiyasında və digər normativ-hüquqi aktlarında Azərbaycana qarşı ərazi iddialarını ehtiva edən müddəaların dəyişdirilməsi istiqamətində Ermənistan tərəfinin siyasi iradə nümayiş etdirməməsi fonunda bu ölkədə davam edən revanşizm tendensiyası, xarici qüvvələrin birbaşa dəstəyi ilə Ermənistanın sürətlə silahlanması normallaşma prosesinin yekunlaşdırılması üçün ən ciddi maneə olaraq qalmaqda davam edir. Bu kontekstdə, Ermənistanın yaranmış yeni reallıqda fəaliyyətini başa vurmuş, öz aktuallığını və funksionallığını itirmiş ATƏT-in keçmiş Minsk Prosesinə aid institutların formal mövcudluğunu saxlamaq mövqeyi bu ölkənin normallaşma gündəliyinə sadiqliyini ciddi şəkildə sual altına qoymaqda davam edir.

Diqqətə çatdırılıb ki, regiondan kənar qüvvələrin bir tərəfdən Ermənistanı sürətlə silahlandırması, digər tərəfdən isə müxtəlif beynəlxalq platformalarda Azərbaycana qarşı əsassız qarayaxma kampaniyasını təşviq etməsi il ərzində danışıqlar prosesinin məntiqi sonluğa çatdırılmasına ciddi əngəl törədib. Xüsusilə, COP29-un ölkəmizdə təşkilindən sui-istifadə etməklə geniş vüsət almış bu kampaniya Azərbaycan tərəfinin sistemli, ardıcıl və məqsədyönlü addımlar nəticəsində əhəmiyyətli dərəcədə neytrallaşdırılıb, normallaşma prosesinin məhz Azərbaycan tərəfinin irəli sürdüyü gündəlik çərçivəsində qurulması təmin edilib.

Bildirilib ki, atılan məqsədyönlü addımlar nəticəsində Azərbaycana qarşı fərqli beynəlxalq platformalarda davamlı şəkildə irəli sürülmüş təşəbbüslərə qarşı mübarizə aparılıb, göstərilən istiqamətlərdə anti-Azərbaycan təşəbbüsləri uğursuzluğa düçar olub. Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı, Azərbaycan xalqının təhlükəsizliyi və firavanlığının təmin edilməsi xarici siyasətimizin əsas məqsədi olmaqla, hər zaman olduğu kimi Ermənistanla normallaşma gündəliyinin və digər aktorlarla əməkdaşlığımızın əsas qayəsini təşkil edəcək. Bundan irəli gələrək, növbəti ildə də milli maraqlarımıza uyğun olaraq, prinsipial, qətiyyətli və ardıcıl fəaliyyət davam etdiriləcək.

❖❖❖

Mətbuat buraxılışında daha sonra qeyd olunur ki, 2024-cü ildə Azərbaycan qlobal miqyasda yardım və humanitar dəstək fəaliyyətini aktiv şəkildə davam etdirib. Xarici dövlət və beynəlxalq təşkilatların yardım müraciətlərinə baxılıb, Azərbaycan Respublikasının digər dövlət qurumları ilə əlaqələndirilərək müvafiq yardımların çatdırılması təşkil olunub.

Bildirilib ki, 2024-cü ildə Prezident İlham Əliyevin sərəncamı ilə təsis edilmiş İƏT, QH və SIDS qrupuna daxil olan dövlətlərin, eləcə də xalqımızla etnik, tarixi və mədəni bağlara malik xalqların və milli azlıqların yaşadığı ölkələrin vətəndaşları üçün "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramına əcnəbi tələbələrin ilk qəbulu prosesi həyata keçirilib və 2024/2025-ci tədris ili üzrə 35 ölkədən 100 tələbəyə ölkəmizdə təhsil almaq imkanı yaradılıb.

Eyni zamanda ölkəmiz tərəfindən Ukraynaya humanitar yardım göstərilməsi davam etdirilib, indiyə qədər verilmiş humanitar, eləcə də bərpa və yenidənqurma məqsədli yardımların ümumi məbləği 70 milyon manata (təxminən 40 milyon ABŞ dollarından artıq) çatıb.

❖❖❖

XİN-in 2024-cü ilin yekunlarına dair mətbuat buraxılışında o da qeyd edilib ki, minalardan əziyyət çəkən ölkə kimi Azərbaycan bu problemin aradan qaldırılması üçün aparılan genişmiqyaslı humanitar minatəmizləmə əməliyyatları barədə beynəlxalq səviyyədə məlumatlandırma işini və humanitar minatəmizləmə əməliyyatlarına beynəlxalq yardımın cəlb olunması istiqamətində səylərini davam etdirib. Azərbaycan bu məqsədlə ikitərəfli və çoxtərəfli formatlarda diplomatik fəallıq göstərib, BMT, UNESCO, Avropa İttifaqı, NATO daxil olmaqla beynəlxalq təşkilatlar və bir sıra ölkələrlə ərazilərimizdəki mina probleminin aradan qaldırılması üzrə əməkdaşlıq yolları barədə dialoqu davam etdirib.

Bildirilib ki, artıq ənənə halını almış, humanitar minatəmizləmə mövzusunda Bakıda illik əsasda keçirilən beynəlxalq konfrans bu sahədə mühüm dialoq formatına çevrilib. Mayın 30-31-də Azərbaycan və BMT-nin birgə təşkilatçılığı ilə Zəngilan və Bakı şəhərlərində "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsizlik və yaşıl gələcəyə doğru resursların səfərbər edilməsi" mövzusunda 3-cü beynəlxalq konfrans keçirilib. Noyabrın 4-8-də Ümumdünya Şəhərsalma Forumunun Qahirədə keçirilmiş 12-ci iclasında ölkəmiz fəal iştirak edib, işğaldan azad edilmiş ərazilərimizdə minatəmizləmə, bərpa və yenidənqurma fəaliyyətlərinə dair ətraflı məlumat verilib. Sentyabrın 18-də BMT-nin İnsan Hüquqları Şurasının 57-ci sessiyası çərçivəsində gündəliyin "Bütün insan hüquqlarının, mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqların, o cümlədən inkişaf hüququnun təşviqi və qorunması" adlı 3-cü bəndi altında Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş "Minaların və digər partlamamış sursatların insan hüquqlarına təsirləri" adlı bəyanata 66 ölkə həmmüəllif qismində qoşulub.

# Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğunun birgə məlumatı

## Vardanyan Ruben Karlenoviç barəsində cinayət işi məhkəməyə göndərilib

**Terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, Azərbaycan Respublikası və xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində cinayət işinin istintaqı aparılıb.**

Rusiya Federasiyasının vətəndaşı olmuş, hazırda Ermənistan Respublikasının vətəndaşı olan, Rusiya Federasiyasında "Troyka Dialoq" şirkətinin təsisçisi və rəhbəri olmuş, Rusiya Federasiyasında "KAMAZ" ASC-nin direktorlar şurasının üzvü, həmin ölkədə "Volqa-Dnepr" şirkətlər qrupunun müstəqil direktoru və sair vəzifələrdə çalışmış Vardanyan Ruben Karlenoviç 25 sentyabr 2023-cü il tarixində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1, 279.3 və 318.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində axtarış elan edilib, 27 sentyabr 2023-cü il tarixində saxlanılaraq istintaqa təhvil verilib və həmin tarixdə ona ittiham elan edilib.

Toplanmış mötəbər sübutlar əsasında təqsirləndirilən şəxs Ruben Vardanyana Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ respublikası" və qanunsuz silahlı birləşmələri əhatə edən cinayətkar birlikdə, qanunsuz silahlı birləşmələrin və qrupların yaradılmasında və fəaliyyətinin təşkilində iştirak edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, aparma), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma), 318-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələrində nəzərdə tutulan əməllərin törədilməsi ilə bağlı yekun ittiham elan olunub.

İstintaq müddətində təqsirləndirilən şəxsin müdafiə hüququ, bildiyi dildən istifadə etmək və digər prosessual hüquqları təmin edilib. Təqsirləndirilən şəxs özünün seçdiyi vəkillərlə təmin edilib, özü və vəkilləri tərəfindən verilmiş vəsatətlərə cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılaraq müvafiq qərarlar qəbul edilib.

İbtidai istintaqın başa çatması barədə təqsirləndirilən şəxs Ruben Vardanyana və cinayət prosesinin digər iştirakçılarına məlumat verilib, onlar cinayət işi üzrə maddi sübutlar, sənədlər, ekspertiza rəyləri və digər sübutlar da daxil olmaqla, cinayət işinin bütün materialları ilə tanış edilib.

Cinayət işi üzrə ittiham aktı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən 28 dekabr 2024-cü il tarixində təsdiq edilərək baxılması üçün aidiyyəti üzrə Bakı Hərbi Məhkəməsinə göndərilib.

# *Ayxan HACIZADƏ:* "Azərbaycan ərazisində Rusiya vətəndaşlarının müvəqqəti olma müddəti barədə qaydalara dəyişiklik ediləcək"

**"Yaxın günlərdə Azərbaycan ərazisində Rusiya vətəndaşlarının müvəqqəti olma müddəti barədə qaydalara dəyişiklik edilməsi nəzərdə tutulub".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Rusiyada xarici vətəndaşların müvəqqəti olma müddəti ilə əlaqədar qəbul edilmiş yeni qaydalarla bağlı yerli medianın sualına cavabında bildirib.

O qeyd edib ki, Rusiya tərəfinin tətbiq etdiyi yeni qaydalar və ölkədə qalma müddəti ilə bağlı tələblərin sərtləşdirilməsi, ilk növbədə, Azərbaycan vətəndaşlarının hüquqları kontekstində nəzərdən keçirilir. "Azərbaycan tərəfi hər bir xarici siyasət məsələlərində olduğu kimi, müvəqqəti olma və miqrasiya məsələlərində də paritet və qarşılılıq prinsiplərindən çıxış edəcək", - deyə A.Hacızadə əlavə edib.

Qeyd edək ki, Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi bir neçə gün bundan əvvəl açıqlamasında bildirib ki, Rusiya Federasiyasının müvafiq qanunvericiliyinə edilən bir sıra dəyişikliklərə əsasən, 2025-ci il yanvarın 1-dən etibarən xarici ölkə vətəndaşlarının Rusiya ərazisində müvəqqəti qalma müddəti bir təqvim ili ərzində cəmi 90 gün olacaq. O, həmçinin bildirib ki, qaydalara əsasən, xarici vətəndaşlar Rusiya dövlət sərhədini keçdiyi tarixdən 7 iş günü ərzində olduğu yer üzrə qeydiyyata düşməlidir. Xatırladaq ki, hazırkı qaydalara görə bu müddət 180 gün ərzində 90 gün, bir il ərzində isə 180 gündür.

# Qazaxıstan Prezidenti Aktau yaxınlığında baş verən təyyarə qəzası ilə bağlı müşavirə keçirib



**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Aktau yaxınlığında baş vermiş təyyarə qəzası ilə bağlı müşavirə keçirib.**

AZƏRTAC "Akorda"nın Mətbuat xidmətinə istinadla xəbər verir ki, o, bir daha həlak olanların doğmalarına və yaxınlarına başsağlığı verib, bir neçə gün əvvəl Manqistau vilayətində təyyarə qəzası nəticəsində həlak olanlar arasında Qazaxıstan vətəndaşlarının da olduğunu xatırladıb.

Qasım-Jomart Tokayev vurğulayıb ki, təbii fəlakət zamanı fövqəladə hallar xidmətləri ahəngdar və operativ hərəkət ediblər.

"Biz qəzanın daha ciddi nəticələrinin qarşısını ala bildik və bir çox insanın həyatını xilas edə bildik. Xilasetmə işləri yüksək səviyyədə həyata keçirilib. Hadisə ilə bağlı hərtərəfli məlumat operativ şəkildə ictimaiyyətə çatdırılıb. Vətəndaşlarımız ilk dəqiqələrdən həmrəylik, səmimi şəfqət və təşkilatçılıq nümayiş etdirərək zərərçəkənlərə yardım əllərini uzadıblar. İnsanlar qan vermək üçün növbəyə düzülürdülər. Bir çox soydaşlarımız Azərbaycan səfirliyinin binası önünə gül dəstələri qoyublar. Bu reaksiya həm yerli, həm də xarici mətbuatda geniş işıqlandırılıb. Bütün dünya xilasedicilərimizin, həkimlərimizin, könüllülərimizin fədakar əməyinin şahidi oldu. Qonşu dost ölkələrin - Azərbaycan, Rusiya, Qırğızıstan vətəndaşları xüsusi minnətdarlıqlarını bildirirlər", - deyə dövlət başçısı vurğulayıb.

Prezident təyyarə qəzasının nəticələrinin aradan qaldırılması zamanı şücaət və yüksək peşəkarlıq nümayiş etdirmiş ən çox fərqlənən vətəndaşların dövlət mükafatlarına təqdim olunmasını hökumətə tapşırıb.

Dövlət başçısı hökumət komissiyasına xəsarət almış əcnəbi vətəndaşlara bütün zəruri tibbi və psixoloji yardımın göstərilməsini təmin etməyi, habelə həlak olan Qazaxıstan vətəndaşlarının doğmalarına xüsusi diqqət yetirməyi tapşırıb.

Hökumət komissiyasına və Baş Prokurorluğa digər səlahiyyətli orqanlarla birlikdə təyyarə qəzasının hərtərəfli və obyektiv araşdırılmasını təmin etmək tapşırılıb.

Qazaxıstan Prezidenti informasiya təxribatlarının və saxtakarlıqların qarşısının alınmasının vacibliyini qeyd edib. Bundan əlavə, o, bütün ölkə üzrə aviasiya təhlükəsizliyinin vəziyyətinin diqqətlə öyrənilməsinin vacibliyini bildirib.

# Putin və Tokayev Aktau yaxınlığındakı təyyarə qəzasını müzakirə ediblər

**Rusiya tərəfinin təşəbbüsü ilə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.**

AZƏRTAC-ın Akordanın Mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, dövlət başçıları Aktau şəhəri yaxınlığında AZAL-a məxsus təyyarənin qəzaya uğraması nəticəsində Qazaxıstan və Rusiya vətəndaşlarının faciəli ölümü ilə əlaqədar başsağlığı veriblər və yaralananların tezliklə sağalmasını arzulayıblar.

Liderlər təyyarə qəzasının səbəblərinin araşdırılması istiqamətində tərəflərin həyata keçirdiyi işləri müzakirə ediblər. Kasım-Jomart Tokayev yaradılmış Qazaxıstan Respublikasının Hökumət Komissiyasının Azərbaycan, Rusiya və Braziliya mütəxəssislərinin cəlb edilməsi ilə araşdırmanı davam etdirdiyini qeyd edib.

Prezidentlər aparılan istintaq tədbirləri çərçivəsində hərtərəfli və şəffaf araşdırmanın təmin edilməsinin vacibliyini vurğulayıblar.

# Həqiqət etiraf olundu

## Rusiya Prezidenti Vladimir Putin təyyarəmizin qəzaya düşməsi ilə bağlı üzrxahlıq etdi

**Dekabrın 25-də Bakı-Qroznı (Rusiya) reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatının baş verməsi xalqımıza matəm yaşatdı. 38 nəfərin həlak olması, 29 nəfərin xəsarət alması ilə nəticələnən faciənin başvermə səbəbləri ilk gündən diqqət mərkəzində idi.**



### İlkin qənaət ondan ibarət idi ki, qəza kənar müdaxilə nəticəsində baş verib

Təyyarə qəzası baş verən andan Prezident İlham Əliyevin xüsusi nəzarətindəydi. Xatırladaq ki, dekabrın 25-də Sankt-Peterburq şəhərində keçiriləcək MDB-yə üzv ölkələrin dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiyaya səfərə yola düşən Prezident İlham Əliyevə bu ölkənin hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilmiş və dövlətimizin başçısı dərhal geri dönmək barədə tapşırıq vermişdi. Təyyarədə olarkən dövlət başçısı tərəfindən qəzanın səbəblərinin araşdırılması və təxirəsalınmaz tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumlarına lazımi tapşırıqlar verilmişdi.

Təyyarə Bakıya endikdən dərhal sonra Prezident İlham Əliyev hadisə ilə bağlı Heydər Əliyev Beynəlxalq Aeroportunda müşavirə keçirmişdi. "Mediada, sosial şəbəkələrdə təyyarənin qəzaya uğraması anları mövcuddur. Ona görə onu hər kəs görə bilər. Ancaq qəzanın səbəbləri bizə bəlli deyil. Müxtəlif versiyalar var. Hesab edirəm ki, hələ bu barədə danışmaq tezdir. Məsələ tam araşdırılmalıdır. Baş Prokurorluq tərəfindən cinayət işi açılmışdır və təbii olaraq, Azərbaycan ictimaiyyəti həm komissiyanın işinin nəticələri, həm də cinayət işinin gedişatı ilə bağlı müntəzəm olaraq məlumatlandırılacaq", - deyə Prezident İlham Əliyev müşavirədə bildirmişdi.

Prezident İlham Əliyevin sərəncamı ilə baş vermiş hadisənin səbəblərini araşdırmaq və müvafiq tədbirlər görmək məqsədilə Baş nazir Əli Əsədovun sədrliyi ilə Dövlət Komissiyası yaradılmış, Azərbaycan nümayəndələrindən ibarət heyət dərhal qəzanın baş verdiyi Aktau şəhərinə ezam olunmuşdu. O cümlədən Prezidentin tapşırığına uyğun olaraq zəruri vasitələrlə təchiz edilmiş Azərbaycan Fövqəladə Hallar Nazirliyinin təcrübəli psixoloq, həkim və xilasedicilərindən ibarət qrup da Aktau şəhərinə göndərilmiş, həlak olanların şəxsiyyətlərinin dəqiqləşdirilməsi, yaralıların vəziyyəti xüsusi diqqət mərkəzində saxlanılmışdı.

Qeyd edək ki, qəzadan sonra gəlinən ilkin qənaət ondan ibarət idi ki, hadisə təyyarə Rusiya ərazisində olarkən kənar müdaxilə nəticəsində baş verib. Bu qənaətə gəlməyə təyyarənin qalıqlarının vəziyyəti və şahid ifadələri əsas verirdi. Belə ki, qəzadan sonra zərərçəkən sərnişinlər və bələdçilər təyyarə Qroznı şəhərinin üzərində olarkən partlayış səsi eşitdiklərini bildiriblər. Təyyarənin qalıqlarının üzərində isə kənar müdaxilənin nəticəsi olan deşik izlərini görmək mümkündür.

Artıq həqiqət tam aydındır. Dekabrın 28-də Azərbaycan Prezidenti İlham Əliyevə zəng edən Rusiya Prezidenti Vladimir Putin dekabrın 25-də Bakı-Qroznı marşrutu üzrə uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiyanın hava məkanında fiziki-texniki xarakterli kənar müdaxiləyə məruz qalması və nəticədə baş vermiş faciəvi hadisə ilə bağlı üzrxahlığını ifadə edib, bu qəzada həlak olanların ailələrinə və yaxınlarına dərin və ən səmimi başsağlığını bir daha çatdırıb, xəsarət alanların tezliklə şəfa tapmasını dilədiyini deyib.

### Dövlət öz vətəndaşının yanındadır

Ümumiyyətlə, Azərbaycan dövlətinin insan amilini hər zaman xüsusi diqqət mərkəzində saxladığını və bunun Prezident İlham Əliyev siyasətində mənəvi bir məsələ olduğunu çoxsaylı misallarla göstərmək olar. Bu sırada əvvəldən proqnozlaşdırılmayan hadisələr və ekstremal situasiyalarda dövlətimizin çevik reaksiyası, aidiyyəti qurumların operativ fəaliyyətə keçmələri xüsusi qeyd olunmalıdır. Məsələn, dövlətimizin başçısı hələ 2004-cü ildə Lənkəran şəhərində yaşayış binasının uçmasına çevik reaksiya göstərmiş, dərhal hadisə yerinə getmiş, zərərçəkənlərə maddi yardım göstərilməsi üçün tapşırıqlar vermişdi. Prezidentin 2005-ci ildə metronun "İçərişəhər" stansiyasının eskalatorundakı nasazlıq üzündən ciddi xəsarətlər almış vətəndaşlara, eləcə də həmin ilin dekabrında təyyarə qəzasında həlak olanların yaxınlarına və yaralananlara zəruri yardımlar edilməsi barədə göstəriş verməsi də daim xüsusi xatırlanır.

2007-ci ilin avqustunda Yasamal rayonu ərazisində insan tələfatı ilə nəticələnən hündürmərtəbəli binanın uçması zamanı da ən böyük mənəvi dəstək İlham Əliyevdən gəldi. 2010-cu ilin may ayında Sabirabad və Saatlı rayonlarında sel, 2012-ci ilin may ayında şimal-qərb bölgəsində zəlzələ, 2015-ci ilin dekabrında neft yatağında texnogen qəza, 2019-cu ilin fevralında Şamaxı, İsmayıllı və Ağsu rayonlarında zəlzələ zamanı da ölkə ictimaiyyəti Prezident İlham Əliyevin həssas və çevik reaksiyasının şahidi olub.

Bu il dekabrın 25-də baş verən təyyarə qəzası da bir daha göstərdi ki, Azərbaycan Prezidenti daim öz vətəndaşının yanındadır və onun ən böyük, ən etibarlı dayağıdır. Xalqımız bir daha dövlətimizin hər zaman öz vətəndaşının yanında olmasına şahidlik etdi.

### Qardaşlığın və həmrəyliyin təcəssümü

Aktauda qəzaya uğrayan təyyarəmizin köməyinə ilk olaraq Qazaxıstanın xilasedicilər və həkimləri yetişiblər. Onlar xəsarət alanları dərhal xilas edərək, lazımi tibbi dəstəyi göstəriblər.

Prezident İlham Əliyev dekabrın 27-də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə telefon danışığı zamanı xilasetmə işlərinin aparılması ilə bağlı qardaş ölkəyə şəxsən təşəkkürünü bildirib. Dövlətimizin başçısı bu işlərdə dərhal lazımi tədbirlər görən və yaralanan sərnişinlərin xilas olunmasında fəal iştirak edən Qazaxıstan xilasedicilərinin işini yüksək qiymətləndirib. Prezident İlham Əliyev Qazaxıstanın tibb personalına da təşəkkürünü çatdıraraq, onların xəsarət alanlara qayğı ilə yanaşmaları və peşəkarcasına tibbi xidmət göstərmələri ilə bağlı minnətdarlığını bildirib. Dövlətimizin başçısı Qazaxıstanın sadə vətəndaşlarının da Azərbaycanla həmrəylik göstərərək, bu işlərdə verdikləri dəstəyi bir daha dost və qardaş xalqlarımızın bir-birinə nə qədər bağlı olmasının göstəricisi kimi dəyərləndirib, bunun Azərbaycan ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirildiyini qeyd edib.

Ümumiyyətlə, Qazaxıstanın rəhbərliyi, müvafiq mərkəzi və icra orqanları hadisəyə baş verən andan operativ və çevik münasibət göstəriblər. Hadisə yerinə Qazaxıstanın Baş nazirinin müavini, fövqəladə hallar və nəqliyyat nazirləri, fövqəladə hallar üzrə nazir müavini və hökumət komissiyasının üzvləri gəliblər. Qısa müddətdə iki ölkənin aidiyyəti qurumları arasında koordinasiyalı fəaliyyətin və məlumat mübadiləsinin həyata keçirilməsi təmin olunub. Azərbaycanın Baş naziri Əli Əsədov Qazaxıstanın ölkəmizdəki səfirliyinə gələrək, təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə bağlı səfirlikdə açılan matəm kitabına ürək sözlərini yazıb.

Qazaxıstan vətəndaşları hadisəyə biganə qalmayaraq xəsarət alanlara yardım etmək üçün qan veriblər. Azərbaycanın Astanadakı səfirliyinin və Aktaudakı baş konsulluğunun binalarının önünə gül dəstələri düzülüb, həlak olanların xatirəsi ehtiramla yad olunub. Bütün bunlar bir daha iki dövlətin və onların xalqları arasındakı qardaşlığın və həmrəyliyin təcəssümünə çevrildi.

Təyyarəmizin Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində zərərçəkən vətəndaşlarımızın əksəriyyəti artıq ölkəmizə gətirilib. Dövlətimizin başçısının hadisə ilə bağlı çevik reaksiyası, həyata keçirdiyi tədbirlər qəzada əzizlərini itirmiş hər bir vətəndaşımıza böyük mənəvi təsəlli oldu.

Artıq təyyarənin qəzaya uğramasının səbəbi aydındır. Azərbaycan tərəfi həmçinin günahkarların cəzalandırılmasını və kompensasiyanın ödənilməsini gözləyir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Braziliya Aviasiya Qəzalarının Araşdırılması və Qarşısının Alınması Mərkəzinin nümayəndələri Aktauya gəliblər

**Dekabrın 28-də Braziliya Aviasiya Qəzalarının Araşdırılması və Qarşısının Alınması Mərkəzinin (CENIPA) təhqiqat komissarları Aktauya gəliblər.**



AZƏRTAC Qazaxıstan Nəqliyyat Nazirliyinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, təhqiqat komissiyasının qərargahında müşavirə keçirilib, burada qəza yerində birgə tapşırıqlar müəyyən edilib.

CENIPA mülki aviasiyada aviasiya qəzalarının araşdırılması üzrə səlahiyyətli orqandır.

# Təyyarə qəzasında yaralananlara səyyar "ASAN xidmət" göstərilib

**Dekabrın 25-də Bakı-Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində sənədləri korlanmış yaralı sərnişinlərə səyyar "ASAN xidmət" göstərilib.**



Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və Daxili İşlər Nazirliyinin əməkdaşlarından ibarət birgə operativ səyyar qrup formalaşdırılıb.

Bu barədə AZƏRTAC-a Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Qeyd olunub ki, "Yeni Klinika" tibb müəssisəsində müalicə alan yaralılara şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi xidməti həyata keçirilib.

"Faciə nəticəsində həlak olanların ailə üzvlərinə və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirik", - deyə agentlikdən bildirilib.

# Aviaqəza qurbanlarının xatirəsi xarici ölkələrdə anılıb

Bakı-Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları" (AZAL) QSC-yə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insanın həlak olması səbəbindən dekabrın 26-da Azərbaycanda matəm günü elan edilməsi ilə bağlı Azərbaycanın Braziliyadakı səfirliyi tərəfindən Dövlət bayrağımız yarıya qədər endirilib, başsağlığı kitabı açılıb.

Səfirlikdən bildirilib ki, Braziliya Federal dövlət və hökumət nümayəndələri, diplomatik korpusun üzvləri səfirliyi ziyarət edərək, Azərbaycan xalqına dərin hüznlə başsağlığı verib, xatirə kitabına ürək sözlərini yazıblar.

Qeyd edilib ki, həmçinin səfirliyin elektron poçt ünvanına faciə ilə əlaqədar çox sayda braziliyalılar tərəfindən də başsağlığı müraciətləri ünvanlanıb.

❖ ❖ ❖

Türkiyənin Azərbaycanla həmsərhəd İğdır vilayətində "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində həlak olanların xatirəsi ehtiramla anılıb.

Türkiyə-Azərbaycan Dostluq Cəmiyyətləri Federasiyası və "Azərbaycan Evi"nin təşəbbüsü ilə dekabrın 28-də İğdırda anım tədbiri keçirilib. Tədbir iştirakçıları təyyarə qəzası zamanı həlak olanların xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

İğdır-Azərbaycan Dil, Tarix və Mədəniyyət Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyinin sədri Ziya Zakir Acar Türkiyə xalqının qardaş Azərbaycanın ağrısını bölüşdüyünü qeyd edib. O, təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verib, yaralananların tezliklə sağalmasını diləyib.

"Azərbaycanda elan edilən matəmlə əlaqədar biz də Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş bayram tədbirlərini ləğv etdik. Ümid edirəm ki, belə faciələr bizim ölkələrimizdən yan keçəcək", - deyə o bildirib.

Cəmiyyətin rəhbəri mülki təyyarənin düşməsinə səbəb olan xarici təsirlərilə bağlı iddialara diqqət çəkib.

İğdırdakı "Azərbaycan Evi"nin rəhbəri Serdar Ünsal faciə qurbanlarının ailələrinə və yaxınlarına başsağlığı verib. O, Türkiyə Cümhuriyyətinin qurucusu və ilk Prezidenti Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri isə kədərimizdir" sözlərini xatırladıb.

"Türkiyə xalqı qardaş Azərbaycanın faciəsinə şərikdir. Biz hər zaman dost ölkəni dəstəkləməyə hazırıq. Təyyarə qəzasında həlak olanların xatirəsi bizim qəlbimizdə yaşayacaq", - deyə o əmin edib.

Tədbir iştirakçıları Qazaxıstanda baş vermiş faciədə həlak olanların xatirəsinə tədbir zalına 38 gül dəstəsi qoyublar.

❖ ❖ ❖

Moldovanın Baş nazirinin müavini və xarici işlər naziri Mixay Popşoy 2024-cü il dekabrın 25-də Qazaxıstanda baş vermiş təyyarə qəzasında həlak olanların xatirəsini anmaq üşün dekabrın 27-də Azərbaycan səfirliyində olub.

O, bu matəm günlərində Moldova Respublikasının Azərbaycanın yanında olduğunu, onunla həmrəy olduğunu bildirib.

"Bu son dərəcə ağrılı-acılı anlarda həlak olanların ailələrinə və bütün Azərbaycan xalqına başsağlığı verirəm. Bu faciəvi qəzada yaralananların tezliklə və tam sağalmasını diləyirəm. Moldova Respublikası bu matəm günlərində Azərbaycanın yanında qalır və onunla tam həmrəy olduğunu bildirir", - deyə nazir başsağlığı kitabında yazıb.

Parlamentin Xarici siyasət və Avropaya inteqrasiya komitəsinin sədri İna Koşeru, Moldova-Azərbaycan parlament dostluq qrupunun rəhbəri Vitali Yakot və deputat Vitali Qavruk da başsağlığı veriblər.

❖ ❖ ❖

"Azərbaycan Hava Yolları"nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzaya uğraması ilə əlaqədar elan olunmuş matəm günündə ölkəmizin Xorvatiyadakı səfirliyində Dövlət bayrağı yarıya qədər endirilib, başsağlığı kitabı açılıb.

Xorvatiya Respublikası Xarici və Avropa İşləri Nazirliyinin rəsmiləri, Zaqrebdəki diplomatik missiyaların rəhbərləri başsağlığı kitabını imzalayıblar.

❖ ❖ ❖

Avstriya-Azərbaycan dostluq qrup adından "Azərbaycan Hava Yolları"nın (AZAL) sərnişin təyyarəsinin Qazaxıstanda qəzaya uğraması ilə əlaqədar dərin hüznlə başsağlığı verirəm.

Avstriya-Cənubi Qafqaz parlamentlərarası dostluq qrupunun sədri Andreas Minnix bu barədə öz "X" hesabında paylaşım edib. Təyyarə qəzası ilə əlaqədar ölkəmizin Avstriyadakı səfirliyinə baş çəkən avstriyalı siyasətçi başsağlığı kitabında ürək sözlərini yazıb.

*AZƏRTAC*

# Xarici mətbuat Azərbaycana məxsus "Embraer 190" təyyarəsinin qəzaya uğramasını diqqət mərkəzində saxlayır




İtaliya mətbuatı Bakı-Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin hansı səbəbdən qəzaya uğramasını diqqət mərkəzində saxlayıb, bununla bağlı mütəmadi olaraq məlumatlar paylaşıb.

AZƏRTAC xəbər verir ki, "Rai", ANSA, "La Repubblica", "Sky TG24", "il Messaggero" və digər nəşrlərdə yayımlanan materiallarda sərnişin təyyarəsinin kənar müdaxilə nəticəsində qəzaya uğradığı qeyd olunub. Vurğulanıb ki, təyyarənin enmə trayektoriyası, onun qalıqlarının vəziyyəti, şahidlərin ifadələri və qəzanın xronoloji ardıcıllığı bunu deməyə əsas verir.

Yazılarda Azərbaycan pilotlarının qəhrəmanlıq nümayiş etdirdikləri və daha çox sayda insanın həlak olmasının qarşısını aldıqları, qəza vəziyyəti zamanı təyyarə bələdçilərinin peşəkar və sayıq davrandıqları qeyd olunub.

Eyni zamanda qəza nəticəsində 38 nəfərin öldüyü, dekabrın 26-da Azərbaycanda matəm günü elan olunduğu diqqətə çatdırılıb.

❖ ❖ ❖




"Azərbaycan Hava Yolları"na (AZAL) məxsus təyyarənin pilotları hava gəmisini təhlükəsiz endirmək üçün sona qədər mübarizə aparıblar. Bu fikir Fransanın "La Voix du Nord" portalındakı xəbərdə yer alıb. Xəbərin müəllifləri azərbaycanlı pilotların yüksək peşəkarlıq nümayiş etdirdiklərini bildiriblər.

Məqalədə qeyd olunub ki, AZAL-ın 8432 saylı reysinin uçuş heyəti həqiqi möcüzə göstərərək hava gəmisindəki sərnişinlərin yarısının həyatını xilas edə biliblər. Hidravlik və naviqasiya sistemlərinin sıradan çıxmasına rəğmən, onlar 2 saat ərzində Xəzər dənizindən keçərək təyyarəni Aktauya çatdıra biliblər. Qəzada həyatlarını itirən gəmi komandiri İqor Kşnyakin, pilot Aleksandr Kalyaninov və stüardessa Hökümə Əliyevanın fədakarlıqları sayəsində faciənin miqyasını kiçiltmək mümkün olub.

# Rifah, güc və dirçəliş

## gələn ilin dövlət büdcəsinin əsas istiqamətləridir

**Məlum olduğu kimi, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanunu təsdiq edib. Dövlət büdcəsinin, eləcə də büdcə zərfinə daxil olan məsələlərin müzakirəsi noyabr ayında başlayıb və bu ay uğurla başa çatıb.**

Qarşılamağa hazırlaşdığımız 2025-ci ildə respublikamızın dövlət büdcəsinin gəlirlərinin 38 milyard 356 milyon manat, xərclərinin 41 milyard 407 milyon 600 min manat olacağı müəyyən edilib. Dövlət büdcəsi və büdcə zərfinə daxil olan digər sənədlər ölkənin iqtisadi reallıqlarına və büdcə qanunvericiliyinin tələblərinə cavab verir. Eləcə də ölkəmizin milli təhlükəsizliyinə, iqtisadiyyatın inkişafına, sosial rifaha, Qarabağın və Şərqi Zəngəzurun bərpasına və digər dövlət maraqlarına xidmət edir. 2025-ci ilin büdcəsi dövlətimizin siyasi, iqtisadi və hərbi gücünü nümayiş etdirməklə, növbəti ildə də Prezident İlham Əliyevin qarşıya qoyduğu mühüm və təxirəsalınmaz strateji vəzifələrin yerinə yetirilməsi üçün etibarlı maliyyə təminatı yaradır.

Belə ki, öndə olan məsələlərdən biri ölkəmizin hərbi-müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da möhkəmləndirilməsidir. Sirr deyil ki, Ermənistan tərəfi öz havadarlarının dəstəyi ilə sürətlə silahlanır və yeni revanşist müharibəyə başlamaq istəyir. Ona görə də biz Ermənistanla müqayisədə hərbi üstünlüyümüzü daim qoruyub saxlamalıyıq. Ümumiyyətlə, növbəti ilin büdcəsinə əsasən, Azərbaycanın müdafiə və təhlükəsizlik xərclərinin məbləği 8,4 milyard manat olacaq.

Prezidentimiz dəfələrlə bəyan edib ki, dövlətimizin siyasətinin mərkəzində vətəndaşın maraqları dayanır. Bu, dövlət büdcəsində də öz əksini tapır, həm də ölkə vətəndaşlarının sosial müdafiəsinə və sosial təminatına ayrılan vəsait getdikcə artır. Məsələn, 2025-ci ildə sosialyönümlü xərclər 2024-cü ilə nisbətən 8,8 faiz artacaq və 16,9 milyard manata çatacaq. Bu, dövlət büdcəsi xərclərinin 40 faizindən çoxu deməkdir.

Təqdirəlayiq haldır ki, şəhid ailələrinin, qazilərin və müharibə veteranlarının sosial müdafiəsi davamlı xarakter daşıyır. Onlar daim dövlətin diqqət mərkəzindədirlər. Gələn ilin büdcə zərfinə daxil olan sosial paketin təhlili də bunu bir daha aydın göstərir.

Bir neçə gün əvvəl Prezident İlham Əliyevin "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncam imzalaması vətəndaşın rifahına daha bir dəstəkdir. Sərəncama əsasən, minimum aylıq əməkhaqqının məbləği 2025-ci il yanvarın 1-dən 400 manat müəyyən edilib. Nazirlər Kabinetinə əmək pensiyasının minimum məbləğinin 2025-ci il fevralın 1-dən 320 manata çatdırılmasına dair təkliflərini bir ay müddətində Prezidentə təqdim etmək tapşırılıb. Eyni zamanda hökumət sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini də üç ay müddətində dövlət başçısına təqdim etməlidir. Sərəncamın birinci hissəsi 2025-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

Vurğulayaq ki, son beş ildə ölkədə həyata keçirilmiş dörd sosial paket 7 milyard manat təşkil edib və ümumilikdə 4 milyon vətəndaşı əhatə edib.

Vacib məsələlərdən biri də işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulmasıdır. Hazırda Qarabağda və Şərqi Zəngəzurda böyük quruculuq işləri həyata keçirilir. Şəhərlərin və kəndlərin bərpası sürətlə davam etdirilir. Nəhəng vəsait və qüvvə tələb edən bu işləri Azərbaycan öz imkanları hesabına həyata keçirir. Yaxın üç ildə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Qarabağa və Şərqi Zəngəzura 140 min insanın köçürülməsi planlaşdırılır. Bu fakt ölkəmizin ildən-ilə artan iqtisadi gücünün daha bir əyani göstəricisidir. Hazırda Qarabağda və Şərqi Zəngəzurda ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgələrdə reallaşdırılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə 30 minə yaxın insan yaşayır.

Hədəflər isə daha böyükdür. Gələn il daha neçə yaşayış məntəqəsi yenidən qurularaq öz doğma sakinlərini qəbul edəcək. Buna büdcədə ayrılan vəsaitlər güclü təkan verəcək. Belə ki, gələn il bu məqsəd üçün 4 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulub.

Baş nazir Əli Əsədov dekabrın 16-da Milli Məclisdəki çıxışında diqqətə çatdırıb ki, azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə 2020-ci ildən başlayaraq ümumilikdə 22 milyard manata yaxın, o cümlədən 2025-ci ildə 4 milyard manat vəsait ayrılıb. Böyük qayıdış çərçivəsində bu günədək 2417 ailə - 9306 nəfər azad olunmuş ərazilərə köçürülüb.

Baş nazir digər məsələlərdən də bəhs edərək bildirib ki, ölkə ərazisində qazlaşdırma səviyyəsi 96,6 faizdir (o cümlədən Naxçıvanda 100 faiz). Bu göstəriciyə görə ölkəmiz MDB və digər qonşu ölkələri qabaqlayır. Hazırda 473 məktəbin əsaslı təmirinə ehtiyac var. Bu, ölkədəki bütün məktəblərin 10 faizini təşkil edir. Bunlardan 123 məktəbdə təmir-tikinti işlərinin gələn ildə aparılması nəzərdə tutulub. 2021-ci ildən bu günədək ölkə üzrə 2700 kilometrdən çox avtomobil yolları yenidən qurulub və təmir olunub. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə 45 layihə icra edilir. Dövlət büdcəsində "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan layihələrin maliyyələşdirilməsinə 1,1 milyard manat və investisiya xərclərindən sosial və infrastruktur təyinatlı layihələrə 540 milyon manat vəsait ayrılacaq.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası diqqət mərkəzində saxlanılacaq və 150 milyon manat vəsait nəzərdə tutulub. Eyni zamanda hökumət tərəfindən regionların sosial-iqtisadi inkişafına dair növbəti 5 illik dövlət proqramının hazırlanması planlaşdırılır.

Bir sözlə, ölkənin inkişafı və büdcənin böyüməsi bir-biri ilə sıx bağlı məsələlərdir. Son 21 ildə büdcəmizin həm gəlirləri, həm də xərcləri qat-qat artıb. Bu da ölkənin qarşısında dayanan ən mühüm məsələlərin həllində irəliyə doğru inamla addım atmağa imkan verib.

Heç bir şübhə yoxdur ki, gələn il də qarşımızda dayanan məqsədlərə nail olacağıq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*



# Prezidentin siyasətində əsas hədəf Azərbaycan vətəndaşının sosial rifahıdır

**"Prezident İlham Əliyevin sözləridir: "Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, problemləri, təhlükəsizliyi və başlıcası onun xoşbəxtliyi dayanır". Cənab Prezident vurğulayır ki, Azərbaycan sosial dövlətdir və biz bunu sözdə yox, əməlimizlə həyata keçiririk".**

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Elman Nəsirov deyib. O bildirib ki, ötən 20 ildə dövlət büdcəsindən illik sosial müdafiə və təminatın həcmi 20 dəfədən çox artıb. Təkcə 2018-2023-cü illərdə əməkhaqqı və digər sosial ödənişlərin artırılması məqsədilə 4 sosial islahat paketi icra edilib.

Deputat qeyd edib ki, 4 milyondan çox vətəndaşı əhatə edən yeni sosial paketə 7 milyard manat vəsait ayrılıb. İslahatlar nəticəsində ölkəmizdə minimum pensiya 2,5 dəfə, minimum əməkhaqqı 2,7 dəfə, orta aylıq pensiya 2,1 dəfə, yaşa görə orta aylıq pensiya 2 dəfə, orta aylıq əməkhaqqı 70 faiz, sosial müavinət və təqaüd ödənişləri 5 dəfə artıb. "2018-2023-cü illərdə Prezidentin aylıq təqaüdü ilə təmin olunanların sayı 60 mindən 390 minə gəlib çatıb. Aylıq sosial müavinət alanların sayı isə 385 mindən 432 minə yüksəlib. Bunlar bir daha təsdiqləyir ki, cənab Prezidentin siyasətində əsas hədəf Azərbaycan vətəndaşının sosial rifahının yüksəlməsidir. Eyni



məqsədlə ölkə rəhbərinin bu il dekabrın 23-də əhalinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı imzaladığı növbəti sərəncamla minimum əməkhaqqı 345 manatdan 400 manata yüksəlib, minimum pensiyanın məbləği isə 280 manatdan 320 manata qalxıb. Əməkhaqları ilə bağlı qərar yanvarın 1-dən, pensiya ilə bağlı qərar isə fevralın 1-dən qüvvəyə minəcək", - deyə o əlavə edib.

Siyasətçi bildirib ki, həmçinin müavinətlərin və təqaüdlərin artırılması ilə bağlı Nazirlər Kabinetinə tapşırıq verilib. Üç ay müddətində təkliflər Prezidentə təqdim olunacaq. Sərəncamda eyni zamanda dövlət tərəfindən maliyyələşən sahələrdə çalışan vətəndaşların aylıq vəzifə maaşlarının da artırılması nəzərdə tutulur ki, bu da minimum əməkhaqqının artırılmasına uyğunlaşdırılacaq. Bütün bunlar göstərir ki, dövlətimiz hər zaman vətəndaşların sosial rifahını, sosial məsələlərini ön planda saxlayır. Bu sərəncam da eyni məntiqdən qaynaqlanır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Sosial ədalətə əsaslanan cəmiyyətin qurulması dövlətin əsas prioritetlərindəndir

**"Azərbaycanda əhalinin sosial rifah halının davamlı şəkildə yüksəldilməsi dövlətimizin daim diqqətindədir. Prezidentin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" qarşıdan gələn illərdə sosial-iqtisadi inkişafın təmin olunması məqsədilə ölkə qarşısında həlli vacib olan istiqamətləri özündə əks etdirir. Milli prioritetlər sırasında yer alan vacib istiqamətlərdən biri də məhz dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulmasıdır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Zaur Şükürov deyib. O bildirib ki, davamlı və yüksək iqtisadi artımın dinamik və inklüziv cəmiyyətin formalaşmasına yönəlməsi, hər bir vətəndaşın öz həyatında bu inkişafı hiss etməsi, insanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq, iqtisadi imkanlara çıxışının bərabər və ədalətli olması hökumətin bu sahədə əsas hədəflərindəndir. Bu hədəflərin uğurla reallaşdırılması üçün inkişafdan hər bir vətəndaşın bəhrələnməsi, yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət, habelə paytaxt və regionların tarazlı inkişafı kimi məsələlər xüsusilə diqqətdə saxlanılan məqamlardır. "Bu günədək ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunması üçün qəbul edilmiş çoxsaylı dövlət proqramları nəticəsində ölkə iqtisadiyyatı dinamik inkişaf edərək, əhalinin sosial vəziyyəti xeyli yaxşılaşdırılıb. Əməkhaqları, pensiyalar, təqaüdlər və müavinətlər artırılıb, yoxsulluq səviyyəsi minimuma enib", - deyə siyasətçi əlavə edib.

Deputat qeyd edib ki, Prezidentin 23 dekabr 2024-cü il tarixli "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncamına əsasən, 2025-ci il yanvarın 1-dən minimum əməkhaqqının, 2025-ci il fevralın 1-dən isə əmək pensiyasının minimum məbləğinin artırılması nəzərdə tutulur. Xüsusilə qeyd edilməlidir ki, dövlət büdcəsində sosialyönlü xərclərin ardıcıl artımı hökumətin sosial siyasətinin mühüm nəticəsidir. Belə ki, qeyd olunan xərclər 2021-ci ildəki 10,3 milyard manatdan 2024-cü il üçün 15,5 milyard manata çatıb və 2025-ci ilin büdcəsində 16,9 milyard manat nəzərdə tutulur. Beləliklə, bu istiqamətdə qısa müddət ərzində 6,6 milyard manat və ya 1,6 dəfə artım baş verib. Sosialyönlü xərclərin büdcədəki çəkisinin 41 faiz olması sosial rifahın dövlət siyasətinin prioriteti olduğunu bir daha sübut edir. Sosial islahatların tərkib hissəsi kimi əlilliyi olan şəxslərə yönələn sosial ödənişlərin də davamlı artımı təmin olunur. Buna nümunə olaraq, əlilliyə görə sosial ödənişlərə ayrılan illik vəsaitdə 2018-ci ilə nisbətən 2,1 dəfə və ya 1,3 milyard manat artım baş verib. Həmin vəsait 2018-ci ildə 1,2 milyard manat təşkil edirdisə, hazırda 2,5 milyard manata yaxındır. Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin sayı son 4 ildə təxminən 4 dəfə artırılaraq 34-dən 130-a çatdırılıb.

Z.Şükürov qeyd edib ki, əhalinin məşğulluğunun təminatı Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətində mühüm yer tutur: "Bunun nəticəsi olaraq, ölkədə çoxsaylı yeni iş yeri açılmaqla, aktiv məşğulluq proqramlarının əhatə dairəsi ildən-ilə əhəmiyyətli dərəcədə genişlənir. Təkcə 2018-2024-cü illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 635 min vətəndaş işlə təmin edilib, 36 min şəxs peşə hazırlığına cəlb olunub. Hazırda icra olunan özünüməşğulluq proqramı mühüm sosial-iqtisadi əhəmiyyəti ilə seçilən proqram olmaqla işsiz və işaxtaran şəxslərin kiçik biznesə çıxışına dəstək verir. 2017-ci ildən icra olunan özünüməşğulluq proqramına cəlb olunanların illik sayı ötən dövrdə təqribən 15 dəfə artırılaraq 16 mini ötüb. İndiyədək 93 min şəxs özünüməşğulluq proqramına cəlb edilərək onlara verilmiş aktivlər hesabına kiçik təsərrüfatlarını yaradıblar".

Siyasətçi bildirib ki, tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri və müharibə veteranları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların mənzil və fərdi evlə təminatı işləri də həyata keçirilir. Bu proqram postmüharibə dövründə 5 dəfə genişlənib. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 6,8 minədək, ümumilikdə isə ötən dövrdə 16 minədək mənzil və fərdi ev təqdim edilib. Həmçinin 44 günlük Vətən müharibəsindən sonra müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 567, ümumilikdə isə ötən dövrdə 7,7 min avtomobil təqdim edilib.

Deputat deyib ki, son illər ölkəmizdə aparılan sosial islahatların uğurları mötəbər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir: "Təkcə 2024-cü ildə bu uğurlar 110-dan çox beynəlxalq mükafatla təltif edilib. Hökumətin sosial islahatlar proqramının əsas hədəflərindən biri də dövlət sosial xidmətlərinin innovativ yanaşmalar və müasir texnologiyalar üzərində qurulması, sosial sahədə vətəndaşlar üçün şəffaf, çevik, keyfiyyətli, əlçatan və vətəndaş məmnunluğuna uyğun xidmətlər sisteminin qurulmasıdır".

Z.Şükürov bildirib ki, Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı çərçivəsində ölkədə sosial tərəqqi və sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılması təmin edilib və bu uğurlar qarşıdakı illərdə də davam edəcək.

*Ə.QABİLQIZI,*
*"Azərbaycan"*

# Azərbaycanın nüfuzunu yüksəldən müstəqil siyasət

**Prezident İlham Əliyevin şəxsi əzmi, qətiyyəti, siyasi iradəsi sayəsində Azərbaycan ötən 21 illik zaman kəsiyində böyük inkişaf yolu keçib. Milli maraqları qətiyyətlə təmin edilən ölkəmiz dünyada yüksək nüfuz sahibi olub.**

Bu gün Azərbaycan nəinki Cənubi Qafqazın aparıcı aktoru, həm də beynəlxalq arenada fəal rol oynayan qüdrətli ölkə kimi tanınır. Dövlətimizin balanslaşdırılmış siyasəti, parçalanmış dünyada bütün qütblərlə eyni məsafədə dayanmağı bacarması, qlobal məsələlərin çözümündə həlledici güc mərkəzi rolunu oynaması məhz Prezident İlham Əliyevin məharətli diplomatik siyasətinin nəticələridir.

Regionda və dünyada baş verən geosiyasi prosesləri dərindən təhlil edən İlham Əliyev atdığı praqmatik addımları ilə ölkəmizə ardıcıl tarixi qələbələr qazandırıb.

### Milli hədəfə gedən yol

Ulu Öndər Heydər Əliyevin ən layiqli siyasi davamçısı olan İlham Əliyev ilk dəfə Prezident seçildiyi zaman andiçmə mərasimində Azərbaycan xalqına verdiyi bütün vədləri ötən zamanda ardıcıllıqla və dəqiqliklə yerinə yetirdi.

Qısa zamanda sosial, iqtisadi, hərbi, ümumiyyətlə, bütün sahələrdə hərtərəfli inkişafa nail olan Azərbaycan əsl milli hədəfinə - Qarabağ Zəfərinə də çatdı.

44 günlük Vətən müharibəsində "dəmir yumruğ"u ilə işğalçıları məhv edərək, həm də onlara himayədarlıq edən xarici gücləri yerlərində otuzduran Qalib Lider İlham Əliyev torpaqlarımızın 30 illik işğalına son qoydu. Qarabağ və Şərqi Zəngəzurdan didərgin salınan yüzminlərlə insanı məcburi köçkünlük adından qurtardı.

Vətən müharibəsi bitəndən dərhal sonra işğaldan azad edilən torpaqlarımızda genişmiqyaslı tikinti-quruculuq işlərinə başlanıldı. Çox keçmədən "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Zəngilanın Ağalı kəndinə köç ilə Böyük qayıdışa start verildi.

Bu gün artıq Qarabağ və Şərqi Zəngəzura qayıdan keçmiş məcburi köçkünlərin, ümumiyyətlə isə, bu ərazilərdə yaşayanların sayı 34 mini ötüb.

### Azərbaycan adına qazanılan misilsiz qələbələr

Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət nəticəsində Qarabağda kök salmış separatizm məhv edildi. Xankəndidə bayrağımız dalğalandırılmaqla ölkəmizin suverenliyi tam təmin olundu.

Əlləri xalqımızın qanına bulaşmış erməni hərbi cinayətkarlar qandallanaraq Azərbaycan qanunları ilə mühakimə edilmələri üçün Bakıya gətirildilər.

Öz təbirincə desək, Prezident İlham Əliyevin bir tələbi ilə Qazax rayonunun dörd kəndi də azad edildi. Necə ki, Vətən müharibəsi zamanı kapitulyasiyaya imza atan düşmən Qalib Lider İlham Əliyevin tələbi ilə Ağdamı, Kəlbəcəri, Laçını bir güllə atılmadan, bir itki verilmədən qaytarmışdı, bu siyahıya Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri də əlavə olundu.

Bu kəndlərin azadlığı həm də tarixi torpaqlarımızı qarış-qarış öz sahiblərinə qaytaran xilaskar lider İlham Əliyevin Azərbaycan adına qazandığı misilsiz zəfərlərdən biri oldu.

İkinci Qarabağ müharibəsindən dərhal sonra Bakı İrəvana təkmil sülh modeli təklif edib. Xüsusilə 2024-cü ildə Azərbaycan ilə Ermənistan arasında masa arxasında heç bir vasitəçiyə ehtiyac görülmədən danışıqlar aparılması, delimitisaiya və demarkasiya işlərinə başlanılması regionda davamlı sülh üçün böyük zəmin yaradıb.

### Qlobal dialoq ünvanı

Sülhü, tolerantlığı, multikultural dəyərləri daim təbliğ edən Azərbaycanın sivilizasiyalararası dialoqların unikal ünvanı kimi tanınması da təsadüfi deyil.

Dünyanın bir çox beynəlxalq qurumunda üzv dövlət kimi uğurla təmsil olunan Azərbaycan bəşəri qərarların qəbuluna və icrasına da birbaşa töhfələr verir. Buna dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatının da məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşaması misaldır.

Qeyd edək ki, bu yaxınlarda Azərbaycanın Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı yekdilliklə D-8 təşkilatının üzvü seçilməsi ölkəmizin növbəti diplomatik uğuru oldu.

Yürütdüyü müstəqil və məqsədyönlü siyasət sayəsində ölkəmizi enerji, nəqliyyat qovşağına, sözün əsl mənasında dünyanın mərkəzinə, ümid ünvanına çevirən Prezident İlham Əliyevin səylərinin nəticəsi idi ki, COP29 kimi nüfuzlu tədbirin keçirilməsi də yekdil qərarla Azərbaycana həvalə olunmuşdu.

"Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək", - deyə noyabrın 24-də etdiyi paylaşımda Prezident İlham Əliyev vurğulamışdı ki, COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq.

Bəli, son iki onilliyə nəzər salanda görürük ki, Azərbaycan həm ölkə, həm də dünya miqyaslı xeyli uğurlar, qələbələr əldə edib. Bütün bu tarixi nailiyyətlər, zəfərlər isə heç şübhəsiz, Prezident İlham Əliyevin müstəqil, uzaqgörən və müdrik siyasətinin sayəsində qazanılıb.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR

# Həm də bağlar diyarı Azərbaycan

## Bu, İlham Əliyevin aqrar islahatları sayəsində mümkün olub

**Ərzaq təhlükəsizliyinin olduqca zəruri əhəmiyyət kəsb etdiyi müasir dövr bütün dünyada kənd təsərrüfatının önəmini gündəmə gətirib. Əlverişli coğrafi iqlim xüsusiyyətlərinə malik ölkəmiz bu sahənin inkişafı üçün geniş imkanlara malikdir.**

Azərbaycanda əhalinin 45,5 faizi bölgələrdə yaşadığı üçün bu sahənin genişləndirilməsi həm də insanların məşğulluğunun təmin olunması deməkdir. Bütün bu və digər səbəblərdən dövlətimiz hələ neçə il əvvəl aqrar sektorun inkişafını prioritetlər sırasına daxil edib.

Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra keçmiş SSRİ məkanında ilk dəfə Azərbaycanda torpaq islahatı keçirərək kəndlini öz torpağının, öz taleyinin sahibi etdi. Lakin keçən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlindəki iqtisadi tənəzzül bu sahəyə də elə bir zərbə vurmuşdu ki, vəziyyəti düzəltmək üçün uzunmüddətli və genişmiqyaslı kompleks işlər görmək lazım idi. Çünki pambıqçılıq faktiki olaraq unudulmuş, üzüm plantasiyaları yerlə yeksan edilmiş, kəndli evini isitmək üçün bağındakı meyvə ağaclarını doğrayıb sobada yandırmaq məcburiyyətində qalmışdı.

Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin Azərbaycan kəndini hərtərəfli dirçəltmək üçün başladığı işləri uğurla davam etdirərək onlara yeni vüsət verdi. Bu mənada 2004-cü ildən icrasına başlanan, respublikanın regionlarının sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramları mühüm rol oynadı. 2015-ci il Azərbaycanda "Kənd təsərrüfatı ili" elan olundu. Başlanan işlərin davamlı xarakter daşıması sahənin canlanmasına təkan verdi. Bütün bunlarla yanaşı, aqrar sahənin inkişafı üçün yeni sənədlər imzalandı, yeni qərarlar verildi. Kənd təsərrüfatının müxtəlif sahələri üzrə dövlət proqramları qəbul edildi. Dövlət başçısının unudulmuş aparıcı kənd təsərrüfatı sahələrinin inkişafı ilə bağlı ölkənin ayrı-ayrı rayonlarında keçirdiyi respublika müşavirələri xüsusi rol oynadı.

Əlamətdar haldır ki, bölgələrdə kənd təsərrüfatına məqsədyönlü dəstək tədbirləri öz bəhrəsini verir. Maddi-texniki bazanın gücləndirilməsi, təsərrüfatlarda qabaqcıl təcrübənin, intensiv metodların tətbiqi məhsuldarlığı artırıb və bütövlükdə ölkə üzrə aqrar sektor yeni inkişaf mərhələsinə çıxıb.

Aqrar sektorda gəlirli sahələrdən biri də meyvəçilikdir. Elə buradaca qeyd edək ki, cari il dekabrın 1-nə olan məlumata görə, ölkədə 1 milyon 309,3 min ton meyvə və giləmeyvə toplanıb. Dövlət Statistika Komitəsi bunun keçən ilin eyni dövründəki göstəricidən 4,8 faiz çox olduğunu bildirib.

Onu da xatırladaq ki, Azərbaycanda meyvəçiliyin qədim tarixi var. Aqrar sektorun bu sahəsi demək olar ki, regionlar üzrə ixtisaslaşıb. Mütəxəssislərin qənaətləri belədir ki, tarixi ənənələr və coğrafi iqlim xüsusiyyətləri nəzərə alınmaqla bölgələrimizin hər birində meyvəçiliyi inkişaf etdirmək mümkündür. Tumlu meyvələr üzrə əsasən Quba-Xaçmaz, qərzəkli meyvələr (şabalıd, qoz, fındıq) üzrə Şəki-Zaqatala zonaları, çəyirdəkli (ərik, şaftalı) meyvələr üzrə Naxçıvan MR, quru subtropik meyvələr (nar, heyva) üzrə Kür-Araz yaxınlığı, sitrus meyvələri (naringi, portağal, feyxoa, limon) üzrə Lənkəran-Astara regionu, cənub bitkiləri (əncir, zeytun, püstə, badam və s.) üzrə Abşeron yarımadası ixtisaslaşıb.

Yeni şəraitdə meyvəçilik bir tərəfdən tarixən formalaşan ənənələr əsasında, digər tərəfdən innovativ texnologiyaların, yeni suvarma sis-



temlərinin tətbiqi ilə inkişaf etdirilir. Odur ki, meyvəçiliyin bütün bölgələrdə sürətlə inkişafı müşahidə olunur.

Meyvəçilik sahəsində məhsul artımına, gəlirlərin çoxalmasına, idxaldan asılılığın azaldılmasına və ixrac potensialının yaranmasına ən çox dəstək verən intensiv bağlardır. Sahənin mütəxəssislərinin bildirdiyinə görə, intensiv meyvə bağı dedikdə damcı suvarma sistemi ilə təmin olunmuş, bir hektara müəyyənləşmiş sayda (məsələn, alma, armud, gilas, gavalı, şaftalı, ərik, alça, badam bağlarında minimum 650 ədəd) vegetativ calaqaltı tingin əkildiyi bağlar nəzərdə tutulur. İntensiv bağlarda alma ağaclarının ara məsafəsi bir metrdən az olur. Ağaclara il ərzində müxtəlif aqrotexniki qulluq göstərilir - dərmanlama, gübrələmə, budama işləri görülür. İntensiv bağçılığın əsas üstünlüklərindən biri də meyvə tinginin elə əkilən il məhsula düşməsidir. İllər keçdikcə məhsuldarlıq da yüksəlir. İntensiv bağların becərilməsi ilə yanaşı, yığımı və məhsulun qablaşdırılması da müasir üsullarla həyata keçirilir.

Hələ 2017-ci il sentyabrın 3-də Prezident İlham Əliyev Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində demişdir: "Onu da qeyd etməliyəm və bizim təcrübəmiz göstərir ki, dövlət dəstəyi olmadan kənd təsərrüfatı uğurla inkişaf edə bilməz. Çünki dövlət bütün lazımi tədbirləri görür, vəsait qoyur, infrastruktur yaradır, texnika ilə, gübrələrlə təmin edir, laboratoriyalar təşkil edilir. Bütün ölkə üzrə toxumçuluq, baytarlıq, aqrokimya laboratoriyaları təşkil olunub. Metodik tövsiyələr verilir. Eyni zamanda bu yaxınlarda yaradılmış tədarük-təchizat qurumu da fermerlərə kömək göstərir, məhsulu onlardan alır. Ona görə bu üç ənənəvi sahəyə çox böyük diqqət göstərilir və göstəriləcək. Əminəm ki, müşavirənin nəticəsində biz bu sahələrdə daha da sürətli inkişafı görəcəyik".

Deyilənləri birbaşa meyvəçilik sahəsinə də şamil etmək olar. İndiyədək ölkəmizdə onlarca intensiv bağçılıq təsərrüfatı yaradılıb. Abşeronda, Bakıətrafı qəsəbələrdə zeytun, badam bağları bərpa edilib. Bu ərazilər tarixən zeytun və badam bağları ilə məşhur olub. İndi hər iki istiqamət üzrə ənənələr dirçəldilir.

Yeni fındıq bağları da ölkədə bu məhsulun istehsalını artırıb. Təsadüfi deyil ki, Azərbaycan fındıq istehsalına görə dünyada ön yerlərdən birini tutur. Fındıqçılıq bir çox rayonda inkişaf etdirilir. Lakin Zaqatala, Qax, Balakən, Qəbələ kimi rayonlarda fındıq bağlarının məhsuldarlığı kifayət qədər yüksəkdir. Bu da hər il yetişdirilən məhsulun böyük hissəsinin ixraca yönəldilməsinə imkan verir. İxracdan söz düşmüşkən qeyd edək ki, 2022-ci ildə Azərbaycanın kənd təsərrüfatı və emalı məhsullarının ixrac dəyəri 1,14 milyard dollar olub. Bunun da 39,3 faizini meyvə ixracı təşkil edib.

Göründüyü kimi, son illərdə intensiv meyvə bağlarının salınması üçün əkin subsidiyasının artırılması, habelə bu bağların becərilməsi üçün kənd təsərrüfatı texnika və avadanlıqlarına tətbiq edilən güzəştlər ölkədə meyvə istehsalının və ixracının artmasına səbəb olub. Məsələn, ölkənin ixrac potensialının artırılması və əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2024-cü ildə Mərkəzi Aran və Mil-Muğan iqtisadi rayonlarında intensiv üsulla salınacaq şaftalı, nektarin və ərik bağlarına 4000 manat əkin subsidiyası veriləcək. Bu meyvə bağlarının salınması üçün əkin subsidiyasının ayrılmasında əsas hədəf Mərkəzi Aran və Mil-Muğan iqtisadi rayonlarının iqlim uyğunluğundan istifadə edərək şaftalı, nektarin və ərik meyvələrinin tezyetişən sortlarının istehsalını genişləndirməklə Azərbaycan məhsullarının xarici bazardakı payını daha da artırmaqdır.

İntensiv bağlara respublikanın əksər rayonlarında rast gəlmək mümkündür. Hətta işğaldan azad olunmuş ərazilərimizdə qısa zamanda salınmış meyvə bağları indi bar verməkdədir.

Bu iş Quba-Xaçmaz zonasında geniş vüsət alıb. İntensiv bağlarının sahəsi ildən-ilə genişlənən rayonlardan biri də Masallıdır. Rayon ərazisində əsasən sitrus və giləmeyvə bağlarının, plantasiyaların salınmasına maraq daha böyükdür. İntensiv bağların salınmasına dövlət dəstəyi mexanizminin genişlənməsi, birdəfəlik əkin subsidiyalarının ayrılması, fermerlərin bağların salınmasına çəkdiyi xərclərin bir hissəsinin dövlət tərəfindən subsidiyalaşdırılması Lənkəran-Astara iqtisadi rayonunda, o cümlədən Masallıda həm intensiv bağların sahəsinin artmasına, həm də fermerlərin gəlirlərinin çoxalmasına müsbət təsir göstərir.

Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2025-ci ildən başlayaraq Azərbaycanda ilk dəfə olaraq intensiv qaragilə (mavigilə) bağlarının salınmasına görə dövlət tərəfindən subsidiyalar veriləcək. 2024-cü il sentyabrın 1-dən 2025-ci il mayın 31-dək Şirvan-Salyan, Dağlıq Şirvan, Abşeron-Xızı və Lənkəran-Astara iqtisadi rayonlarında salınmış intensiv qaragilə (mavigilə) bağının hər hektarına görə fermerlərə 15000 manat birdəfəlik əkin subsidiyası verilməsi nəzərdə tutulur.

Azərbaycanda yeni salınan intensiv qoz bağlarının da hər hektarına görə fermerə dövlət dəstəyi veriləcək. Aqrar Subsidiya Şurasının qərarına əsasən, bu il sentyabrın 1-dən gələn il mayın 31-dək ən azı 5 hektar sahədə salınmış, müasir suvarma sistemi ilə təmin olunmuş, hər hektarda 250 sertifikatlı ting əkilmiş intensiv qoz bağlarına görə birdəfəlik əkin subsidiyasının verilməsi nəzərdə tutulur. Qeyd olunan müddətdə salınan intensiv qoz bağlarının hər hektarına görə fermerə 3300 manat əkin subsidiyası ödəniləcək. Birdəfəlik əkin subsidiyasının verilməsində məqsəd intensiv bağlar salınmasına çəkilən xərclərin bir hissəsinin dövlət tərəfindən qarşılanması, intensiv bağların sahəsinin genişləndirilməsidir.

Respublikamızda meyvəçiliyin perspektiv inkişafına hesablanan müxtəlif tədbirlərin həyata keçirilməsi davam edir. Güzəştli kreditlərin verilməsi, aqrolizinq xidmətlərinin göstərilməsi, xarici ölkələrdə ticarət evlərinin yaradılması və digər ixracın təşviqi tədbirləri nəticəsində ölkəmizdə gəlirli sahə olan meyvəçilik bundan sonra daha sürətlə inkişaf edəcək, ixrac imkanları daha da artacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Qubada daha bir yol əsaslı təmir olunub

**Prezidentin sərəncamına uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Quba rayonunun Qırmızı Qəsəbə qəsəbəsini Qusar rayonunun Quxuroba kəndi ilə birləşdirən Qırmızı Qəsəbə-Quxuroba avtomobil yolunun əsaslı şəkildə təmiri yekunlaşıb.**



Uzunluğu 27 kilometr olan avtomobil yolu uzun müddət əsaslı şəkildə təmir olunmadan istifadə edildiyindən və təbii faktorların təsirindən yararsız vəziyyətdə idi. Bu səbəbdən bərpasına ehtiyac yaranan yol 3-cü texniki dərəcəyə uyğun təkmilləşdirilib, yolun hərəkət hissəsinin eni 8 metrə qədər genişləndirilib.

Layihə üzrə torpaq işləri, müxtəlif həcmdə yol yatağının genişləndirilməsi, yeni yol yatağının inşası, yeni asfalt-beton örtüyünün döşənməsi və yolun Qırmızı Qəsəbədən keçən hissəsində zəruri yerlərdə yeni səki daşlarının düzülməsi işləri aparılıb. Yolboyu suların ötürülməsini təmin etmək məqsədilə mövcud dəmir-beton boruların bərpası, zəruri yerlərdə isə müxtəlif diametrli yeni suötürücü boruların tikintisi işləri də icra olunub.

22 min əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Qırmızı Qəsəbə-Quxuroba avtomobil yolunun əsaslı təmiri yolboyu rahat gediş-gəlişi təmin etməklə sözügedən kəndlər arasında nəqliyyat əlaqəsini xeyli yaxşılaşdıracaq.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Araz Vadisi İqtisadi Zonasında 13 sahibkara rezidentlik, 2 sahibkara isə qeyri-rezidentlik statusu verilib

**Xatırladaq ki, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı dövlət başçısının 2021-ci il 4 oktyabr tarixli fərmanı ilə yaradılıb. Sənaye Parkının yaradılmasında məqsəd işğaldan azad edilmiş ərazilərin bərpası, sənaye potensialının inkişaf etdirilməsi, Cəbrayıl və ətraf rayonlara köçürüləcək əhalinin məşğulluğunun təmin olunmasıdır.**



"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnika təmiri məntəqələrinin yaradılması planlaşdırılır. Sənaye Parkı logistik imkanlar baxımından əlverişli ərazidə yerləşir ki, bu da sahibkarların diqqətini cəlb edən əsas məqamlardan biridir.

İqtisadi Zonaların İnkişafı Agentliyinin mətbuat katibi Elçin Kazımov AZƏRTAC-a müsahibəsində bildirib ki, parkda ümumi investisiyalarının həcmi 150 milyon manata yaxındır. 13 sahibkarlıq subyektinə rezidentlik, 2 sahibkara isə qeyri-rezidentlik statusu verilib. 15 sahibkarlıq subyekti tərəfindən Sənaye Parkında ümumilikdə 2000-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Bu günədək Sənaye Parkında görülmüş işlərə rezidentlər tərəfindən 25 milyon manatdan çox investisiya yatırılıb, 100 nəfərlik daimi iş yeri yaradılıb.

Hazırda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında 1 müəssisə tam fəaliyyət göstərir. Müəssisədə kənd təsərrüfatı texnikalarına, ağır yük maşınlarına texniki servis xidməti göstərilir.

Sənaye parkının bir çox rezidentləri tərəfindən layihələndirmə, tikinti-quraşdırma işləri görülür. 6 müəssisənin qurulması istiqamətində tikinti işləri davam etdirilir. Tikintisi gedən müəssisələr beton və quru yapışdırıcı, dekorativ daşların, dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhsulların, yapışqan lentlərin, minatəmizləyən, xüsusi təyinatlı texnika və metal məmulatların istehsalı ilə məşğul olacaq, nəqliyyat vasitələrinə yanacaqdoldurma xidməti göstəriləcək.

Elçin Kazımovun sözlərinə görə, gələn il Sənaye Parkında beton, dekorativ daşların, dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhsulların istehsalı müəssisələrinin fəaliyyətə başlaması planlaşdırılır. Burada sahibkarlıq fəaliyyətinin inkişafı üçün hər cür investisiya imkanları formalaşdırılıb.

"Sənaye zonalarında sahibkarlar dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin edilirlər. Sahibkarlar "Plug and Play" prinsipindən istifadə etməklə sənaye zonalarında öz biznes layihələrini həyata keçirə bilərlər. Hazırda Sənaye Parkında infrastrukturun qurulması istiqamətində işlər görülür, inzibati binanın, yeməkxananın, transformator məntəqələrinin, elektrik yarımstansiyasının, su anbarının, kanalizasiya sisteminin, daxili avtomobil yollarının salınması istiqamətində işlər davam etdirilir. Ərazidə ümumilikdə 12 transformator məntəqəsi, 1 elektrik yarımstansiya inşa ediləcək. Bundan başqa, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunurlar. İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye parklarında tətbiq edilmiş idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində rezidentlər bu günə qədər 500 milyon manatdan çox, cari ilin 11 ayında isə 40 milyon manatdan çox vəsaitə qənaət ediblər", - deyə o diqqətə çatdırıb.

İşğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma (müəyyən edilmiş siyahıya əsasən) aiddir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Masallıda gənclər və idmançılar bir araya gəldilər

**Masallı şəhər Heydər Əliyev Parkında Masallı Rayon İcra Hakimiyyəti, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsi və Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə "31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü"nə həsr olunmuş "Gənclər və idmançıların həmrəylik festivalı" keçirilmişdir.**

Festivalda Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin rəisi Teymur Babazadə və digər rəsmi şəxslər iştirak etmişlər.

Festival iştirakçıları ilk öncə idmançıların nümunəvi çıxışları, Masallı Gənclər Evi SXM-nin, Masallı Dövlət Rəsm Qalereyasının, Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin, Əlil Sahibkarlar İctimai Birliyinin, Masallı Rayon Mərkəzi Kitabxana sisteminin, Regional İnkişafın Dəstəklənməsi İctimai Birliyinin və Masallı 11 illik incəsənət məktəbinin stendlərinə baxış keçirib, digər qurumların hazırladıqları təqdimat stendləri ilə yaxından tanış olublar.



Tədbiri açıq elan edən Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdirildiyini, eyni zamanda 2024-cü il ərzində rayonda 108 idman tədbiri keçirildiyini, tədbirlərdə 7500 nəfərdən çox idmançının iştirak etdiyini bildirib. Sonra Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin rəisi T.Babazadə 2024-cü ilin Azərbaycanın, o cümlədən regionun idmanı üçün uğurlu keçdiyini bildirib və bu münasibətlə idman ictimaiyyətini təbrik edib.

Çıxışlardan sonra tədbir Masallı Uşaq-Gənclər İdman Məktəbinin, Masallı Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin, Masallı PFK-nin idmançılarının nümunəvi çıxışları ilə davam edib. Qonaqlar nümunələri izlədikdən sonra il ərzində yüksək nəticə qazanan idmançılar və məşqçi müəllimlər, eyni zamanda fəallığı ilə seçilən təşəbbüskar gənclər Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin təşəkkürnamələri ilə təltif ediliblər.

Tədbir musiqi proqramı ilə yekunlaşıb.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Azərbaycan idmanının Hicran Şərifov zirvəsi

## Beynəlxalq dərəcəli hakim 25 illik karyerasını yekunlaşdırdı



**Bütün zal ayaqda idi…**
**Hamı onu alqışlayırdı...**
**Hər kəs duyğulanmışdı, kövrək anlar yaşanırdı...**
**O, idman hakimliyi karyerasını başa vururdu...**
**O - Hicran Şərifov ömrünün 25 ilini həsr etdiyi missiyasını onunla görüşə gəlmiş sevənlərinin əhatəsində yekunlaşdırdı...**

### "Şöhrət", "Olimpiya", "Qüsursuz xidmət"...

Hicran Şərifovu Azərbaycan ictimaiyyəti yalnız dünya və milli idman tarixinə şərəfli imzasını atmış həmyerlimiz kimi yox, həm də ictimai xadim, tədqiqatçı alim kimi də tanıyır. Olimpiya kateqoriyalı, beynəlxalq dərəcəli hakim, tanınmış idman ustası ömrünün 26 ilini daxili işlər orqanlarında xidmətə həsr edən zabit və pedaqogika üzrə fəlsəfə doktorudur.

İctimai və idman karyerası dövründə o, dövlətin ali orden və medalları, fəxri adları ilə təltif edilib, beynəlxalq dərəcəli kateqoriyalara sahiblənib: "Şöhrət" ordeni, "Tərəqqi" medalı, "Azərbaycan Prezidentinin Fəxri Diplomu", Milli Olimpiya Komitəsinin "Olimpiya" ordeni, "Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi", "Azərbaycan Respublikasının Əməkdar məşqçisi", Olimpiya kateqoriyalı, beynəlxalq dərəcəli hakim, "Qızıl Fit" mükafatı, "İlin ən yaxşı idman hakimi", DİN-də "Qüsursuz xidmətə görə" hər 3 dərəcəli medal, Müdafiə Nazirliyinin "Vətən müharibəsində Azərbaycan Ordusuna göstərdiyi dəstəyə və qayğıya görə" fəxri fərmanı...

Bütün bu yüksək mükafatlar Hicran Şərifovun tərcümeyi-halına qeyd olunanların heç də tam siyahısı deyil. Əlbəttə ki, bu təltiflər onun Azərbaycan idmanına, daxili işlər orqanlarındakı fəaliyyətinə verdiyi töhfələrin və qüsursuz fəaliyyətinin dəyərli qiymətləndirilməsidir.

İstər idman sahəsində, istərsə də daxili işlər orqanlarında çalışdığı zaman Hicran Şərifov peşəkarlığı, bacarığı ilə diqqət çəkmişdir. 1965-ci ildə Əmircan qəsəbəsində anadan olan H.Şərifov Azərbaycan Neft və Kimya İnstitutunu və Polis Akademiyasını bitirib. 1993-cü ildən 2019-cu ilədək daxili işlər orqanlarında fəaliyyət göstərib, polkovnik-leytenant rütbəsinə qədər yüksəlib.

Azərbaycan Respublikasının Təhsil İnstitutunun Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisasını doktorantura üzrə bitirən Hicran Şərifov hazırda pedaqogika üzrə fəlsəfə doktorudur. Həmçinin Azərbaycan Respublikasının Təhsil İnstitutunda Təhsilin təşkili və idarə olunması üzrə elmlər doktoru təhsilini davam etdirir. Xeyli məqalə və tezislərin müəllifidir.

### Zəhmətlə zəfərə doğru

Hicran Şərifov Milli Olimpiya Komitəsi Nəzarət-Təftiş Komissiyasının, eləcə də Azərbaycan Milli İdman Növləri Assosiasiyası Hakimlər kollegiyasının sədri, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının İdmanın təkmübarizlik növləri kafedrasının baş müəllimidir. "Cəngi" Güləş Klubunun sədri, məşqçi-müəllimdir.

Azərbaycan Milli Olimpiya Komitəsində (MOK) tanınmış güləş hakimi, Əməkdar idman xadimi Hicran Şərifovun 50 illik yubileyinə həsr olunmuş "Zəhmətlə zəfərə doğru" kitabının təqdimat mərasimi də keçirilib.

Hicran Şərifov beynəlxalq dərəcəli hakim kimi "Pekin-2008", "London-2012" və "Rio-2016" Yay Olimpiya Oyunlarında, Surdo (eşitmə və görmə əngəlli idmançıların yarışı) Olimpiya və Hərbçilərin Olimpiya Oyunlarında yarışları idarə edib.






Bu missiyanı yerinə yetirmək Azərbaycanda onun qədər heç kəsə nəsib olmayıb. Ölkəmizdə bu rekord göstərici hələlik Hicran Şərifova məxsusdur. Əlbəttə ki, bütün bunlar ümumilikdə Azərbaycanın idman tarixinə onun verdiyi əvəzsiz töhfələr kimi yazılıb. Xüsusən də "Rio-2016" Yay Olimpiya Oyunlarında "Ən yaxşı hakim" seçilərək "Qızıl Fit" mükafatına layiq görülməsi onun peşəkarlığının ən bariz göstəricisidir. O, Azərbaycanın tanınmış futbol hakimi Tofiq Bəhramovdan sonra "Qızıl Fit" mükafatına layiq görülən ikinci azərbaycanlı hakimdir.

Hicran Şərifov 2015-ci ildə Azərbaycanda keçirilən və ilk dəfə ölkəmiz tərəfindən standartlarının müəyyənləşdirildiyi I Avropa Oyunlarında, 2017-ci ildə ölkəmizin evsahbliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarında beynəlxalq dərəcəli hakim kimi Azərbaycanı təmsil edib. Onun ədalətli hakim kimi tanınması verdiyi düzgün qərarların nəticəsidir.

### Uğurlu missiya

Azərbaycanı beynəlxalq turnirlərdə - Olimpiya Oyunlarında, Avropa və dünya çempionatlarında uğurla təmsil edən Hicran Şərifov dekabr ayında 25 illik idman hakimliyi karyerasını başa çatdırıb.

Olimpiya kateqoriyalı hakimin Bakı İdman Sarayında keçirilən güləş üzrə Azərbaycan çempionatının ilk günündə azarkeşlərin və tələbələrinin alqış sədaları altında hakimliklə vida mərasimində maraqlı anlar yaşanıb. Ədalət təmsilçimiz təəssüratlarını bölüşərkən güləş üzrə hakimlik karyerasında əməyini yüksək qiymətləndirdiklərinə görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib. Sevənləri qarşısında çıxış edən Hicran Şərifovun fikirləri hər kəsi duyğulandırıb: "Hər zaman hakimlik edəndə düşünmüşəm ki, qərəzli ola bilmərəm. Çünki ilk növbədə Azərbaycanı təmsil etmişəm. Hər zaman bu fikirlərlə ədalətli olmağa çalışmışam".

Hazırkı diqqət və qayğıya görə Azərbaycan Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin və Azərbaycan Güləş Federasiyasının rəhbərliyinə minnətdarlığını bildirən Hicran Şərifov hakimlik karyerasını başa vursa da, bundan sonra dövlətə və Azərbaycan güləşinin inkişafına xidmət edəcəyini vurğulayıb: "Mən güləşlə yaşayıram. Bu gün ölkəmizdə rəhbəri olduğum "Cəngi" Güləş Klubu fəaliyyət göstərir. Məşqçi kimi də çalışıram ki, güləş idman növünün inkişafına öz töhfəmi verim. Bu gün həmçinin Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında İdmanın təkmübarizlik idman növləri kafedrasının baş müəllimiyəm. Elmi dərəcəm var. Bir sözlə, bundan sonra da öz bilik və bacarığımı gənc nəslə ötürməyə çalışacağam".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# 100 yaşlı qəzetin 100 yaşlı redaktoru

**Azərbaycanın Əməkdar jurnalisti, "Qırmızı Əmək Bayrağı" ordenli, "Qızıl qələm" mükafatı laureatı Mahmud Mirdaməd oğlu Ağalarovun anadan olmasının 100 illiyi münasibətilə Salyan Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Yüz yaşlı qəzetin 100 yaşlı redaktoru" adlı tədbir keçirilmişdir.**



Salyan Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən tədbirdə RİH-in məsul nümayəndəsi, "Qələbə" qəzetinin kollektivi, veteran qələm sahibləri, yubilyarın doğmaları, rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Tədbirdə Mahmud Ağalarovun, "Qələbə" qəzetinin dünyasını dəyişmiş əməkdaşlarının və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasında şəhid olmuş həmvətənlərimizin ruhu birdəqiqəlik sükutla yad edilmiş, yubilyarın həyat və fəaliyyətini özündə əks etdirən fotoslayd nümayiş etdirilmişdir.

"Qələbə" qəzetinin baş redaktoru Rüstəm Məlikov, Salyan Rayon İcra Hakimiyyəti başçısı aparatının Humanitar və ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Məhərrəm Məmmədov, "Qələbə" qəzetinin sabiq baş redaktoru, Əməkdar müəllim Fərqanə Cəbrayılova, veteran jurnalist Rəhim Hüseynzadə, rayon ictimai ziyalılar birliyinin sədri, Əməkdar müəllim Allahverdi Piriyev, Azərbaycan Yazıçılar Birliyi Muğan bölməsinin sədri Nəbi İbrahimov, Salyan Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Rəfiqə Ağabəyli, "Qələbə" qəzetinin əməkdaşları Leyla Nəsirova, Təyyar Nəsirli, Əzizağa Məmmədli, rayon ziyalıları Vaqif İslamov, Hüseyn Ağayev, şair Zabil Pərviz və Lətif Zərbəliyev Mahmud Ağalarovu gözəl, səmimi, qayğıkeş insan kimi xarakterizə etmiş, onunla bağlı xatirələrindən söz açmışlar. Qeyd edilmişdir ki, mənalı ömrünün 50 ilini jurnalistikaya həsr etmiş Mahmud müəllim mənalı və ibrətamiz bir ömür yaşamışdır.

M.Ağalarov 1924-cü il dekabr ayının 25-də Salyan şəhərində fəhlə ailəsində anadan olmuşdur. O, orta məktəbdə oxuduğu illərdən mətbuata maraq göstərər və ilk qələm təcrübələrini rayonda çap edilən "Sosializm yolu" qəzetinə göndərərdi. 1940-cı ildə 16 yaşlı M.Ağalarovu "Sosializm yolu" qəzetində məsul katib vəzifəsinə işə götürmüşlər. Mahmud Ağalarov 1992-ci ilə kimi - yarım əsrdən çox mətbuat sahəsində çalışmışdır.

1952-ci ildən gənc jurnalist "Kommunist" qəzetinə işə dəvət edilmiş, 1956-cı ildə buradan Bakı Ali Partiya məktəbinin Jurnalistika şöbəsinə oxumağa göndərilmişdir.

1960-cı ildə ali təhsilini başa vuran Mahmud Ağalarov Qazax rayonunun "Qalibiyyət bayrağı", Qubanın "Şəfəq" qəzetlərinin redaktoru olmuşdur. 1965-ci ildən 1992-ci ilə kimi doğma Salyan rayonunda nəşr edilən "Qələbə" qəzetinə rəhbərlik etmişdir.

M.Ağalarov qəzet işini mükəmməl bilən, əməkdaşlarına həssas, isti münasibət göstərən bir rəhbər kimi tanınırdı. Həftədə 3 dəfə, orta hesabla 10 min tirajla çıxan "Qələbə" qəzetində ölkənin, respublikanın, habelə rayonun sosial-iqtisadi, mədəni həyatı çox geniş şəkildə öz əksini tapırdı.

Vaxtilə "Qələbə" qəzetində çalışmış jurnalistlərdən Vaqif Əliyev, Səxavət Qarayev, Alimə Möhsümova, Akif Bayramoğlu, Seyran Cavadov, Ziyafət Babayev, Fərman Əliyev, Əliqismət Lalayev, Qulam Sadiq, Soltan Abbas, Tofiq Kərim, Fəxrəddin Fərzəliyev və başqalarının peşəkar jurnalist kimi fəaliyyətlərində



Mahmud müəllimin xüsusi rolu olmuşdur.

Mahmud müəllim Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə həyata keçirilən möhtəşəm quruculuq və abadlıq işlərinin fəal təbliğatçısı olmuşdur. 1992-ci ildən təqaüdə çıxandan sonra bir müddət rayon Tarix-Diyarşünaslıq Muzeyinə rəhbərlik etmişdir. Lakin redaksiya ilə həmişə müntəzəm əlaqə saxlamışdır. 1999-cu ilin may ayında haqq dünyasına qovuşan M.Ağalarov Azərbaycan jurnalistikasında izi qalan yazarlarımızdandır. Onun əziz xatirəsi rayon ictimaiyyəti arasında həmişə uca tutulmuşdur.

Tədbirdə iştirak edən M.Ağalarovun qızı Bahar xanım atasının xatirəsinə göstərilən hörmət və ehtirama görə tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirmişdir.

***Rüstəm MƏLİKOV,***
***"Qələbə" qəzetinin***
***baş redaktoru***

## Bazar günü etüdü

# Zəfər həmrəyliyi



*Həmrəylik ən çox sevilən, elə sevilə-sevilə də ifadə edilən, yazılan, bir an içində insan qəlbində coşqu və fərəh yaradan sözdür. Dilimizə çox rahat yatan, sevincimizə sevinc qatan bu sözün mayasında, qayəsində, mənasında yaratdığı işıqlı düşüncələrdə mehribanlıq, birlik və dünyaya sığmayacaq qədər sevinc dolu çağırış var.*

*Bəs görəsən üç hecadan ibarət olan həmrəylik nə deməkdir? Bu söz özündə nəyi ifadə edir, insanlara nəyi anlatdırır, nəyi çatdırır? Sualların çox aydın, çox dəqiq cavabı var. Həmrəylik hər şeydən əvvəl həmfikirlik, yekdillik, qarşılıqlı razılıq, sülhə, əmin-amanlığa, dostluğa, mehriban qonşuluğa geniş açılan qapı deməkdir. Ona görə də bu sözü dilə gətirəndə hamımıza, hər birimizə könül xoşluğu, ürək açıqlığı gətirir, Yer üzünün bütün insanlarına sevinc dolu salamlar yetirir.*

*Həmrəylik hara qədəm qoyursa, orada ürək açıqlığı ilə qarşılanır. Təkcə insanlar arasında deyil, elə dövlətlər arasında da dostluq yaradır, onları bir-birinə yaxınlaşdırır, etibarlı körpü salır, sıx əlaqələr qurur. Bir zamanlar soyuq olan münasibətlərə istilik, ılıqlıq gətirir. İllərdən bəri küsülü olanları barışdırır, pislik etmək istəyənləri fikirlərindən daşındırıb yaxşı yola çəkir, müharibələri dayandırır, qan tökülməsinin qarşısını alır, sülh yaradır, mehriban münasibətlər qurur. Dövlətlər və insanlar arasındakı divarları, sədləri uçurur. İnsanlar nə qədər həmrəy olurlarsa, o qədər də mehriban dosta, sirdaşa çevrilirlər, sonra da qardaş olurlar.*

*İnsanlar kimi təbiətdə də həmrəylik, yekdillik və birlik var. Daşlar, qayalar dərələrlə, dağlarla həmrəydir, onlara qısılıblar. Ağaçlar, otlar, güllər, çiçəklər torpağa sığınıblar. Həmrəy olduqlarını dünyaya göstərmək üçün torpağı qucaqlayıb yaşıl dona bürünür, onu istidən, günəşin yandırıcı şüalarından qoruyurlar. Ağacların budaqları da həmrəydir. Bir-birinə sıxılıb möhkəm dayanıblar. Bilirlər ki, həmrəy olmasalar, əsən külək onları qıracaq. Bir-birinə sığınanda güclü olurlar, möhkəm olurlar. Onları sındırmağa, qırmağa küləyin gücü çatmır. Buludlar da bir-biri ilə həmrəydirlər. Həmrəy olmasalar, yağışı yağdıra bilməzlər. Günəş də, Ay da, ulduzlar da həmrəydirlər. Dostcasına əl-ələ verib kainata keşik çəkir, qoruyurlar. İnsanlar da elədir. Bir-birlərinə söykənib həmrəy olanda qüvvətli olurlar, heç kimin, heç nəyin onlara gücü çatmır. Kimsə onların arasına girib mehribançılığını, həmrəyliyini poza bilmir.*

*Həmrəylik ürəyimizə, qəlbimizə Günəş kimi doğur, üzümüzə nur gətirir, Ay kimi işıq saçır, düşüncələrimizi, fikirlərimizi aydınlaşdırır, ruhumuza güc verir, mübarizə əzmimizi artırır, yaddaşımızı itiləyir, getdikcə insanlarla olan əhatə dairəmizi genişləndirir, dostluğa, mehribanlığa cığır açır. Biz də həmrəyliyin qarşımızda geniş açdığı işıqlı yolla inamla addımlaya-addımlaya Yer üzünün bütün insanları ilə dost olmağa, həmrəy olmağa tələsirik.*

*Həmrəylik harada varsa, orada sevinc var, şadlıq var, işıq var, barışıq var, yaraşıq var. Həmrəylik olan yerlərdə könüllər açılır, ürəklərdən sevinc saçılır, gözlərdən, üzlərdən təbəssüm süzülür, problemlər çözülür. Həmrəylik olmayan yerdə isə əksinə, qanqaraçılıq, ölü sükut, gözləri həmişə nəmli və qəmli olan kədər hökm sürür. Bu ölü sükutu, qəlbləri dağlayan, ürəkləri üzən, dodaqları büzən, aralığa çökən bu gözüyaşlı kədəri həmrəylik mehribançılığı, qüdrəti ilə məğlub edir.*

*Elə ölkələr, elə bölgələr var ki, aylardan, illərdən bəridir həmrəyliyin həsrətini çəkir, hərflərindən sülh süzülən bu sözün dilə gətirilməsini istəyirlər. Çünki bu bölgələrdə, bu ölkələrdə uzun müddətdir atəş səsləri kəsilmir, silahlar susmur. Bu torpaqlar, bu bölgələr həmrəyliklə öyünmür, ondan don geyinmir. Amma silahlar nə qədər gurlayırsa-gurlasın, sonda həmrəyliyin önündə aciz qalacaq, ona təslim olacaq. Çünki həmrəylik bütün silahlardan güclü və qüdrətlidir. Yer üzünün sakini olan insanlar həmrəyliyi çox sevir, həsrətlə onun gəlişini gözləyirlər.*

*Azərbaycan xalqı sülhpərvərdir, sülhsevərdir, həm bir-biri ilə, həm də dünya ilə həmrəydir. Xalqımız bir-biri ilə o qədər həmrəy, o qədər mehribandır ki, bunu bayrama çevirib. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi şadyanalıq içində keçirilir. Həmin gün Yer üzünün bütün ölkələrində, bölgələrində yaşayan azərbaycanlılar bu müqəddəs bayramı ürək açıqlığı ilə, sevinc içində qeyd edirlər. Şadlıq içində keçirdikləri bu əziz bayram günlərində bütün dünyaya hayqırıb deyirlər ki, biz həmrəyik, biz güclüyük, biz mübarizik, biz məğlubedilməzik! Dünya bizi eşidir və elə bu cür də tanıyır. Biz tarixin yaddaşında da qəhrəman, igid xalq kimi qalacağıq. Həmişə həmrəy olacağıq, düşmənlər üzərində Zəfər qazanacağıq.*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***





Ədəbiyyat





● Elm və ədəbiyyat xadimlərimiz

# "Mən ədəbiyyat adamıyam, sözdən uzaq düşə bilmərəm"

**Nizaməddin Şəmsəddin oğlu Şəmsizadə 1954-cü il dekabrın 30-da Quba rayonunun İspik kəndində dünyaya göz açıb. Həmin kənddə orta məktəbi əla qiymətlərlə bitirən Nizaməddin Şəmsizadə 1972-1977-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsində təhsil alıb. 1978-ci ildə Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda laborant kimi əmək fəaliyyətinə başlayıb. Həmin il "Azərbaycan" jurnalında dərc olunmuş "Sən kimsən, müasirim?" məqaləsi ilə ədəbi tənqidə gəlib.**



1982-ci ildə "Əli Nazimin ədəbi-tənqidi görüşləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1985-ci ildə 31 yaşında tənqidçi-ədəbiyyatşünas kimi keçmiş SSRİ Yazıçılar İttifaqının üzvü olub. 1990-cı ildə "Azərbaycan Sovet ədəbiyyatşünaslığının təşəkkülü" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1983-cü ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində elmi-pedaqoji fəaliyyətə başlayıb. Bu ali təhsil ocağında "Ədəbiyyat və dillər" kafedrasının müdiri olub.

Nizaməddin Şəmsizadə 2002-ci ildə Tiflisdə Qafqaz Xalqları Akademiyasının həqiqi üzvü seçilib. 2003-cü ildə ona Y.Məmmədəliyev mükafatı verilib. 2010-cu ildə "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" (müştərək) kitabına görə müstəqillik dövrümüzdə ilk Dövlət mükafatı laureatı adına layiq görülüb. 2019-cu ildə isə Azərbaycan Dövlət Universitetinin 100 illiyi ilə əlaqədar Nizaməddin Şəmsizadəyə Əməkdar elm xadimi adı verilib. Bu günə qədər onun bir-birindən maraqlı silsilə bədii, elmi və publisistik əsərləri işıq üzü görüb.

Professor Nizaməddin Şəmsizadə ömrünün 70-ci ilini yaşayır. Bu günlərdə onunla görüşüb söhbət etdik, həm ömür, həm də yaradıcılıq yoluna nəzər saldıq.

## İlk məqalə, ilk uğur

Nizaməddin müəllimin 1978-ci ildə "Azərbaycan" jurnalında dərc olunmuş ilk məqaləsi belə adlanırdı: "Sən kimsən, müasirim?" Söhbətə giriş olaraq onun müasirinin kimlər olduğunu soruşduq. Ötənləri xatırlayan Nizaməddin müəllim dedi ki, bu məqaləni yazanda ali məktəbi təzəcə bitiribmiş: "Bu məqalə yazıçı İsi Məlikzadənin "Küçələrə su səpmişəm" kitabı haqqında idi. İsi Məlikzadə əsərlərində sovet rejimindən narazı qalan müasirlərinin obrazını rəssam dəqiqliyi ilə çəkmişdi. Fağır, sakit Qaçay obrazı yəqin ki, oxuculara yaxşı tanışdır. Filologiyanı bitirsəm də, bir zamanlar filosof olmaq istəyirdim. Bu məqaləmə də filosofsayağı yanaşanda hiss etdim ki, Mehdi Hüseynin "Yeraltı sular dənizə axır" romanındakı kimi, İsi Məlikzadə də əsərlərində rejimdən narazı olan adamların obrazını yaradıb. Yazıçı obrazları elə məharətlə yaratmışdı ki, ilk baxışda bunları duymaq mümkün deyildi. Bunu duymaq üçün gərək, necə deyərlər, yerin altına baş vurub suyun hansı istiqamətə axdığını görəydin. İsi Məlikzadə rejimə olan narazılığını bu formada ifadə etmişdi. Obrazlar vasitəsilə insanların sovet rejimindən narazı qaldığını açıb göstərmişdi. Yazıçının əsərlərini təhlilə çəkən məqaləmin adını "Sən kimsən, müasirim?" qoymuşdum. Bu başlığı ona görə belə seçmişdim ki, qoy müasirlərim kim olduqlarını İsi Məlikzadənin əsərlərinə baxıb görsünlər".

Professor Nizaməddin Şəmsizadənin namizədlik dissertasiyasının mövzusu "Əli Nazimin ədəbi-tənqidi görüşləri" olub. Əli Nazimin ədəbiyyatımızdakı yerini, missiyasını soruşanda Nizaməddin müəllim dedi: "Dördüncü kursda oxuyanda bizi çağırıb diplom mövzusu verdilər. Seçim üçün siyahı da qoymuşdular. Siyahıya nəzər yetirəndə dedim ki, mənim özümün mövzum var. Soruşanda ki, hansı mövzudur, dedim ki, Əli Nazimin əbədi-tənqidi görüşləri. Bir az narahat olub bildirdilər ki, Əli Nazim 37-nin repressiya qurbanı olub. İsrar edib söylədim ki, yox, onu 37-də güllələməyib, səkkiz il iş kəsiblər. 1941-ci ildə alman faşistləri keçmiş sovet ölkəsinə hücum edəndə Əli Nazim Rusiyanın Oryol şəhərindəki həbsxanada yatırmış. Dustaqlar alman faşistlərinə qarşı döyüşmək istədiklərini bildiriblər. Dönə-dönə bu barədə rəhbərlikdən xahiş ediblər. Amma bu günahsız insanların xahişini yerinə yetirib döyüşə buraxmaq əvəzinə onları diri-diri yandırıblar. Axır ki, seçdiyim diplom mövzusuna razılıq aldım. Qısa müddət ərzində 125 səhifəlik diplom işi yazıb müdafiə etdim. Hansı ki, diplom işləri adətən 40-50 səhifə yazılırdı".

"Sonra bu mövzuda tədqiqat işləri apararaq 1978-ci ildə 200 səhifəlik dissertasiya yazdım. Amma məndən asılı olmayan səbəblərdən həmin il müdafiəm alınmadı. Namizədliyimi yazandan dörd il sonra - 1982-ci ildə müdafiə etdim. Yeri gəlmişkən deyim ki, Əli Nazim 1920-1930-cu illərin ən dəyərli, ən məşhur tədqiqatçılarından biri olmuşdu. Ədəbiyyatımızın mənşəyi məsələsini izah edən tənqidçi haqlı olaraq yazırdı ki, ədəbiyyatımız Orxan-Yenisey abidələrindən başlayır. Çünki bu abidələr yaranında artıq türklər şəhərli olmağa başlamışdılar. Əgər türklər şəhərlidirlərsə, deməli, artıq xeyli inkişaf etmişdilər. Əli Nazimin izi ilə gedib 1920-1930-cu illərin ədəbiyyatını, ədəbi prosesləri dərindən öyrəndim. Əli Nazim bu epoxanın ən məşhur tənqidçilərindən biri idi".

Professor Nizaməddin Şəmsizadə uzun illər Azərbaycan Dövlət və İncəsənət Universitetində müəllim işləyib. Bu müqəddəs peşəyə sahiblənməyin necə bir hiss olduğunu Nizaməddin müəllimdən soruşanda dedi ki, universitetə onu hörmətli Pənah Xəlilov çağırmışdı: "Onda mənim 28 yaşım var idi, namizədliyimi yenicə müdafiə etmişdim. İlk mühazirəm ikinci kursda oxuyan tələbələrə oldu. Mövzu da rus ədəbiyyatından idi. 1920-1930-cu illəri yaxşı öyrəndiyimə görə o dövrdən danışdım. İlk dərsim olduğuna görə bir az həyəcanlı idim. Mühazirə zamanı qızlardan biri əlini qaldırıb dedi ki, müəllim, sual vermək olarmı? Dedim ki, bəli. Tələbə soruşdu ki, Moskva universitetlərində Azərbaycan ədəbiyyatı tədris olunurmu? Dedim ki, yox. Ondan sonra tələbə soruşdu ki, bəs nə üçün biz rus ədəbiyyatını öyrənirik? Tələbənin verdiyi sualı ətraflı izah etdim, cavabımdan hamı razı qaldı. 40 ilə qədər ali məktəblərdə müəllim işləmişəm. Müəllimlik gözəl hissdir, yaşadığım həyatın ən mənalı illəridir".

## Müəllim adı, müəllim şərəfi

Söhbətimiz zamanı Nizaməddin müəllim mətbuatla olan əlaqələrindən də söz açdı. Dedi ki, "Azərbaycan müəllimi" qəzeti ilə sıx əməkdaşlıq edib. O vaxtlar bu mətbu orqanda "Taleyimdə müəllim" rubrikasında yazılar çap olunurdu: "Mən də bu mövzuda tez-tez məqalələr yazırdım. Bir dəfə də Xaltan kənd orta məktəbinin direktoru Şöyübov mənim haqqımda qəzetə məqalə yazmışdı. Çox yaxşı yazı idi, bizi xeyli həyəcanlandırdı. Müəllimlik məni natiq kimi cilaladı, sanki gələcək həyata hazırladı. Nitqimi xeyli inkişaf etdirdi. Akademiyada Məmməd Cəfərin 100 illiyi keçirilirdi. Rəhmətlik akademik Bəkir Nəbiyev məruzə etməyi mənə tapşırmışdı. Bir saat ərzində vərəqə baxmadan Məmməd Cəfərin yaradıcılığından danışdım. İqtisadiyyat İnstitutunun direktoru Şahbazov Akademiyanın prezidenti Mahmud müəllimə dedi ki, akademiyaya, bax, belə istedadları seçmək lazımdır".

Nizaməddin müəllim 2002-ci ildə Y.Məmmədəliyev mükafatına və qızıl medala layiq görülüb. Həmin xoş günləri xatırlayan professor dedi ki, yazıb-yaratdığına görə mükafat almaq gözəl hissdir: "Mükafat alanda çox sevinirdim. Bilirsiniz də, sovet dövründə Hacı Zeynalabdin Tağıyev haqqında yazmaq, danışmaq qadağan olunmuşdu. Buna səbəb isə onun Leninin əsərlərində adının çəkilməsinin tənqid edilməsi idi. Nəsə bu məsələ məni çox düşündürürdü. Məsələyə aydınlıq gətirmək üçün M.F.Axundzadə adına kitabxanaya gedib Leninin əsərlərinin tərtibçisi ilə görüşdüm. Xeyli axtarış aparandan sonra həmin cildi tapdım. Oxuyanda məlum oldu ki, Lenin Zeynalabdin Tağıyevi tənqid etməyib. Əksinə, ona şər, böhtan atdığı üçün milyonçunun bir nəfəri haqlı olaraq cəzalandırdığına görə Tağıyevin müdafiəsində dayanan vəkili tənqid edib. Yəni burada söhbət Zeynalabdin Tağıyevdən getmir. Bütün bu faktları "Dalğa" verilişində danışdım. Y.Məmmədəliyev mükafatı mənə Azərbaycan Televiziyasının ovaxtkı sədri Elşad Quliyevin təşəbbüsü və təklifi ilə verildi. Rəhmətlik Elşad müəllim məni televiziyaya dəvət etdi. Dedi ki, siz savadlı adamsınız, natiqsiniz, bu mükafata layiqsiniz".

## Ulu Öndər Heydər Əliyev haqqında dəyərli kitab və layiqli mükafat

Professor Nizaməddin Şəmsizadə 2010-cu ildə "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kitabına görə müstəqil Azərbaycanın ilk Dövlət mükafatı laureatı adını alıb. Həmin günlərdən söz açan Nizaməddin müəllim dedi: Böyük oxucu sevgisi qazanan bu kitab müştərək yazılmışdı. Akademik Bəkir Nəbiyev mənə tapşırdı ki, Ulu Öndər haqqında "Heydər Əliyev və azərbaycançılıq" adlı məqalə yazım. Sənin televiziyada bu mövzuda çıxışların çox olub. Bilirəm ki, sən bunu hamıdan yaxşı bacararsan. Mövzu mənə doğma olduğuna görə qısa müddət ərzində 30 səhifədən ibarət məqalə yazdım. Həmin məqaləni Ulu Öndər Heydər Əliyev haqqında yazılmış kitabda verdilər. Bəkir müəllimin xeyirxahlığı sayəsində bu kitabda dərc olunmuş məqaləmə görə mənə Dövlət mükafatı verildi. Mükafatı 2010-cu ildə Azərbaycan Prezidenti İlham Əliyev "Buta" sarayında təqdim etdi".

Nizaməddin müəllim həm elmi, həm də bədii əsərlər yazır. Bədii əsərlərini tənqidçi, yoxsa yazıçı kimi yazdığını soruşanda professor dedi ki, çox maraqlı sualdır: "Onu da deyim ki, mən bədii əsərlərlə yanaşı, şeir də yazıram. Yaradıcı insan kimi mənə elə gəlir ki, şeir özü bir dünyadır. Çap olunmuş şeir kitabıma "Of lirika" başlıqlı müqəddimə də yazmışam. Həmin müqəddimədə yaradıcılıq barədə fikirlərimə ətraflı yer ayırmışam. Düşünürəm ki, təndiqi əsər yazmaq bədii əsər yazmaqdan çətindir".

Professorun qələmindən çıxan dəyərli əsərlərindən biri də "Tənqidin ədəbi prosesdə rolu" adlanır. Tənqidin ədəbi prosesdə rolunun nədən ibarət olduğunu soruşanda Nizaməddin müəllim söylədi: "Məşhur tənqidçimiz Seyid Hüseyn yazırdı ki, tənqidsiz ədəbiyyat ormanlarda bitmiş yabanı ot kimidir. Ona görə də ədəbiyyat tənqidsiz ədəbiyyat deyil. Əgər belə demək mümkünsə, tənqid ədəbiyyatın yiyəsidir. Bilirsinizmi, yazıçı tənqidin sayəsində məşhurlaşıb tanınır. Tənqid haqqında zaman-zaman müxtəlif fikirlər söyləyiblər. Çox nümunələr gətirmək olar. Məsələn, fransız yazıçısı və nəzəriyyəçisi Jül Renar tənqidçini öz rotasına atəş açan əsgərə bənzədirdi".

## Kitablar, əsərlər sevgi ilə yazılmalıdır

Nizaməddin müəllimin indiyə qədər 40 kitabı işıq üzü görüb. Onlardan 25 monoqrafiya, qalanları isə elmi, bədii və publisistik əsərlərdir. Professordan onların hansının ona əziz olduğunu soruşduq: "Bu çətin sualdır. Qısaca olaraq deyim ki, kitablarımın hamısı mənim üçün doğmadır. Hamısı beynimin məhsuludur. Övladların hansı valideyn üçün əziz deyil ki? Ən zəif kitabım belə mənim üçün əzizdir. Görkəmli dramaturqumuz Cəfər Cabbarlıya bir gün sual verirlər ki, hansı əsərini daha çox sevirsən? Deyib ki, "Dönüş"ü. Deyiblər ki, axı o sənin ən zəif əsərindir. Cavab verib ki, valideyn həmişə daha çox şikəst uşağını əzizləyir. Mən də ən çox şikəst və zəif əsərimi çox istəyirəm".

Söhbətimiz zamanı Nizaməddin müəllimə belə bir sual da verdik: "Artıq beşinci ildir ki, İkinci Qarabağ müharibəsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Zəfərlə başa çatıb. Siz ədəbiyyat adamısınız, sözün yükünü daşıyanlardansınız. Sizə elə gəlmirmi ki, aradan bu qədər vaxt keçməsinə baxmayaraq, ədəbiyyatımızda qəhrəman Azərbaycan əsgərinin obrazı olduğu kimi işıqlandırılmır?" Sualımızı diqqətlə dinləyən professor dedi ki, tamamilə doğru deyirsiniz. Bu məsələ ədəbiyyatçı, tənqidçi kimi onu da narahat edir: "İnsafsızlıq edib demək olmaz ki, indiyə qədər Qarabağ müharibəsi haqqında əsərlər yazılmayıb. Yazılıb. Yazıçı Fazil Güney Qarabağ müharibəsindən bəhs edən "Qara qan" tarixi romanını araya-ərsəyə gətirib. Müəllif bu əsəri üzərində 30 ilə yaxın çalışıb. Həmin roman haqqında iki məqalə yazmışam. Bədii səviyyəsi məni qane eləməsə də, hadisələrin düzümünü, ardıcıllığını, müəllifin məntiqini çox bəyəndim. Bu əsər özündə Birinci, həm də İkinci Qarabağ müharibələrini birləşdirir, ermənilərin başımıza gətirdiyi faciələri açıb dünyaya göstərir. Demirəm ki, zəfərimiz haqqında döyüş gedə-gedə yazıçılar nəsə sanballı bir əsər yazsın. Bu, mümkün olan bir iş deyil. Düzdür, indiyə qədər müəyyən əsərlər yazılıb. Amma təəssüflər olsun ki, bu əsərlər zəifdir. Azərbaycan əsgərinin qəhrəmanlığını, igidliyini özündə tam əks etdirmir. Əslində, xalqın taleyində, tarixində mühüm rol oynayan zəfərlər haqqında xeyli sonralar yazılır. 1941-1945-ci illərdə alman faşizminə qarşı müharibədə sovet əsgərlərinin qəhrəmanlığı haqqında o dövrün yazıçılarının ən yaxşı əsərləri 1960-cı illərdə görünməyə başladı. Deməli, Qarabağ müharibəsində qazanılmış tarixi zəfərdən yaxşı əsərlərin yazılmasının zamana ehtiyacı var. Amma gərək yazıçılar da çox oturub gözləməsinlər, uğurlu addımlar atsınlar. İnanıram ki, yaxın zamanlarda dəyərli əsərlər yazılacaq və qəhrəman Azərbaycan əsgərinin obrazı burada bədii əksini parlaq şəkildə tapacaq".

Artıq ömrün 70-i özünü yetirib, xəstəlik də bir tərəfdən qapının ağzını kəsdirib. Amma buna baxmayaraq, Nizaməddin müəllim yenə də yaradıcılıqdan qalmır, tənqidi məqalələrlə mətbuatda çıxış edir. Professora "yazıb-yaratmaqdan yorulmamızınız ki" sualını da verdik. O dedi ki, "mən ədəbiyyatın, sözün içində böyümüş adamam. Ona görə də ədəbiyyatdan, sözdən uzaq düşə bilmərəm. Yaşımdan, xəstəliyimdən asılı olmayaraq, yenə də böyük şövqlə yazıb-yaradıram. Cavanlığımdan iradəli və inadkar olmuşam. Hələ də bu inadımdan əl çəkməmişəm. Xəstə olmağıma baxmayaraq, bu illər ərzində 6 kitab yazmışam. Kitablar, əsərlər gərək sevgi ilə yazılsın. Mən əsərlərimi sevgi ilə yazıram".

## Qızı Fidan professorun yaradıcılıq yolunu davam etdirir

Övladlarından yolunu davam etdirənlərin olub-olmadığını soruşanda Nizaməddin müəllim dedi ki, qızı Fidan Abdurəhmanova yolunu davam etdirir. Onun maraqlı hekayələri var: "Yazdıqlarını oxuyuram, həm ata kimi, həm də tənqidçi kimi fikrimi bildirirəm. Elə bilirəm ki, qızım gələcək yaradıcılıq yollarında böyük uğurlar qazanacaq. Fidan daha çox uşaq hekayələri yazır. "Uşağın duası", "Xəyal gəmisi" kitabları işıq üzü görüb. Bundan başqa, "Lirikada psixologizm" adlı elmi əsər də yazıb". Onu da öyrəndik ki, Nizaməddin müəllimin həyat yoldaşı Qızqayıt Süleymanova da elm adamıdır, filologiya üzrə fəlsəfə doktorudur.

Nizaməddin müəllim zaman-zaman yaradıcı adamlar arasında aparılan ədəbi söhbətlərdən də söz açdı. Dedi ki, nə qədər ədəbiyyat varsa, ədəbi söhbətlər də atalar və oğulların dialoqu kimi heç vaxt bitməyəcək. Əslində, nəsillərin sağlam dialoqu yaxşıdır. O cəmiyyətdə ki oğullar atalara əxlaq məsələsində yox, tarix mənasında qarşı çıxırsa, orada tərəqqi və irəliləyiş var. Ədəbi söhbətlər də elədir. Dialoq, müzakirə varsa, ədəbiyyat da həmişə inkişafda olacaq.

Hörmətli professor söhbət zamanı ədəbiyyatın necə bir yol olduğuna da aydınlıq gətirdi. Dedi ki, ədəbiyyatın yolu əslində, incə, zərif, həm də çətin yoldur. Ədəbiyyatın yolu məhəbbət kimidir, sevgi kimidir. Sevgi hər gün bayram deyil ki... Bunun əzab və iztirabları da var. Sevgiyə qovuşmaq üçün əzab çəkməlisən, bu yolda qarşılaşdığın çətinliklərə dözməlisən. Əslində, sevmək əzab çəkmək deməkdir. Əgər əzabı qəbul edə bilirsənsə, sev, bu yolla get. Yox, əzabı, qəbul edə bilmirsənsə, onda özünə başqa yol seç. Ağrıları, əzabları yaşamalı, sonra yazmalısan. Belə əsərlər həmişə maraqla oxunur.

Nizaməddin müəllim indiyə qədər neçə-neçə bədii əsər, hekayə, esse yazıb. Yalnız dram əsəri yazmaqda qələmini sınamayıb. Dram əsərləri yazıb-yazmadığını soruşanda professor dedi ki, buna da cəhd göstərib. "Türkmənçay" adlı pyes yazmağa başlamışdım. Bir pərdəsini də bitirmişdim. Amma xəstələndiyimə görə əsər yarımçıq qaldı. Nədənsə dram əsərləri məndən qaçır".

Söhbət zamanı Nizaməddin müəllim noyabr ayında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından da söz açdı. Dedi ki, COP29-un davam etdiyi günlərdə ekranın qarşısından çəkilməyib. Çünki bu mötəbər tədbirdə dünyamızı, cəmiyyətimizi narahat edən bir çox mühüm məsələ müzakirə olunurdu: "Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə COP29 əvvəlki tədbirlərindən yüksək səviyyədə keçirildi. Həmin günlərdə dünyanın ürəyi ölkəmizin paytaxtı Bakı şəhərində döyünürdü. Dünyanın gözü Azərbaycana dikilmişdi. Hazırda planetimiz iqlim problemi ilə üz-üzədir. İqlim getdikcə dəyişir, hava istiləşir, buzlaqlar əriyir, Xəzərin suyu çəkilir. İnanıram ki, ölkəmizdə keçirilən COP29-da qəbul olunmuş qərarlar zaman-zaman təbiətə vurulmuş ağrıları sağaldacaq. Biz təbiətlə bərabər, cəmiyyətin də ekologiyasını qorumalıyıq".

## "Prezident İlham Əliyev xalqını çox sevən dövlət başçısıdır"

Sözünə davam edən Nizaməddin müəllim bildirdi ki, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında erməni işğalçıları üzərində böyük Zəfər qazandıq. İşğala son qoyuldu, torpaqlarımız düşməndən azad olundu. İlham Əliyev çox sevilən dövlət başçısıdır. Prezidentimiz daim xalqın yanındadır. İndiyə qədər heç bir dövlət başçısı İlham Əliyev qədər uğurlu diplomatiyası ilə dünyaya meydan oxumayıb. Prezidentimiz İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə neçə-neçə xarici mətbuat orqanlarına müsahibələr verdi. Bu tarixi müsahibələrində ölkəmizə atılan bütün iftira və yalanları ifşa etdi.

Nizaməddin müəllim söhbətinin sonunda dedi ki, bu gün işğaldan azad olunmuş ərazilərdə çox möhtəşəm quruculuq işləri aparılır. Qarabağ yenidən qurulur, yenidən tikilir. Aparılan bu quruculuq işləri mətbuatda geniş işıqlandırılır. Uzun müddət köçkünlük həyatı yaşayan insanlar böyük sevinc içində doğma ocaqlarına qayıdırlar. Professor inanır ki, bu gün şahidi olduğumuz tarixi hadisələr gələcəkdə ədəbiyyatımızda da bədii əksini tapacaqdır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# "Nizamişünaslıq" elmi əsərlər jurnalının növbəti nömrəsi nəşr edilib

**AMEA Gəncə bölməsinin Nizami Gəncəvi Mərkəzinin "Nizamişünaslıq" elmi əsərlər jurnalının 11-ci nömrəsi çapdan çıxıb. AMEA-dan bildirilib ki, jurnalda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin həyatı və yaradıcılığı, əsərlərinin tədqiqi tarixi, tədqiqatçıları, mövzu və ideyası, "Xəmsə"də jestlərin semiotikası, Şərq poeziyasındakı mövqeyi, təsir dairəsi, əlyazmalarının tarixi kimi mühüm mövzuları əhatə edən məqalələr yer alıb.**




"Nizamişünaslıq" elmi əsərlər jurnalı ildə iki dəfə çap olunmaqla Azərbaycan, ingilis, rus və digər dillərdə məqalə qəbul edir.

Jurnalın nüsxələri müvafiq kitabxanalara paylanılmaqla, elektron variantı da ayrıca olaraq internet saytına yerləşdirilir. Jurnal Beynəlxalq Standart Seriya Nömrəsi (ISSN), Rəqəmsal Obyekt İdentifikatoru (DOI) standartları ilə nəşr olunmaqla yanaşı, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının filologiya elmləri üzrə tövsiyə olunan dövri elmi nəşrlər siyahısına da daxildir.

"Nizamişünaslıq" elmi əsərlər jurnalı ilə tanış olmaq və onu əldə etmək istəyənlər jurnalın saytına daxil ola bilərlər.

Jurnalda məqalələrin nəşrinə qoyulan tələblər hər bir sayın son səhifəsində üç dildə yerləşdirilib və məqalə göndərmək üçün nizamicenter1141@gmail.com elektron poçtu qeyd edilib.

# Ankarada görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının irsi müzakirə olunub

**Ankarada Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibliyinin binasında görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının anadan olmasının 125-ci ildönümünə həsr edilmiş tədbir keçirilib.**






Tədbir çərçivəsində yazıçının seçilmiş əsərlərinin təqdimatı olub. Tədbir iştirakçıları "Azərbaycan Hava Yolları"nın təyyarəsinin Aktau yaxınlığında qəzaya uğraması nəticəsində həlak olanların xatirəsini birdəqiqəlik sükutla ehtiramla yad ediblər.

Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı qeyd edib ki, Cəfər Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatının rəmzi simalarından biridir. Onun sözlərinə görə, Azərbaycan teatr sənətinin və kinosunun inkişafında təkan dramaturqun adı ilə bağlıdır.

"TÜRKSOY Cəfər Cabbarlı irsinin təbliğinə töhfə verməyə çalışır. Dramaturqun türkcə əsərlər toplusu Azərbaycanın görkəmli ziyalılarının yaradıcılığı ilə bağlı Türkiyənin geniş ictimaiyyətini məlumatlandırmaq məqsədi daşıyır", - deyə E.Qafarlı qeyd edib.

Ölkəmizin Ankaradakı səfirliyi nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Samir Abbasov görkəmli dramaturqun seçilmiş əsərlərindən ibarət toplunun hazırlanmasında TÜRKSOY-un rəhbərliyinə və layihənin bütün iştirakçılarına minnətdarlığını bildirib.

"Cəfər Cabbarlının yaradıcılığı Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə kimi görkəmli yazıçı, şair və maarifçilərin irsi ilə bir sırada yer alıb. Azərbaycan klassik dramaturgiyasının inciləri sayılan əsərlər onun qələmindən çıxıb" deyən S.Abbasov Cəfər Cabbarlının əsərlərini əbədi irs, Azərbaycan yazıçılarının yeni nəsilləri üçün bələdçi adlandırıb.

Daha sonra Cəfər Cabbarlının irsi mövzusunda sənədli film nümayiş etdirilib.

Professor İsrafil İsrafilov isə cəmi 35 il ömür sürmüş, bütün türk dünyası ədəbiyyatında parlaq, təkrarsız iz buraxmağı bacarmış Cəfər Cabbarlının bənzərsiz şəxsiyyətindən söz açıb. "Söhbət hərtərəfli şəxsiyyətdən - təkcə yazıçı və dramaturq deyil, həm də istedadlı şairdən gedir. Onun poetik yaradıcılığını dərk etmək üçün "Ana" şeirinin gözəlliyini, eləcə də Azərbaycanın üçrəngli bayrağına həsr olunmuş sətirləri təhlil etmək kifayətdir. O, yaradıcılığı ilə şübhəsiz ki, Azərbaycan dilini zənginləşdirib", - deyə professor qeyd edib.

Cəfər Cabbarlının dramatik irsinin Azərbaycanda bütöv bir aktyor pleyadasını formalaşdırdığı da vurğulanıb.




# Eşitmə probleminin innovativ həlli

**Eşitmə probleminin və digər daxili qulaq xəstəliklərinin müalicəsi üçün 3D çap texnologiyası ilə innovativ mikroiynə hazırlanıb. Onun hazırlanmasına təxminən 10 il vaxt lazım olub.**



Kolumbiya Universitetinin qulaq-burun-boğaz cərrahı Dr. Anil Lalvani və maşın mühəndisi Cefri Kisar tərəfindən hazırlanmış bu innovativ cihaz qulağın daxili həssas bölgələrinə çatmaq üçün müstəsna həll təqdim edir. Mikroiynə texnologiyası xüsusilə ilbiz adlanan spiral formalı daxili qulaq quruluşunda yerləşən, eşitməyə cavabdeh olan hüceyrələrə zərər vermədən müalicəni həyata keçirməyi hədəfləyir.

Cəmi 2 millimetr enində olan ilbiz zədələndiyi halda daimi eşitmə itkisinə və tarazlıq problemlərinə səbəb ola biləcək zərif bir membranla örtülüdür. Ənənəvi cərrahi alətlərin bu membrana zərər vurma riski yeni müalicələrin tətbiqini çətinləşdirirdi. Yeni mikroiynə təkcə müalicə təqdim etməklə qalmır, həm də ilbizdən maye nümunələri götürərək padalekmiksiya xəstəliyi kimi problemlərin daha yaxşı anlaşılmasını və müalicəsini asanlaşdırır.

İlbiz membranının incəliklərini başa düşmək və uyğun həll yolu hazırlamaq üçün qabaqcıl istehsal texnikalarından istifadə edilib. Hazırlanan mikroiynə membran üzərində yalnız öz qalınlığı qədər kiçik bir dəlik açır və bu dəlik 48 saat ərzində öz-özünə sağalır. Heyvanlar üzərində aparılan sınaqlarda cihazın eşitmə itkisinə və ya başqa mənfi təsirlərə səbəb olmadığı müşahidə edilib.



## "Xiaomi"dən superkompüter

**"Xiaomi" məhsullarında süni zəka texnologiyalarından aktiv şəkildə istifadə edir. Şirkət süni zəka sahəsindəki tədqiqatlarına hələ 2016-cı ildə start verib və həmin müddətdən bu istiqamətdəki mütəxəssislərinin sayı 6 dəfə artıb.**

"Xiaomi" hazırda 10 min qrafik prosessordan təşkil edilmiş superkompüter üzərində işləyir. Bu ilin əvvəlində şirkət böyük dil modellərinin və neyron şəbəkələrinin təlimatlandırılması üçün nəzərdə tutulmuş 6500 ədəd qrafik prosessora sahib olub. Məlumata əsasən, superkompüter layihəsinə "Xiaomi"nin icraedici direktoru Lei Jun özü rəhbərlik edir.

Böyük dil modellərinin yaradılması mövzusunda 10 min qrafik prosessordan təşkil edilmiş sistemlər artıq Çin şirkətləri üçün standart hesab olunur. Bu cür hesablama gücü sayəsində şirkətin süni zəka sahəsində aparıcı həllər yaradacağı gözlənilir.

## İflic insanlar üçün geyinilə bilən robot

**Koreya Qabaqcıl Elm və Texnologiya İnstitutunun (KAIST) mütəxəssisləri onurğa beyni iflicindən əziyyət çəkən insanların gündəlik həyata daha rahat inteqrasiyası üçün geyinilə bilən robot hazırlayıblar. "WalkOn Suit F1" adlı robot alüminium və titandan ibarətdir.**



Çəkisi 50 kiloqram olan cihazın 12 elektron mühərriki insan oynaqlarının hərəkətini simulyasiya edə bilir. Bundan əlavə, ayaqaltı və gövdəsində saniyədə 1000 siqnalı izləyə bilən və istifadəçinin hərəkətlərini əvvəlcədən təxmin edərək ona kömək edən sensorlar mövcuddur.

Mütəxəssislər onu yaradarkən "Iron Man"dən faydalandıqlarını bildiriblər. İflic olmuş insanların yerimələrini, maneələri aşmalarını və pilləkənləri qalxmalarını təmin edən robotdan artıq istifadə olunur.

## "Böyüyən" ekranlı ilk noutbuk

**"Lenovo" 6-cı nəsil "ThinkBook Plus" noutbukunu 2025-ci ilin yanvar ayının əvvəlində CES sərgisində təqdim edəcək. Cihazın qeyri-adiliyi onun sürüşərək "böyüyən" ekrana sahib olmasıdır.**




Xüsusi iki displeyli dizaynı sayəsində noutbukda cihazın aşağı hissəsində videolara baxmaq, yuxarı hissəsində isə mətn işi və ya proqramlaşdırma ilə məşğul olmaq mümkün olacaq.

## Səsdən 4 dəfə sürətli təyyarə mühərriki

**Çinin "Lingkong Tianxing Technology" kosmik nəqliyyat şirkəti sərnişin təyyarələrindən təxminən 2 dəfə yüksəklikdə işləyə bilən, dəfələrlə sürətli olan yeni mühərriki uğurla sınaqdan keçirib. "JinDou400" adlanan mühərrik 20 min metr yüksəklikdə 5000 km/saat sürətlə uçması nəzərdə tutulan "Yunxing" səsdən sürətli sərnişin təyyarəsinin əsas hissəsi olacaq.**



Ənənəvi ramjet mühərrikləri hava axınını mühərrikə daxil edib onu sıxışdırmaq üçün təyyarənin sürətinə güvənərək işləyir. Bu sıxılmış hava yanacaqla qarışdırılaraq yanır və itələmə qüvvəsi yaradır. Sadə quruluşa malik bu mühərrikdə turbin və kompressor kimi hərəkətli hissələr yoxdur. Lakin "JinDou400" sabit yanma əvəzinə partlayışlı (detonasiya) yanmanı istifadə edir. Yanma kamerasında idarə olunan partlayışlar yaradılır ki, bu da adi yanmadan daha güclü və effektivdir. Bunun sayəsində mühərrik daha az yanacaqla daha çox itələmə qüvvəsi yaradır və yüksək səmərəliliklə işləyir. Bu isə yalnız çox yüksək sürətlərdə mümkün olur.

Mühərrikin uzunluğu 3 metr, diametri isə 30 santimetrdir. "JinDou400" bu ölçüdə bir mühərrik üçün çox diqqətçəkən olan 400 kqf itələmə qüvvəsi yarada bilir. Ramjet mühərrikləri ənənəvi turbojetlərdəki kompressor və turbin kimi hərəkətli hissələrə malik olmadığından daha kompakt, yüngül və səmərəli olmaqla yanaşı, daha aşağı xərclə istehsal edilə bilir. Onların çatışmazlığı isə aşağı sürətlərdə tamamilə qeyri-effektiv olmalarıdır. Buna görə də sürəti səsdən aşağı olan uçuşlarda təyyarənin uça bilməsi üçün ramjetlər turbojetlərlə birlikdə istifadə edilir.

## İnsanabənzər sənaye robotları

**Dünyanın ən böyük elektromobil istehsalçılarından olan "BYD" 15-ci biznes şöbəsi əsasında süni zəka əsaslı məhsulların hazırlanmasına istiqamətlənmiş xüsusi laboratoriyasını formalaşdırıb.**



Şirkətin 2003-cü ildə qurulan bu biznes şöbəsinin əsas fəaliyyət istiqaməti batareyalar, mühərriklər və elektron sistemlər də daxil olmaqla müxtəlif avtomobil komponentlərinin hazırlanmasıdır.

Hazırda "BYD"nin tabeliyində olan Elmi-Tədqiqat Texnologiya İnstitutu mütəxəssislərinin böyük bir hissəsini süni zəka laboratoriyasının formalaşdırılmasına, burada insanabənzər sənaye robotlarının hazırlanmasına yönləndirib. Şirkət tezliklə innovativ məhsullarla ilə istifadəçilərini sevindirəcək.

## "Apple" diqqətini smart ev sisteminə yönəldib

**"Apple" şirkəti smart qapı zəngi üzərində də çalışır. Şirkətin hazırladığı qapı zəngi özündə "Face ID" texnologiyasını birləşdirəcək və onu "ağıllı qapı" qıfılına qoşmaq mümkün olacaq.**



Bunun sayəsində istifadəçi evinə daxil olmaq istəyən zaman smart qapı zəngi "Face ID" vasitəsilə onun üzünü skan edəcək və qapı avtomatik olaraq açılacaq. Gözləntilərə əsasən, "ağıllı qapı" zəngi mövcud smart qapı qıfıllarına qoşula biləcək.

Qeyd etmək lazımdır ki, hələ bir müddət öncə məlumat ortaya çıxmışdı ki, "Apple" diqqətini smart ev ekosisteminə yönəldib və bu istiqamətdə yeni məhsulların hazırlanması ilə məşğuldur. Görünür, şirkətin növbəti biznes istiqaməti məhz smart ev sistemləri olacaq.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Qazaxda şəhid məzarları ziyarət olunub

**2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsi, 44 günlük haqq savaşı Azərbaycanın hərb tarixinə və xalqımızın yaddaşına əbədi həkk olunub. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun gücü, qüdrəti sayəsində Azərbaycanın müstəqillik tarixinə yeni şanlı səhifə yazılmışdır.**



Bu möhtəşəm Qələbənin sevincini hər bir azərbaycanlı böyük qürur hissi ilə yaşayır. Qazandığımız bu tarixi Zəfərə görə xalqımız Ali Baş Komandana, Azərbaycan Ordusunun əsgər və zabitlərinə, Vətən uğrunda canından keçən qeyrətli, cəsur oğullarımıza, şəhidlərimizə, qazilərimizə həmişə minnətdar olacaq.

Vətən torpaqlarının ərazi bütövlüyü uğrunda canından keçən igid oğullarımızın xatirəsi Qazaxda da əziz tutulur. Şəhidlərin ailə üzvlərinə, qazilərə həmişə diqqətlə yanaşılır. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə göstərdikləri diqqət və qayğıdan nümunə götürən rayon rəhbərliyi qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində Birinci Şıxlı, İkinci Şıxlı, Yuxarı Salahlı, Daş Salahlı kəndlərində olmuş, şəhidlərimizin məzarlarını ziyarət etmişdir.

Şəhid kapitan Rövşən Pənahovun atası Mahmud Pənahov, leytenant Mayis Yaqubovun anası Ruhiyyə Yaqubova və başqaları şəhid ailəsi kimi hər zaman onlara göstərilən qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildirmiş, övladlarının doğum və anım günlərində, bayramlarda yad olunmasını yüksək qiymətləndirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Mənim sualım var

*Bakıda evim var, amma çıxarışım yoxdur. Qeydiyyata necə düşə bilərəm?*

***Mətanət XƏLİLOVA,***
***Lənkəran rayonu***

✓ Sualınıza cavab olaraq bildiririk ki, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin ikinci hissəsinin 2-ci bəndinə, habelə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin 2-ci bəndinin "a" yarımbəndinə əsasən, yaşayış yeri üzrə qeydiyyata alınmaq üçün tələb olunan sənədlərə əsas etibarilə mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə və ya kirayə müqaviləsi aiddir. Yaşayış yeri üzrə qeydiyyat orqanı qismində Daxili İşlər Nazirliyi çıxış edir. Əsasnamənin 9-cu bəndində göstərilir ki, əgər şəxsin mülkiyyətdən istifadəyə hüququnu təsdiq edən sənəd yoxdursa, qeydiyyat orqanı şəxsi yaşayış yeri üzrə qeydiyyata almaqdan imtina edir.

Çıxış yolu kimi qeydiyyat orqanının (polis orqanının) olduğu yer üzrə qeydiyyata alınmaqla bağlı məhkəməyə müraciət etməyi tövsiyə edirik. Bunun üçün maraqlarına toxunulan şəxs əmlakın yerləşdiyi yer üzrə qeydiyyat orqanına (polis) həmin orqanın olduğu ünvan üzrə qeydiyyata salınmaqla bağlı müraciət etməlidir. Qeydiyyat orqanından alınacaq imtinadan İnzibati Prosessual Məcəllənin 2.2.2 və 8.1.2-ci maddələrinin tələbinə uyğun olaraq, Bakı İnzibati Məhkəməsinə inzibati orqanın üzərinə yaşayış yeri üzrə qeydiyyata alınma barədə öhdəliyin qoyulması ilə bağlı ərizə verilir. Yalnız bundan sonra məhkəmənin qərarı ilə şəxs qeydiyyat orqanının (polis orqanının) olduğu ünvan üzrə yaşayış qeydiyyatına alınır.

*Bələdiyyədən torpaq sahəsi almışam. Layihəsi, icra hakimiyyətindən icazəsi var. Çıxarış almaq üçün nə etməliyəm? Deyirlər ki, dövlət reyestri xidmətinə müraciət et, xidmət imtina versin, imtinadan məhkəməyə müraicət et. Başqa hansı yol var?*

***Elşən ƏLİYEV,***
***Bakı şəhəri***

✓ Qeyd olunmalıdır ki, daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün əsaslar və qaydalar "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq tənzimlənir. Həmin əsaslardan biri də qanunla müəyyən edilmiş qaydada bələdiyyə orqanları tərəfindən bələdiyyələrə məxsus olan daşınmaz əmlakın özgəninkiləşdirilməsinə dair qəbul olunmuş aktlardır. Qeyd olunan sənəddən başqa, siz "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 10.2-ci maddəsinə əsasən, torpaq sahəsinin planı və ölçüsü; torpaq sahəsində bina, qurğu, tikililərin və digər daşınmaz əmlak (onların tərkib hissələri) yerləşirsə, onların texniki pasportu, plan-cizgisi və dövlət rüsumunun ödənilməsi barədə sənədi hüquqlarınızın qeydiyyatı ilə bağlı Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestrinə (DƏDKR-yə) ünvanlanacaq ərizəyə əlavə etməlisiniz. Qanunun 9.2-ci maddəsinə əsasən, DƏDKR ərizənin və ona əlavə edilən sənədlərin təqdim edildiyi gündən 10 iş günü müddətində daşınmaz əmlak üzərində hüquqları dövlət qeydiyyatına alır və elektron qaydada dövlət reyestrindən çıxarış tərtib edir. Əgər müraciətiniz yuxarıdakı meyarlara cavab verməsinə baxmayaraq, DƏDKR-dən imtina cavabı alsanız, siz inzibati prosessual qanunvericiliyə uyğun olaraq, həmin qurumdan əmlakın yerləşdiyi yer üzrə inzibati məhkəməyə şikayət edərək, inzibati orqanın üzərinə öhdəlik qoyulması ilə bağlı tələb irəli sürə bilərsiniz.

Məhkəmə bir qayda olaraq orqanın üzərinə qeydiyyat üçün əsas olan sənədlərin qəbul olunması və həmin şəxsin əmlak hüquqlarının tanınması barədə öhdəlik qoyur və qərar vətəndaşın xeyrinə çıxarıldığı halda bunun əsasında torpağa dair çıxarış verilir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
Microsoft Office365 Apps proqram təminatı lisenziyalarının satın alınması məqsədilə
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 10 yanvar 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***


# Beynəlxalq axtarışda olduğuna görə Polşada tutulan şəxs Azərbaycana ekstradisiya ediləcək

**Polşanın hüquq-mühafizə orqanları ilə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq uğurla davam etdirilir.**

"Ekstradisiya haqqında" 13 dekabr 1957-ci il tarixli Avropa Konvensiyasının tələblərinə uyğun olaraq, Gürcüstan vətəndaşı Ağacanov Ülpət Fizuli oğlunun ekstradisiyası haqqında Baş Prokurorluğun vəsatəti Polşa Respublikasının Lodz Rayon Məhkəməsi tərəfindən təmin edilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, Ü.Ağacanovun qabaqcadan əlbir olan bir qrup şəxs halında qəsdən adam öldürmə cinayət əməlini törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən, barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilməklə istintaqdan qaçıb gizləndiyi üçün beynəlxalq axtarışa verilib.

O, 2024-cü ilin oktyabr ayında Polşanın Kutno şəhərində müəyyən edilərək həbs olunub. Verilmə haqqında qərar qanuni qüvvəyə mindikdən sonra onun ölkəmizə gətirilməsi təmin ediləcək.

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərliyə anası

**ŞƏKİL NƏZƏROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kəlbəcər rayonunun sabiq deputatı Əlövsət Ağalarov aviaqəzada həlak olmuş bələdçi

**HÖKÜMƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"MATANAT A" Şirkətlər Qrupunun rəhbərliyi və kollektivi Bakı-Qroznı istiqamətində uçan şərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində

**HƏLAK OLANLARIN**

ailələrinə dərin hüznlə başsağlığı verirlər.

---

Qusar Rayon İcra Hakimiyyətinin başçısı Sahir Məmmədxanov Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Maliyyə-inzibati şöbəsinin müdiri Adil Əhmədova bacısı

**TÜNZALƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4233
Sifariş 2982

Qiyməti 60 qəpik